**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SAMİR FUAD oğlu İSAYEV**

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN İSRAİL VƏ İRAN İLƏ SİYASİ ƏLAQƏLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**HSM-060211-Regionşünaslıq (İsrail və Yaxın Şərq üzrə)**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

**Elmi rəhbər:** ***t.ü.f.d, dosent A.Ş. Şahmuradov***

**BAKI- 2022**

# MÜNDƏRİCAT

**GİRİŞ.................................................................................................................3**

**I FƏSİL. AZƏRBAYCANIN İSRAİL VƏ İRAN İLƏ ƏLAQƏLƏRİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR...........................................................................7**

1. Azərbaycanın İsrail və İran ilə əlaqələrinin tarixi kökləri.........................7

2. Müasir beynəlxalq münasibətlər sistemində İsrail və İranın yeri və rolu.....................................................................................................................13

3. İsrail və İranın Azərbaycandakı maraqları və onların müqayisəli təhlili....................................................................................................................23

**II FƏSİL. MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN İSRAİL VƏ İRAN İLƏ SİYASİ ƏLAQƏLƏRİNDƏ OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏR.....................34**

1. Azərbaycan-İsrail və Azərbaycan-İran ikitərəfli siyasi əlaqələrinin istiqamətləri və məzmunu ............................................................ 34

2. Beynəlxalq və regional təşkilatlar çərçivəsində Azərbaycanın İsrail və İran ilə əlaqələrinin xarakteri və nəticələri .............................................................. 49

3. Azərbaycanın İsrail və İran ilə əlaqələrinin perspektivləri ......................59

**NƏTİCƏ...........................................................................................................68**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI........................................70**

# GİRİŞ

**Mövzunun aktuallığı.** 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası müstəqil xarici siyasət yeridir. Bu siyasət Azərbaycan dövlətini gücləndirmək və inkişaf etdirmək, milli maraqlarını qorumaq məqsədi daşıyır. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən milli suverenliyə və ərazi bütövlüyünə hörmət, daxili işlərə qarışmama prinsipləri əsasında xarici siyasət həyata keçirir. Demokratik tərəqqi yolunu seçən Azərbaycanın ümumi məqsədi qonşu və digər ölkələrlə müxtəlif sahələrdə ikitərəfli və çoxtərəfli qaydada, bərabərhüquqlu və qarşılıqlı faydalı münasibətlər qurmaq və inkişaf etdirməkdir.

Azərbaycanın əlaqə saxladığı ölkələr sırasında İsrail və İran xüsusi yer tutur. Azərbaycanın xarici siyasətdə bu iki ölkə ilə olan münasibətlərin xüsusiliyi bir neçə səbəblə əlaqədardır. Aəzrbaycanda yəhudi icmasının mövcudluğu, İran ilə olan ortaq tarix diqqəti daha çox cəlb edir**.** Azərbaycan cənub qonşusu olan İranla əməkdaşlıq edir və bu ölkələrin cooğrafi cəhətdən yaxınlığı əməkdaşlığın daha da inkişaf etməsinə şərait yaradlr. Azərbaycan İsrail ilə tərəfdaşdır. Müxtəlif sahələri əhatə edən qarşılıqlı əməkdaşlıq hər iki ölkəni bir-birinə daha çox yaxınlaşdırır.

Mövzunun tədqiq olunması Azərbaycanın İsrail və İran ilə əlaqələrini müqayisəli şəkildə öyrənmək baxımından əhəmiyyətlidir. İsrail və İranın Azərbaycanla bağlı olan maraqları, Azərbaycanın bu maraqları öz lehinə dəyişdirməsi və balasnlı siyasət yürütməsi ilə bağlı məsələləri öyrənmək həm elmi, həm də perspektiv cəhətdən böyük əhəmiyyət kəsb edir.

Problemin tədqiqi İsrail-İran qarşılıqlı əlaqələrinə aydınlıq gətirmək cəhətdən də faydalıdır. Məlumdur ki, İsrail və İran arasında münaqişə vəziyyəti mövcuddur. Azərbaycan İsrail və İran arasında olan gərginlikdə tərəf tutmayaraq, hər iki ölkə ilə əlaqə saxlayır. Müxtəlif sahələri əhatə edən bu əməkdaşlıq hər hansı bir ölkə əleyhinə yönəlməmişdir.

Azərbaycanın İsrail və İran ilə əlaqələrinin müqayisəli təhlili bu ölkələrin, ümumilikdə, Cənubi Qafqaz siyasətinə aydınlıq gətirmək baxımından da aktualdır.

Müraciət olunan mövzunun öyrənilməsi Azərbaycanın İsrail və İran ilə münasibətlərində müsbət cəhətləri və problemləri üzə çıxarmaq, problemləri aradan qaldırmaq yollarını tapmaq nöqteyi-nəzərindən də əhəmiyyətlidir.

**Problemin öyrənilmə dərəcəsi.** Tədqiqat prosesində mövzu ilə bağlı azərbaycan, türk, ingilis, rus, ivrit və fars dillərində mövcud olan ədəbiyyat bazasından, qəzet və jurnal materiallarından, rəsmi sənədlərdən və müxtəlif internet resurslarından istifadə edilmişdir

Azərbaycanda mövcud olan yəhudi icmasının tarixi ilə bağlı məqamların araşdırılması zamanı M.Bekkerin(92)tədqiqatlarından istifadə olunmuşdur. Bu mənada G.Gretzin(72)tədqiqatları da əhəmiyyətlidir.

Dissertasiya üzərində iş zamanı Azərbyacanın xarici siyasəti və bu kontekstkdə onun İsrail və İran ilə əlaqələri ilə bağlı məqamların yer aldığı əsərlərdən də istifadə olunmuşdur. Belə əsərlər Ə.M.Həsənovun tədqiqatlarını misal göstərmək olar. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərini tədqiq etmək baxımından Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin nəşr etdiyi məqalələr toplusu əhəmiyyətli hesab edilə bilər.

Azərbaycan-İsrail münasibətlərini təhlil etmək üçün istifadə olunan materiallar arasında İ.Bourtmanın məqaləsini vurğulamaq lazımdır. Q.Lidenstraussun məqaləsi də Azərbaycan-İsrail əlaqələrini tədqiq üçün əhəmiyyətli hesab edilə bilər. Bu məqalələrə əlavə olaraq Azərbaycanın İsrail ilə olan əlaqələrinin müxtəlif aspektlərini müəyyən etmək baxımından A.Murinsonun tədqiqatından istifadə edilmişdir.

Azərbaycan-İran münasibətlərini öyrənmək üçün N.Nəsiblinin məqaləsindən istifadə edilmişdir. İki ölkə arasında olan münasibətləri təhlil etmək məqsədi ilə rəsmi sənəndlərdən, ölkə rəsmilərinin çıxışlarından, hər iki ölkənin yerli mətbuatında dərc edilən məlumatlardan istifadə edilmişdir.

Azərbaycanın İsrail və İran ilə əlaqələri barədə dünyanın müxtəlif ölkələrində nəşr olunan qəzet və jurnallarda çoxsaylı materillar verilmişdir. Bu sırada A.Qutun

müəllifi olduğu və İsrail-Azərbaycan münasibətlərinə həsr olunan məqalələrini xüsusi qeyd etmək lazımdır.

Azərbaycan Respublikasının rəsmi dövlət qurumlarının statistik məlumatları Azərbaycanın iki ölkə ilə olan münasibətlərinin müəyyən sahələrə aid olan statististik məlumatlarını müqayisə etmək üçün tədqiqat prosesi zaman əhəmiyyətli olmuşdur.

Tədqiqat prosesində potensial internet resurslarından istifadə olunmuşdur.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işin əsas məqsədi Azərbaycanın müstəqilliyini bətpa etdiyi dövrdən başlayaraq, İsrail və İran ilə münasibətlərini öyrənmək, ikitərəfli münasibətlərdə ölkənin siyasətini müəyyən etməkdən və bu münasibətlərin hansı səviyyədə tənzimlənməsini xarakterizə etməsini aydınlaşdırmaqdan ibarətdir.

Müəyyən olunmuş məqsədə çatmaq üçünaşağıda göstərilən vəzifələr müəyyənləşdirilmişdir:

- Azərbaycanın İsrail və İran ilə əlaqələrinin tarixi köklərini aydınlaşdırmaq
- Müasir beynəlxalq münasibətlər sistemində İsrail və İranın yerini və rolunumüəyyənləşdirmək
- İsrail və İranın Azərbaycandakı maraqları və onların müqayisəli təhlilini aparmaq
- Azərbaycan-İsrail və Azərbaycan-İran ikitərəfli siyasi əlaqələrinin istiqamətləri və məzmununu izah etmək
- Beynəlxalq və regional təşkilatlar çərçivəsində Azərbaycanın İsrail və İran ilə əlaqələrinin xarakteri və nəticələrini aydınlaşdırmaq
- Azərbaycanın İsrail və İran ilə əlaqələrinin perspektivlərini proqnozlaşdırmaq.

**Tədqiqat işinin metodoloji bazası.** Tədqiqat işi hazırlanarkən istifadə olunan metodlar arasında induksiya metodundan istifadə olunmuşdur. Belə ki, bu metod vasitəsilə Azərbaycanın İsrail və İran ilə münasibətləri arasında müəyyən ümumiləşmələr aparılmışdır. Həmçinin, xüsusi nəticələrə əsaslanan deduksiya metodundan da istifadə olunmuşdur. Eyni zamanda analiz və sintez metodu vasitəsilə Azərbaycanın hər iki ölkə ilə müxtəlif sahələrdə münasibətləri öyrənilmişdir.

Müqayisə metodundan istifadə edərək, Azərbaycanın İsrail və İran ilə münasibətlərinin müqayisəli təhlili aparılmışdır.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini müasir dövrdə Azərbaycanın İsrail və İran ilə siyasi münasibətlərinin müqayisəli təhlili təşkil edir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmetini Azərbaycanın İsrail və İran ilə əlaqələrinin tarixi kökləri, müasir beynəlxalq münasibətlər sistemində İsrail və İranın yeri və rolu, İsrail və İranın Azərbaycandakı maraqları və onların müqayisəli təhlili, Azərbaycan-İsrail və Azərbaycan-İran ikitərəfli siyasi əlaqələrinin istiqamətləri və məzmunu, beynəlxalq və regional təşkilatlar çərçivəsində Azərbaycanın İsrail və İran ilə əlaqələrinin xarakteri və nəticələri və bu əlaqələrin perspektivləri təşkil edir.

**Dissertasiyanın xronoliji çərçivəsi.** Tədqiqat işi xronoloji cəhətdən 1991-2022-ci illəri əhatə edir.

**Dissertasiyanın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi hər şeydən əvvəl Azərbaycanın İsrail və İran ilə əlaqələrinin müqayisəli və kompleks şəkildə ilk dəfə tədqiq olunması ilə bağlıdır. Dissertasiyada qeyd olunan əlaqələrin dinamikası öyrənilmiş, bu sahədə mövcud problemlərin səbəbləri və mahiyyəti aydınlaşdırılaraq qiymətləndirmələr aparılmışdır.

**Dissertasiyanın elmi və praktiki əhəmiyyəti.** Dissertasiyada yer alan materillar müəyyən elmi əhəmiyyət daşıyır. Azərbaycanın İsrail və İran ilə əlaqələri ilə bağlı yeni tədqiqatların aparılmasında, proqnozların verilməsində bu materiallardan istifadə oluna bilər.

Tədqiqat işində yer alan materiallar və əldə edilmiş nəticələr dərs vəsaitlərinin, tədris proqramlarının, mühazirə mətnlərinin hazırlanmasında da əhəmiyyətli ola bilər.

**İşin aprobasiyası**. Mövzu ilə bağlı bir məqalə və bir tezis yazılmış, tezis Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş illik konfransdakı məruzələrin tezislərində çap edilmiş, məqalə isə "Gənc tədqiqatçıların elmi əsərləri" adlı jurnalda çap olunmaq üçün qəbul olunmuşdur.

**Tədqiqat işinin strukturu.** Dissertasiya işi giriş, iki fəsil, altı paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# FƏSİL 1. AZƏRBAYCANIN İSRAİL VƏ İRAN İLƏ SİYASİ ƏLAQƏLƏRİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

## 1.1 Azərbaycanın İsrail və İran ilə əlaqələrinin tarixi kökləri

Azərbaycanda çox sayda etnos yaşayır. Onlardan biri də yəhudilərdir. Yəhudilər bu ərazilərə müxtəlif dövrlərdə gəlmişdirlər. Ölkə ərazisində 3 fərqli yəhudi qrupu yaşayır: dağ yəhudiləri, aşkenazi yəhudiləri və gürcü yəhudiləri.

Azərbaycana ərazisinə yəhudilərin ilk gəlişi e.ə 568-ci ilə aid edilir. Babil hökmdarı II Novuxodnosor Qüdsü ələ keçirmiş və bu hadisədən sonra yəhudiləri regiondan qovmuşdur. Məhz bu proses nəticəsində müxtəlif ərazilərə köç edən yəhudilər Azərbaycana da gəlmişdilər (92, c. 5).

Qeyd etmək lazımdır ki, yəhudilərin Midiya dövlətində də yaşadığını təsdiq etməyə əsas verən mənbələr mövcuddur. Midiyada yəhudilərin yaşadığını sübut edən faktlar "Esterin Kitabı"nda yer almışdır (64). Bu mövqenin gerçəkliyi V.F.Miller tərəfindən də təsdiq edildi. Sinedrion sisteminin rəhbəri Qamalielin mesajı da bunu sübut edir: "Babildə, Midiyada, Yunanıstanda (İoniya) sürgün edilmiş qardaşlarımıza və bütün digər yəhudi sürgünlərinə salam olsun. Sizə bildiririk ki, quzular hələ zəifdir, göyərçinlər hələ də təzəcə balalayır və ümumiyyətlə, bu il yaz gec gəldi, ona görə də mən və yoldaşlarım cari ili 30 gün artırmaq istəyirik (76).

Sasani imperiyasında da yəhudilər yaşamışdırlar. Başlanğıcda, daha doğrusu I Ərdəşirin hakimiyyət illərində yəhudilər dini etiqadlarına görə ölkədə sıxışdırılmışdır. Zərdüştülüyün ön plana çıxması təkallahlı dinə qarşı mübarizəni gücləndirdi. Daha sonra, I Şapurun hakimiyyətə gəlməsi ilə yəhudilərə dinlərinə sərbəst şəkildə sitayiş etmə barədə güzəştlər edildi (92, c. 10). Sasanilər dövründə hakimiyyətə qarşı hərəkat formalaşdı. Məzdəkilər hərəkatı adlanan və kütləvi hal almış iğtişaşların məqsədi bərabərliyin təmin edilməsi idi. Hərəkat uğurlu başlasa da, sonda məğlub oldu. Üsyan

yatırlmış, çoxlu sayda öldürülənlər və sürgün edilənlər olmuşdur. Yəhudilərin müəyyən tarixini əhatə edən Seder Olam Zuta (סדר עולם זוטא) sənədində Məzdəkilər hərəkatında farslarla yanaşı Babildən qovulmuş yəhudilərin olduğu da qeyd edilir. Xosrov Ənuşirvanın üsyanı yatırması ilə sağ qalan farslarla birgə yəhudilər də ölkədən Qafqaz ərazisinə qaçmışdılar (96, c. 131-145). Lev Qumilyovun qeydlərində də hərəkatdan sonra qafqaza köç edən yəhudilərdən bəhs edilir. Onlar Sulak və Terek çayları arasında olan obada məskunlaşdılar. Şabbat kimi ənənələrini davam etdirsələr də, bəzi qanunlarını unutmuşdular. Yəhudilər burada xəzərlərlə birgə yaşamışdılar və səyahət etmişdilər (193, c. 160-174).

Yəhudilərin Qafqaz istiqamətinə doğru köçməsi onların Azərbaycan ərazisində də məskunlaşmalarını sübuta yetirir. Bir əraziyə doğru köç edən xalqın kompakt şəkildə hərəkət edib məskunlaşması ilə bərabər onlardan ayrılan qruplar başqa ərazilərdə məskunlaşmış və nəticədə yəhudilərin izlərinə regionun müxtəlif ərazilərində təsadüf edilir.

Azərbaycanın qonşuluğunda yerləşən Xəzər xaqanlığı iudaizmi qəbul etmiş türk xaqanlığı hesab olunur. Xəzər xaqanlığı ilə bağlı araşdırmalarda istinad edilən mənbələrdən biri Həsdai İbn Şarputun "Xəzər yazışmaları"dır. Həsdai İbn Şarput, düzgün olaraq xəzərləri, yəhudilərin nəslindən gəlməsi fikrini qəbul etmir, onların sadəcə iudaizmi qəbul etmiş türk xalqı olduğunu təsdiq edirdi (97). Öz Asiya və Şərqi Avropada yəhudilərin təqibi onların digər ərazilərə qaçmasına səbəb olmuşdur. Bizans və Sasani imperiyalarından qaçan yəhudilər Xəzər xaqanlığına üz tutmuşdular. Bu köçmələr nəticəsində ölkədə yəhudilərin sayı artmışdır. Fərqli müsəlman ölkələrindən və Bizansdan yəhudilər xəzərlərə köçməyə balşadı çünki, Bizans hakimiyyəti yəhudilərə xritianlığı qəbul etdirmək üçün təqiblər və sıxışdırmalar tətbiq edirdi (103, c. 13-20). 854-cü ildə Xəzər xaqanlığına səfər etmiş əl-Məsudi qeydlərində , paytaxt əhalisinin yəhudilər, müsəlmanlar, xristianlar və bütbərəstlərdən ibarət olduğunu yazırdı.

Xaqanlıq Kiyev Rus dövləti və Bizans birləşmiş qüvvələrinin hücumu ilə süquta uğradıldı. Budan sonra xaqanlığın əhalisi regiona yayılmağa başladı. Ehtimal edilir ki, indiki dağ yəhudilərinin əcdadları məhz bu dövrdən sonra Cənubi Qafqazda

məskunlaşmışdılar. Tarixi mənbəlırdə əsasını tapmayan bu fikir fərqli ehtimallara da yol açır.

Orta əsrlərdə yəhudilərin Azərbaycanda olması faktını fransalı Vilhelm de Rubrukb özünün "Dünyanın şərq hissəsinə səyahət" kitabında təsdiq edir. Kitabında qeyd edir ki, Samaron adlı bir qəsəbə tapıblar və həmin qəsəbədə yəhudilərə rast gəliblər (95).

Elxanilər (1258-1357) dövlətində mövcud olan dini tolerantlıq yəhudiləri də Azərbaycana cəlb edirdi. Arqun xanın vəziri Səad əd-Dövlə yəhudi idi. O dövlətin bütün daxili və xarici siyasətini idarə edirdi. Yəhudi olan Müxəzzim əd-Dövlə Təbriz əyalətinin paytaxtının inzibati idarəsinin rəisi idi. Yəhudi Ləbid bin Əbi-r-Rəbi ümumilikdə Azərbaycan idarə sisteminə rəhbərlik edirdi (101, c. 13-14)

Azərbaycanda xanlıqlar dövründə də yəhudilərin burada yaşamasını görmək mümkündür. Nadir Dağıstanda ruslara müqavimət göstərmiş, bir sıra məntəqələri ələ keçirmişdir. Dağ yəhudiləri öz yaşadıqları yerlərdən Qubaya doğru istiqamət alırlar. Onlar burada Hüseyin Əli xanın himayəsi altında qalmışdılar. 1797-ci (və ya 1799) ildə Surxay xan Dagıstanda yəhudi məskəni Aba-Savaya hücum edir. Ərazini ələ keçirib, insanları qətlə yetirir. Sağ qalmış yəhudilər Qubalı Fətəli xanın himayəsinə sığınmışdılar (108). Fətəli xan ictimai həyatda aktiv olan yəhudi əhalisinə xeyirxah bir münasibət bəsləyirdi. Təsadüfi deyildir ki, sonrakı dövrdən günümüzə qədər yəhudilərin Azərbaycanda əsas yaşayış məskəni olan Qubadakı Qırmızı qəsəbənin mərkəzi küçəsi Fətəli xanın adını daşıyır.

Xanqlılar dövründə yəhudilər Şamaxı, Şəki və Dərbənd xanlıqlarında da yaşayırdılar. Yaşayış məntəqələri çoxalmaqda olan yəhudilərə sonrakı dövrlərdə indiki Oğuz və Göyçay rayonlarının ərazisində rast gəlinmişdir.

Rusiyanın Azərbaycanı işğal etməsindən sonra Aşkenazi yəhudiləri burada gəlməyə başlamışdırlar. Bakıya köçən yəhudilər müstəlif sahələrdə çalışırdılar və ölkənin sosial həyatında iştirak edirdilər. 1832-ci ildə Bakıda yəhudilərin ilk ibadət evi tikildi.

Bakıda neft sənayesinin inkişafı ilə dünyanın hər yerindən buraya sahibkarlar və mütəxəssislər üz tuturdu. Onların arasında yəhudilər də var idi. Bakıda neft sənayesinin

qabaqcılları sırasında Q. Polyak, A. Dembo və H. Kaqan, Q. Qunzburq, A.Feygel və başqa yəhudi sənayeçiləri var idi.

Bakı neft sənayesinin inkişafında Rotşildlər də müəyyən rol oynayırdılar. Onların əsasını qoyduğu "Xəzər-Qara dəniz şirkəti" Qafqazda seçilən şirkətlərdən idi. 1913-14-cü illərdə Bakıda kerosin istehsalında yəhudilərin rəhbərlik etdiyi şirkətlərin xüsusi çəkisi yüksək idi. Kimyaçı-texnoloq A.Beylin Bakıda neft emalı prosesinin təkmilləşdirilməsinə böyük töhfə vermişdir (109).

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Cümhuriyyət dövründə Azərbaycanda mənsubiyyətindən asılı olmayaraq, hamı, o cümlədən yəhudilər ölkənin siyasi-ictimai, sosial-iqtisadi və mədəni həyatında iştirak edə bilərdi. 1919-cu ilin dekabrında parlament yardıldı. Azərbaycan parlamentində yəhudilər və digər milli azlıqlar da təmsil olunmuşdular. Yəhudi Milli Şurasına sədr doktor M.A.Quxman seçildi. Bir çox nazirlik və idarələrin əməkdaşları arasında da xeyli sayda yəhudiyə rast gəlmək olardı. İ. D. Rabinoviç hökumətdə xüsusi tapşırıqlar üzrə sədr vəzifəsində Müxtəlif şöbələrdə sui-istifadə hallarını araşdırmaq üçün xüsusi təftiş və təhqiqat komissiyası yaradılmış və bu komissiyanın katibi Korets Lev Borisoviç idi. Mark Mixayloviç Abezqauz maliyyə naziri, Dövlət Bankının sədri idi. Azərbaycan Xalq Cümhuriyyətində səhiyyə naziri isə Yevsey Gindes idi (90).

Rusiyanın imperialist siyasəti nəticəsində Azərbaycan Xalq Cümhruiyyəti 1920-ci ildə süquta uğradı. Sovet hakimiyyəti dövründə də müxtəlif sahələrdə yəhudilərin fəal iştirak etdiyini müşahidə etmək mümkündür. Geoloq F.Levinson-Lessinq SSRİ Elmlər Akademiyası Azərbaycan Bölməsinin sədri idi. Bakıda yiddiş və yəhudi-tat dilində məktəb fəaliyyət göstərirdi. Burada müəllim F.Şapiro idi. Həmin dövrdə yəhudilər redaksiyalarda, qəzetlərdə və digər sahələrdə də işləyirdilər.

Sovet İttifaqında dövlət statuslu ivrit dili kursları 1987-ci ildə Bakıda açılmışdır. 1989-cu ildə yenə Bakıda "Ələf" yəhudi mədəniyyəti klubu təşkil olundu; həmin il Sumqayıtda yəhudilərin "22" klubu açıldı, Bakıda isə kiçik tirajlı "Şalom-Şolem-Şolomi" xəbər bülleteni çıxmağa başladı. 1990-cı ildə Azərbaycan-İsrail Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti yaradılmış, 1992-ci ildən "Azİz" qəzetinin nəşrinə başlamışdır (107).

Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini elan etdikdən sonra İsrail ilə rəsmi münasibətlər qurulmuşdur. İkitərəfli əlaqələr müxtəlif sahələrdə inkişaf etmişdir. Tarixən yəhudi icmasının ölkə ərazisində yaşaması, onlara tolerant münasibət hazırda da davam etməkdədir. Quba rayonunda yerləşən Qırmızı Qəsəbə dağ yəhudilərinin əsas məskəni hesab edilir. Altı Günbəz sinaqoqu, Giləki sinaqoqu Qırmızı qəsəbədə yerləşir.

Qubadan başqa, yəhudilər Bakıda, Oğuzda və Göyçayda məskunlaşmışlar. Bakıda aşkenazi yəhudilərinin və dağ yəhudilərinin sinaqoqu mövcuddur. Bakıdakı Xabad-Or-Avner təhsil mərkəzi Heydər Əliyev fondu və Or-Avner fondu tərəfindən inşa edilmiş təhsil mərkəzidir. Mərkəzdə yəhudi uşaqlar tədris alırlar.

Azərbaycanda təmin olunan multikultural və təhlükəsiz mühit yəhudiləin burada tam sərbəst yaşaması üçün şərait yaradır.

Azərbaycanın İran ilə tarixi əlaqələri mövcuddur. Bu tarixi əlaqələr müxtəlif dövrlərdə hər iki ölkəninn eyni dövlətlərin tərkibində olması ilə əlaqəlidir.

Əhəmənilər imperiyası bir sıra əraziləri əhatə etdiyi kimi, Azərbaycan və İran ərazilərini də əhatə etmişdir.

Makedoniyalı İskəndər e.ə 330-cu ilə qədər Əhəminələr imperiyasını böyük hissəsini fəth etdi. Bu dövrdə Azərbaycan və İran əraziləri də İsgəndərin hücumlarına məruz qalmışdır (95). İsgəndərin ölümündən sonra isə qeyd olunan ərazilər Ptolomey krallığının və Selevkilərin təsiri altında olmuşdur. Azərbaycan ərazisində Atropatena dövləti e.ə 323-cü ildə Atropat tərəfindən yaradılmışdır. Mərkəzi indiki İranın Şiamal hissəsidir. Bu ölkə də Azərbaycan və İran ərazisində mövcud olmuşdur.

Parfiya dövləti Selevkilərin süqutundan sonra yaranmışdır. E.ə 247-e.ə 224-cü illərdə mövcud olmuş imperiya Şimaldan Azərbaycanı və indiki İran ərazisini əhatə etmişdir.

Sasanilər dövləti 226-cı ildə yaranmışdır. 227-ci ildə Atropatena onun vilayətinə çevrilmişdir. 262-ci ildə isə Albaniya ondan asılı vəziyyətə düşmüşdür. Sasanilər ibadət məqsədi ilə Azərbaycana gəlməsi haqqında məlumatlar tarixi mənbələrdən mövcuddur.

Sasanilərin ərəblərə məğlubiyyətindən sonra İran və Azərbaycan əraziləri Ərəb Xilafətinin tərkibinə daxil oldu. Bunula da bölgədə islam dini yayılmağa və təbliğ edilməyə başlandı.

Orta əsrlərdə Azərbaycanda fedodal dövlət qurumları meydana gəlmişdir. Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər. Şirvanşahlar dövləti istisna olmaqla digər 4 dövlətin ərazisinə indiki İran ərazisi də daxil olmuşdur. Sacilər dövlətinin paytaxtı ayrı-ayrı vaxtlarda Marağa və Ərdəbil, Salarilər dövlətinin paytaxtı Ərdəbil, Rəvvadilər dövlətinin paytaxtı Təbriz olmuşdur, Şəddadilərin paytaxtı isə Gəncə şəhəri olmuşdur.

Səlcuqlar dövləti 1038-ci ildə yarandı. Dövlətin tərkibinə Azərbaycan və İran da daxil idi. Onlar Bizansa hücum etmək üçün məhz bu iki ölkənin ərazisidən istifadə etmişdilər.

Atabəylər dövləti Şəmsəddin Eldəniz tərəfindən 1136-cı ildə yaradıldı. Ölkə Şimalda Azərbaycan, cənubda İran ərazisini əhatə edirdi. Şəmsəddin Eldənizin dövründə paytaxtlardan biri Naxçıvan idi. Məhəmməd Cahan Pəhləvan paytaxtı Həmədana köçürdü. Qızıl Arslan dövründə paytaxt Təbrizə köçürüldü.

1231-ci ildə Monqollar Azərbaycana yürüş etdilər. 1256-cı ilə qədər Azərbaycan və İran Böyük Monqol canişini tərəfindən idarə edilirdi. 1256-cı ildə yaranan Elxanilər dövləti. Fars körfəzindən Dərbəndə, Ceyhun çayından Misirə qədər olan əraziləri əhatə edirdi. Marağa, Təbriz və Sultaniyə müxtəlif dövrlərdə paytaxt olmuşdur.

Çobanilər dövləti 1344-cü ildə yarandı. Ölkə ərazisinə Azərbaycan və İran aid idi. Paytaxt Təbriz olmuşdur.

1336-cı ildən 1432-ci ilə qədər Azərbaycan, İran və İraq əraziləri Cəlairilər dövlətinin tərkib hissəsi olmuşdur. Cəlairilərin İlk paytaxtı Bağdad, sonra Təbriz və Bəsrə olmuşdur.

Türk sülalələrinin əsasını qoyduqları Qaraqoyunlular və Ağqoyunlular Azərbaycan və İran ərazisində mövcud olmuş dövlətlərdir.

Azərbaycan və İran ərazilərinin daxil olduqları növbəti dövlət türk Səfəvi sülaləsinin yaratdığı və 1501-ci ildən 1736-cı ilə qədər mövcud olan Səfəvi dövləti idi.

İslam dinin şiə məzhəbi dövlətdə xüsusi yerə malik idi. Bu da Azərbaycan və İran tarixi köklərinə işarə edən amillərdən biridir. Paytaxtlar Təbriz, Qəzvin və İsfahan olmuşdur.

Səfəviləri Əfşarlar dövləti onu isə Qacarlar dövləti əvəzləmişdir. Bu ölkələrin də ərazisinə Azərbaycan və İran aid olmuşdur.

Gülüstan(1813) və Türkmənçay(1828) müqavilələri ilə Azərbaycan şimal və cənub hissələrinə parçalandı. Bundan sonra Azərbaycan və İran əraziləri eyni dövlətin tərkib hissələri deyildi. Xalqlar arasında əlaqələr isə hər zaman olduğu kimi qalmaqda idi.

Azərbaycan Xalq Cümhuriyyəti İran tərəfindən 1921-ci ildə de-yure olaraq tanındı. Bu hadisə iki ölkə arasında olan münasibətlərə müsbət təsirini göstərdi.

Cənubi Aərbaycanda müxtəlif dövrlərdə azadlıq hərəkatları da baş vermişdir. Bu hərəkatlar uğursuzluqla nəticələnsə də, xalqın əzmini qıra bilmək mümkün olmamışdır.

Sovet ittifaqı dövründə Azərbaycan SSR İran ilə əlaqələrində SSRİ-nin ümumi xəttindən çıxış edirdi. Öz növbəsində SSRİ-nin İran siyasətinin mərkəzində Azərbaycan durudu.

1991-ci ildə SSRİ-nin süqutu və Azərbayanın müstəqilliyini elan etməsi ilə Azərbaycan və İran arasında ikitərəfli münasibətlər quruldu.

Azərbaycanın İsrail və İran ilə tarixi əlaqələri onun hazırda da həmin ölkələr ilə münasibətlərinə yol açan amillərdəndir. Tarixi məsələlər bir daha Azərbaycanın necə də tolerant mühit formalaşdıraraq rasional addımlar atdığını göstərir.

Xarici siyasətdə sülh və əməkdaşlıq yolunu seçın Azərbaycan Respublikası tarixi əlaqələrə və müasir maraqlara əsaslanaraq İsrail və İran ilə hərtərəfli əlaqələrin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir.

## 1.2 Müasir beynəlxalq münasibətlər sistemində İsrail və İranın yeri və rolu

“Soyuq müharibə”nin sona çatması ilə yeni dünya nizamı formalaşmağa başladı. İkiqütblü dünya sistemi bitdi, əvəzinə isə Qərb öz üstünlüyünü bərqərar etməyə

çalışırdı. Qərbin dünyada hakim qüvvəyə çevrilməsinə istiqamətlənən bir yol götürülmüşdü. Burada olan əsas vasitə, güc yolu ilə deyil, ideoloji və əməkdaşlıq yolu ilə ölkələri qərb sisteminə çəkməkdən ibarət idi.

1991-cı ilə qədər Yaxın Şərq regionu “soyuq müharibə” iştirakçısı olan tərəflərin rəqabət apardığı və maraqlarının toqquşduğu region olmuşdur. Səbəb ondan ibarət idi ki, Şərq və Qərb bloklarını hər biri regionda özünə tərəfdaş toplamaq istəyir və bunun üçün də əlindən gələn hər bir vasitədən istifadə etməyə çalışırdı. Bu kontekstdə ABŞ-İsrail və SSRİ-ərəb ölkələri vektorları xüsusilə seçilirdi.

ABŞ və İsrail arasında xüsusi münasibətlər mövcuddur. ABŞ-nın xarici siyasətində İsrail ilə əlaqələrin genişləndirilməsinə digər ölkələr ilə olunduğundan çox yer verilir. ABŞ “soyuq müharibə” dövründə digər ərazilərdə, yəni Avropa və Şərqi Asiyada olduğu kimi, İsrail torpaqlarında qoşun yerləşdirməsə də, müttəfiqinin mövqeyini dəstəkləmək üçün bir sıra digər diplomatik, maliyyə və strateji xarakterli tədbirlər həyata keçirirdi.

Yaxın Şərq probleminin həlli prsesində İsrail ABŞ-nın iştirakına xüsusi önəm veriri. 1979-ci ildə İsrail və Misir arasında sülhü təmin edən Kemp Devid sazişləri məhz ABŞ-nın da üçüncü tərəf kimi sülh prosesində iştirakı və vasitəçiliyi ilə mümkün olmuşdur. Bununla ABŞ Misiri SSRİ-dən uzaqlaşdırıb öz tərəfinə çəkmək məqsədi güdürdü. 1993 və 1995-ci illərdə imzalanan Oslo I və Oslo II sazişləri də ABŞ-nın vasitəçiliyi ilə olmuşdur. Bu sazişlər İsrail-Fələstin sülh prosesini özündə ehtiva edirdi. Bütün cəhdlərə baxmayaraq, bu sazişərin ciddi nəticəsi olmadı. 1994-cü il İsrail-İordaniya arasında imzalanan sülh müqaviləsi də ABŞ-nın vasitəsi ilə oldu. Beləliklə İsrail Misirdən sonra ikinci ərəb dövlət ilə sülh müqaviləsi imzalandı. 2002-ci ildə “Sülh üçün yol xəritəsi” adlı bir plan hazırlandı. Bu planı ABŞ, Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatı və Rusiya hazırlamışdı. İsrail-Fələstin arasında aparılan sülh danışıqlarında ABŞ yenə də əsas rol oynayırdı iş görən tərəf Buş administrasiyası olmuşdur. Oslo sazişləri kimi bu plan da nəticəsiz yekunlaşmışdır.

İsrail-ABŞ münasibətləri təkcə ABŞ-nın Yaxın Şərqdə təmin etmək istədiyi sülh proseslərində iştirakı ilə özünü göstərmir. Bu iki ölkə arasında hərbi əməkdaşlıq da mövcuddur, hər iki ölkə hərbi sənaye sahəsində dünyada qabaqcıllardan sayılırlar.

“Arrow roket” sistemi və “Taktiki yüksək enerji lazeri” kimi bir sıra hərbi texnoloji avadanlıqların inkişafı sahəsində əməkdaşlıq edirlər (86).

İki ölkənin xüsusi xidmət orqanları arasında əməkdaşlıq mövcuddur. Onlar müəyyən qaydada kəşfiyyat məlumatlarını mübadilə edir, terrorizmə qarşı birgə fəaliyyət göstərirlər.

2012-ci ildə iki ölkənin iştirakı birgə geniş miqyaslı hərbi təlimlər keçirildi. Təlimlər müxtəlif döyüş vəziyyətlərini və bir sıra tapşırıqların yerinə yetirilməsi məqsədilə təşkil olunmuşdu. “Austere Challenge” adlı bu təlim ölkələrarası münasibətlərin nə dərəcədə yaxın olduğuna daha bir işarə idi (97).

İsrail-ABŞ arasında iqtisadi əlaqələr fərqli bir konktekstdədir. Belə ki, İsrail ABŞ-dan ən çox iqtisadi yardım alan ölkədir. İstər konqres, istərsə də ABŞ-dakı yəhudi lobbisi İsrailə iri miqyaslı maliyyə-iqtisadi yardım ayrılmasını təmin edirlər. İqtisadi əlaqələrin statistikasına nəzər yetirildikdə, aydın olur ki, İsrailin idxalatında ABŞ əsas yer tutur. ABŞ-nın idxalatında isə İsrail bəzi ölkələri geri qoyaraq ön sıralardadır (80).

ABŞ-da İsrail yönümlü, Ağ evin siyasətinə təsir etmək gücündə olan lobbi və maraq qrupları, beyin mərkəzləri mövcuddur. Bu qurumların fəaliyyəti nəticəsində İsrail həm ABŞ-da həm də digər regionlarda kifayət qədər təsir imkanları əldə etmişdir. ABŞ-da fəaliyyət göstərən yəhudi təşkilatları sırasında AİPAC daha fəaldır. Bu qurum seçkilər ərəfəsində konqres üzvlərinə, eləcə də İsrail və Yaxın Şərqlə bağlı məsələlərdə ABŞ-nın siyasi elitasına müxtəlif yollarla təsir edə bilir.

Hal-hazırda bu təşkilatlar daxilində parçalanma prosesləri baş verir, buna baxmayaraq, onlar İsrailin maraqlarını müdafiə etmək istiqamətində fəaliyyəti davam etdirirlər.

Son bir neçə ilə nəzər saldıqda İsrail-ABŞ münasibətlərində tarixi təkrarlanmanın şahidi olmaq olar. Donald Trump administrasiyasının vasitəçiliyi ilə İsrail və ərəb ölkələri arasında normallaşma prosesinə başlanıldı. İsrailin ərəb ölkələri ilə imzaladığı “İbrahim sazişləri” İsrailin Yaxın Şərqdə tərəfdaşlarının dairəsinin genişləndirilməsində böyük rol oynadı.

İsrail-ABŞ hərbi əməkdaşlıqda önəmli inkişaf dinamikası İsrailin hava hücumundan müdafiə sistemi olan Dəmir Qübbənin ABŞ-a satılması diqqəti cəlb edir. Bununla da, ABŞ dünyada İsraildən sonra bu sistemə malik olan ikinci ölkə oldu (110).

İsrailin Avropa ölkələri ilə də münasibətləri mövcuddur.

İsrailin bu region ilə əlaqələri əsasən Avropa İttifaqı çərçivəsində həyata keçirilir. Avropa İttifaqı-İsrail tərəfdaşlığının əsasını siyasi əlaqələr təşkil edir və hər iki tərəf ümumi maraq doğuran məsələlər üzrə müntəzəm olaraq dialoq aparır, qarşılıqlı siyasi əməkdaşlığı inkişaf etdirməklə yanaşı, iqtisadi göstəriciləri əlaqələri də genişləndirməyə çalışır. 2000-ci ildə Aİ-İsrail arasında Assosiasiya Sazişi imzalandı. 2005-ci ildə qəbul edilən Aİ-İsrail Fəaliyyət Planı demokratiya, insan hüquqlarına hörmət, azadlıqlar və qanunun aliliyi kimi ümumi dəyərlərə əsaslanır. O, İsrailin siyasi və iqtisadi sahədə Avropaya inteqrasiyasını təşviq edir. Planın qüvvədə olma müddəti 2025-ci ilin yanvar ayına qədər uzadılıb.

İsrail-Aİ arasında mütəşəkkil cinayətkarlıq, kibercinayətkarlıq və terrorizm əleyhinə mübarizə ilə bağlı bir sıra müqavilələr imzalanmışdır. Bu kimi müqavilələr inteqrasiyanın inkişafı və təhlükəsizliyin təmin olunması baxımından xüsusi rola malikdir (84).

İsrail Aİ-nin 24-cü ən böyük ticarət tərəfdaşıdır. 2020-ci il statistikalarında İsrail və Aİ arasında ümumi mal ticarətinin 0,9% təşkil etdiyini görmək olar (77). İsrail həmçinin Aİ-nin Aralıq dənizi regionunda əsas ticarət tərəfdaşlarından biridir.

Bu ölkə 1949-cu il mayın 11-də Birləşmiş Millətlər Təşkilatına qəbul edildi. İsrail BMT-nin səhiyyə, əmək, ərzaq və kənd təsərrüfatı, təhsil və elm, aviasiyadan immiqrasiyaya, rabitədən meteorologiyaya, ticarətdən qadınların statusuna kimi məsələlərlə məşğul olan, BMT-nin himayəsi altında həyata keçirilən qeyri-hökumət təşkilatlarının işində fəal rol oynayır.

BMT-nin bəzi qətnamələri İsrail üçün həlledici əhəmiyyətə malikdir. Onların arasında Təhlükəsizlik Şurasının ərəb-İsrail mübahisəsinin həlli üçün razılaşdırılmış çərçivəni təmin edən 242 (22 noyabr 1967) və 338 (22 oktyabr 1973) saylı qətnamələri xüsusi əhəmiyyət kəsb edir. BMT illərdir İsrailə qarşı siyasi mübarizə meydanıdır. 21 ərəb dövləti, İslam ölkələri və Qoşulmama Hərəkatında onların müttəfiqi olan

dövlətlərin köməyi ilə Baş Assambleyada İsrail əleyhinə qətnamələrin qəbul edilməsini təmin edən "avtomatik çoxluğu" təşkil etmişdir (87).

BMT Fələstin məsələsininin həll olunmasına istiqamətlənən tədbirlər görsə də, bunlar konkret nəticə verməmişdir. İsrailə tətbiq edilən qətnamələr ya kağız üzərində qalmış, ya da ABŞ-nın veto hüququndan istifadə etməsi ilə onların çoxu qəbul edilməmişdir (51). Beləliklə, İsrail müəyyən məsələlərdə üstünlüyü əlində saxlamaqdadır.

İsrailin NATO ilə də əməkdaşlığı da mövcuddur. İsrail NATO-nun "Aralıq dənizi dialoqu"na qoşulan ilk ölkələrdən biridir. Bu proqram 1994-cü ildə başlamış və regionun digər ölkələrini də əhatə etməkdədir. Məqsəd təhlükəsizlik sahəsində dialoq və əməkdaşlığı təşviq etməkdən ibarətdir. Sülh və Təhlükəsizlik naminə elm proqramı çərçivəsində tədqiqat, informasiya, elm sahələrində mübadilə və əməkdaşlıq nəzərdə tutulmuşdur. Bundan əlavə, təhlükəsizlik məsələlərini özündə əhatə edən, terrorizm, mütəşəkkil cinayətkarlıq və bu kimi digər məsələlərə qarşı keçirilən hərbi təlimlərdə İsraildən olan nümayəndələr də iştirak edirlər.

İsrail-Çin münasibətləri bir növ İsrail-ABŞ münasibətlərinə də təsiredici qüvvəyə malikdir. Təkqütblü dünya qurmaq istəyən ABŞ İsrail ilə Çin əlaqələrini dəstəkləmirdi. Buna baxamyaraq, "soyuq müharibə"dən sonrakı illərdə iki ölkə arasında silah ticarəti mövcud olmuşdur. Çin həm də İsrailin əsas ticarət tərəfdaşıdır.

1995-ci ildə İsrail və Çin arasında "Falcon" radar sisteminin satışı haqqında müqavilə imzalandı. Bu müqavilə ABŞ hökümətinin etirazına səbəb oldu. İsrailə hər il göstərilən 250 milyon dollara bərabər xarici yardım bloklandı. Buna baxmayaraq, İsrail və Çin arasında bu silah ticarəti həyata keçirildi.

Növbəti silah böhranı İsrailini "Harpy" adlı pilotsuz uçuş aparatlarının Çinə satılması barədə razılıqla bağlı idi, amma ABŞ-ın təzyiqləri nəticəsində bu razılaşma həyata keçmədi (78).

2013-cü ildə Benyamin Netanyahu Çinə səfəri zamanı iki ölkə arasında olan münasibətlərin xüsusiliyini vurğulamış, bu münasibətlərin ölkənin ümumi maraqlara söykəndiyini bildirmiş və ikitərəfli əlaqələrin inkişafı üçün konkret addımlar atılacağını vurğulamışdı (94).

2013-cü ildə iki ölkə arasında imzalanmış 400 milyon dollarlıq ticarət müqaviləsi böyük əhəmiyyət kəsb edir. “Bu, ikitərəfli əməkdaşlığın genişləndirilməsi üçün çox mühüm razılaşmadır” deyə Netanyahu bildirib. Çin nəhəng bir bazardır və biz oradakı bazar payımızı bir az da artırsaq, bu, İsrail iqtisadiyyatına əhəmiyyətli dərəcədə kömək edəcək. O, sazişin xarici bazar axtarışında olan İsrail üçün nə qədər əhəmiyyətli olduğunu dilə gətirib (88).

İsrail-Çin iqtisadi münasibətləri hər il inkişaf etməkdədir. Statistik məlumatlara görə 2021-ci ildə İsrail Çindən 10.7 milyard dollarlıq mal idxal edib. 2020-ci ildə isə bu miqdar 7.7 milyard dollar idi. Bu ölkələrarası ticarətin yüksək səviyyədə inkişaf etdiyini göstərir.

İsrail-Çin münasibətlərində “yumşaq güc” amilindən istifadə olunur. Təhsil, mədəniyyət, informasiya və s. kimi sahələrdə ikitərəfli əlaqələr genişləməkdədir.

Bu iki ölkənin münasibətlərində ABŞ və İran faktorunu da nəzərə almaq lazımdır. İsrail ABŞ-ı kənarda qoymaq niyyətində deyil, eləcə də Çin geniş münasibətlərə malik olduğu İranla əlaqələrinə zərər gətirmək istəmir. İsrail-Çin münasibətləri ümumilikdə balanslı xarakter daşıyır.

İsrailin beynəlxalq əlaqələrində Türkiyə ilə münasibətləri də diqqəti cəlb edir. İsrail-Türkiyə münasibətləri enişli-yoxuşlu dinamikası və aktuallığı ilə seçilməkdədir. 1990-cı illərdə “soyuq müharibə”dən sonrakı dövrdə regional əlaqələr, o cümlədən Madrid Sülh konfransı, birinci Körfəz Müharibəsi və Oslo Prosesi Türkiyə və İsrail arasındakı əlaqələri sürətlə dərinləşdirdi və ilk növbədə iqtisadi əlaqələrdən güclü təhlükəsizlik tərəfdaşlığına çevirdi. 1992-2000-ci illər İsrail-Türkiyə münasibətlərində sabitlik dövrü olmuşdur.

2002-ci ilin noyabrında AKP-nin Türkiyədə hakimiyyətə gəlməsi bir növ iki ölkə arasındakı siyasi proseslərə öz təsirini gəstərdi. 2004-cü ildə İsrailin HƏMAS-a qarşı əməliyyatları, bundan sonra R.T.Ərdoğanın bunu qınayan açıqlaması vəziyyətin gərginləşməsinə səbəb oldu.

2009-cu ildə Davosda keçirilən Dünya İqtisadiyyat Forumunda iki ölkə başçısı arasında dialoq münasibətlərə ciddi təsir göstərdi.

2010-cu ildə “Mavi Mərmərə” hadisəsi İsrail-Türkiyə münasibətlərində bütün səviyyələrdə əlaqələri korlayan və hər iki ölkədə ictimai rəyə təsir edən böhranı daha da gücləndirdi. Bu böhrandan soran Birləşmiş Ştatlar özünün bu iki müttəfiqinin barışması üçün vasitəçilik etməyə cəhd göstərdii, lakin heç bir tərəf ilk addımı atmağa tələsmirdi. Türkiyə barışıq üçün üç şərtirəli sürdü: İsrailin üzr istəməsi, Mavi Mərmərə qurbanları üçün təzminat ödənilməsi və Qəzzada blokadanın aradan qaldırılması.

İsrail-Türkiyə münasibətləri 2022-ci ilə qədər nisbətən durğunluq dövrünü yaşadı. Bu qədər siyasi problemləri olması münasibətlərə zərər gətirdi. Siyasi səviyyədə münasibətlər nisbətən zəif olsa da, iqtisadisahədə əlaqələr inkişaf edirdi.

2022-ci ildə İsrail-Türkiyə münasibətləri yenidən bərpa edildi. İsrail prezidentinin Türkiyə rəsmi səfəri, onun qarşılanma mərasimi, keçirilən görüşlər ölkələrarası münasibətlərin perspektivlərinə bir işarə idi. İsrail-Türkiyə münasibətlərinin normallaşmasında Azərbaycanın da müstəsna rolu vardır. Azərbaycanın xaricisiyasi gedişləri, İsrail və Türkiyə ilə yaxın münasibətlərdə olması bu ölkələrin bir-birinə yenidən yaxınlaşmasına müsbət təsir göstərdi.

İsrail-Türkiyə münasibətlərinin müxtəlif sahələrdə inkişaf edəcəyini proqnozlaşdırmaq olar.

Yaxın Şərqdə təsir imkanlarına malik olmaq, region ölkələri ilə münasibətləri inkişaf etdirmək, burada öz hegemonluğunu qoruyub saxlamaq, özünə qarşı hesab etdiyi təhdidləri aradan qaldırmaq İsrailin geosiyasi maraqlarının ümumi çərçivəsini müəyyənləşdirir. Yaxın Şərq öz qarmaqarışıqlığı, habelə günümüzdə silahlı münaqişələrin aktiv olduğu region kimi hər zaman öz məxsusiliyini qoruyub saxlamışdır. Misal olaraq, İsrail və ərəb ölkələri arasında olan müharibələri (hal-hazırda sabitlik hökm sürür), terror qruplarının fəal olaraq aktlar törətməsini və əsas olaraq, regionun iki böyük gücünün, yəni İsrail-İran qarşıdurması göstərilə bilər. İsrailin ərəb ölkələri ilə müharibələri, demək olar, hər zaman onun qələbəsi ilə başa çatıb. Növbəti mərhələdə ərəb ölkələri bir-bir İsrailə qarşı olan əks fikirlərindən əl çəkərək, arada olan gərginliyi azaltmaq məqsədi ilə sülh danışıqlarına getdilər. israil Misir, İordaniya, BƏƏ, Bəhreyn, Mərakeş ilə ikitərəfli razılaşmalar imzalayıb. Aydın olur ki, İsrailin ərəb ölkələri ilə dinc münasibətləri regional güc kimi onun təsir

gücünün genişlənməsinə gətirib çıxarır. Təbiiki, bu danışıqlar gələcəkdə qarşılıqlı əlaqələr üçün yeni yol aça bilər. Misal olaraq, İsrail və BƏƏ arasında olan iqtisadi yaxınlaşmanı qeyd etmək olar.

İsrail regionun digər güclü dövləti olan, həm ərazisinə, həm də əhalisinə görə özündən qat-qat üstün olan İranla qarşıdurma vəziyyətindədir. İki gücün yaxın Şərq regionunda bir-birinə güzəştə gedə bilməməsi, bunun əksinə olaraq, hərbi sənayeni daha da inkişaf etdirmələri regionda müharibə təhlükəsini artırır. Belə nəticəyə gəlmək olar ki, İsrail regionda ərəb ölkələri ilə münasibətlərini yaxşılaşdıraraq, İranın müsəlman ölkələrindən onun əleyhində istifadə etməsinin qarşısını alır. İsrail öz geosiyasəti ilə regionda hegemonluğunu yürütməyi, digər ölkələri "yumşaq güc" vasitəsi ilə özündən asılı vəziyyətdə saxlamağı düşünür.

1991-ci ildə Sovet ittifaqının dağılması, yeni dünya nizamının formalaşması İranın regional və qlobal siyasətində dəyişikliklər etməsinə şərait yaradır.

İran-ABŞ münasibətləri 1979-cu ildən bəri gərgin vəziyyətdədir. "Soyuq müharibə"nin sona çatmasından sonra ölkələrarası münasibətlərin normalşmasına təsir edəcək ilk addım İran hökuməti tərəfindən atıldı. 1998-ci ildə İranda hakimiyyətə gələn Məhəmməd Hatəmi ABŞ-ı sivilizasiyalararası dialoqa dəvət etdi. Bununla iki ölkə arasında münasibətlərin normallaşacağı və gələcək üçün əməkdaşlıq addımları atılacağı gözlənilirdi. ABŞ dövlət katibinin də prosesə müsbət yanaşması vəziyyətin normallaşacağına işarə idi. Proseslərin cərəyan etdiyi dövrdə əməkdaşlıq üçün müəyyə da şərait yaradılmışdı, lakin bu imkanlardan istifadə olunmadı. Bunun başlıca səbəbi İranda mühafizəkarların siyasəti ilə bağlı idi. İran-ABŞ münasibətləri bərpa olunacağı təqdirdə İsrail məsələsi gündəmə gələcəkdi. İran hakimiyyəti isə İsrail ilə münasibətlərin normallaşmasına hazır deyildi.

"11 sentyabr" hadisələri dünyada təhlükəsizliyə yeni baxış bucağı gətirdi. Təhlükəszilik sahəsində artan əməkdaşlığın intensiv surətdə artmasını bu hadisələrdən sonrakı prosesləri izləyərək görmək mümkündür. ABŞ və onun müttəfiqləri terrorçu qruplaşmalara qarşı artıq açıq mübarizəyə keçdilər. 2002-ci ildə Corc Buş öz çıxışı zamanı İranı "Şər oxu"na aid etdi. Buş bu ifadə ilə həmin ölkənin dünaya üçün zərərli

olduğunu və özü ilə yalnız şər gətirdiyini demək istəyirdi. Bu fikirdən sonra iki ölkə arasında qalmaqal yaradan vəziyyətlər daha da artdı.

İranın nüvə proqramına malik olması ABŞ-ı narahat edirdi. 2002-2003-cü illərdə ABŞ kəşfiyyatı İranın nüvə obyektlərinə mnüəyyən sızmalar həyata keçirmişdi. ABŞ tərəfi qeyd edirdi ki, nüvə silahına olacaq İran qəbuledilməzdir. İran nüvə proqramından yalnız enerji alınması məqsədi ilə istifadə edə bilər. 2003-cü ildə yaşanan gərginlikdən sonra MAQATE nümayəndə heyyətini İranın nüvə obyektlərinə göndərdi. Nümayəndələrin İranın bəzi zavodlarında zənginləştirilmiş uran maddəsini tapmaqları ilə İran NPT protokollarına sabiq qalacağını və əlavə maddələrə də diqqət yetirəcəyini bildirimişdir (113).

İran-ABŞ arasında gərginlik digər sahələrdə də müşahidə olunur. Demək olar ki, 1979-cu ildən başlayaraq hər il müəyyən istiqmətlərdə İrana sanksiyalar tətbiq edilir. İqtisadi sanksiyaların tətbiqi ilə ABŞ İranı zəiflətmək məqsədi güdür.

Hal-hazırda da iki ölkə arasında gərginlik davam edir və tərəflərin heç biri güzəştə getmək fikrində və marağında deyil. ABŞ ilə münasibətlərin normallaşması üçün İsraillə də münasibətlərin qurulması vacibdir.

2020-ci ildə iranlı hərbiçi Qasım Süleymaninin öldürülməsi də vəziyyəti bir qədər gərginləşdirdi. İran rəsmilərinin və əhalisinin intiqam hissi və sosial şəbəkələrdə olan paylaşımlardan da görmək mümkündür.

İranın Avropa İttifaqı ilə münasibətləri mövcuddur. Bu münasibətlərin siyasi istiqamətinin təzadlı, iqtisadi istiqamətinin isə inkişaf etdiyini müşahidə etmək olar. Avropa İttifaqının təşkilatçılığı ilə İranın nüvə proqramı ilə bağlı ikitərəfli və çoxtərəfli görüşlər keçirilmişdir. Nüvə silahının yaradılması əleyhinə olan və bu istiqamətdə İranı da razı salmağı nəzərdə tutan addımlar günümüzdə də atılır. 2003-cü ildə MAQATE İran tərəfinin nüvə təhlükəsizliyini kobud şəkildə pozduğunu bildirdi. Bundan sonra məsələ BMT TŞ-da müzakirəyə çıxarıldı. İran buna əhəmiyyət verməyərək, açıqlamalardan və hesabat verməkdən yayınırdı. 2005-2006-cı illərdə İrana dinc məqsədlər üçün nüvə proqramından istifadə təklif edilsə də, o buna yenə əhəmiyyət vermədi. Hazırda İranın nüvə proqramı ilə bağlı razılaşmaların əldə

edilməsi isitqamətində addımlar atılmaqdadır. Ümumilikdə, İranın nüvə probleminin həlli bütün dünya üçün müsbət bir addım olacaq.

Avropa İttifaqının 2020-ci ilə aid ticarət statistikasında İran Aİ ilə ticarətdə 56-cı yerdədir. İranın idxalının 17.5 %-i Aİ-dən, ixracının isə 5.1 %-i Aİ-nın payına düşür (78).

İranın BMT ilə münasibətləri problemlidir. Tətbiq edilən sanksiyalar bunun bariz nümunəsidir. Səbəb isə, yenə də nüvə məsələsi ilə bağlıdır. Ümumi götürdükdə, İranın siyasi arenada sıxışdırıması məhz nüvə problemindən qaynaqlanır. BMT tərəfindən tətbiq edilən sanskiyaların demək olar ki, çoxu iqtisadi sanksiyalardır. Sansksiya tətbiq edilən sahələr arasında neft sektoru da vardır.

İranın adı bəzi terror qruplaşmlarının maliyələşdirilməsi ilə bağlı olaraq hallandırılır. Bu da təhlükəsizliyin hər bir səviyyədə pozulmasını göstərir. Müxtəlif radikal dini qruplar, onların təhdid dolu açıqlamaları dinc əhalini də özlərinə qoşmaq istəkləri yolverilməzdir.

İranın Yaxın Şərq siyasəti də regionda hegemonluğunu qoruyub saxlamağaistiqamətlənmişdir. Burada iki variant vardır. Birinci variant İran Avropa ölkələri ilə münasibətləri normallaşdıracaq, sanskiyalardan azad olacaq, siyasi və iqtisadi üstünülüynü təmin edərək regionda söz sahibi olacaq. Digər variant isə, İran ərəb ölkələrinin hər biri ilə münasibətlərini yenidən nəzərdən keçirəcək, münasibətlərində problemlər olan ölkələr ilə əməkdaşlığa üstünlük verəcək, din amilindən məzhəb fərqi qoymadan istifadə edərək gücünü nümayiş etdirəcək. İsrailin ərəb ölkələri ilə münasibətlərinin müsbət fonda inkişaf etdiyi bir mühitdə ikinci variant heç də əlverişli görünmür. Din məsələsi belə inandırıcı deyil. Regional terror qruplarının buna münasibəti müsbət olamaycaqdır. Birinci variantın reallaşması az ehtimal da olsa mümkün görünür. Bunun üçün isə, İran öz siyasətini dəyişdirməli, hər məsələyə hərbi çərçivədə və təhdid kimi baxmaqdan yayınmalıdır.

İsrail və İranın hər ikisi Yaxın Şərq regionu ölkəsidir və hər ikisi də hegemonluq uğrunda mübarizə aparır. İranda şah rejimi devriləndən bəri soyuq olan münasibələtlərin nə zamansa düzələcəyi belə sual altındadır. Hər iki tərəf bir birini təhdid obyekti olaraq görməkdədir. Ayrılıqda götürsdükdə müasir beynəlxalq

münasibtələr sistemində iki ölkənin də yerini və rolunu müəyyənləşdirmək mümkündür. Onlar arasında ortaq cəhət ondan ibarətdir ki, hər biri regional səviyyədə məslələrə daha çox önəm verir.

## 1.3 İsrail və İranın Azərbaycandakı maraqları və onların müqayisəli təhlili

Azərbaycan dövlət müstəqilliyini elan etdikdən sonra dünya ölkələri onu tanımağa, siyasi münasibətlər qurmağa və müxtəlif sahələrdə əməkdaşlıq etməyə başlamışdırlar. Yaxın Şərq regionunun bir-biri ilə rəqabətdə olan başlıca ölkələri, yəni İsrail və İran Azərbaycanın dövlət müstəqilliyini eyni ildə və eyni gündə tanıyıblar: 1991-ci il 25 dekabr (14) (15). Bu iki ölkə arasında olan qarşıdurma bir növ tərəflərin Azərbaycanla daha yaxın əlaqələr qurmaq və həmin əlaqələrdən dividendlər əldə etmək uğrunda rəqabətə də səbəb olmuşdur.

Azərbaycanın ayrı ayrılıqda İsrail və İran ilə olan münasibətlərini şərtləndirən amillər mövcuddur. Bu da öz növbəsində ölkələrarası olan münasibətlərin tənzimlənməsinə və xarici siyasət mexanizmasının qurulmasına bir növ təsir göstərir.

İsrail-Azərbaycan əməkdaşlığını şərtləndirən başlıca amillər bunlardır:

1) Uzun bir tarixi dövr ərzində Azərbaycanda yəhudi icmasının mövcud olması;

2) Azərbaycandakı yəhudi icmasına qarşı hər hansı bir formada ayrı-seçkiliyin olmaması və yəhudilərin özlərini təhlükəsiz mühitdə hiss etmələri;

3) Azərbaycanda yəhudilərin öz dini etiqadlarını sərbəst şəkildə yerinə yetirə bilmələri.

Sadalanan amillər kiçik görünsə də, iki ölkə arasında münasibətlərin formalaşmasında müstəsna rola malikdir.

Tarixin müxtəlif dövrlərində yəhudilər Azərbaycan ərazasinə gəlmiş və məskunlaşmışlar. İlk olaraq Yaxın Şərqdən sürgün edilən yəhudilərin Qafqaz ərazisinə köç etməsi ilə bu proses başlamışdır.

Azərbaycan ərazisində yəhudilərin 3 icması mövcuddur: dağ yəhudiləri, aşkenazi yəhudiləri və gürcü yəhudiləri. Yəhudilər bu ərazilərə köç etdikdən sonra həm ərazinin əlverişli olduğuna diqqət yetirmiş, həm də yerli xalqın onlara olan xoş münasibətini yaxşı səviyyədə qiymətləndirmişdirlər. Məhz elə bu səbəbdən ölkə ərazisində yəhudilər bu gün də yaşayırlar.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan keçən 8 yəhudi dini icması vardır. Həmin yəhudi dini icmaları bunlardır: Bakı şəhəri Dağ Yəhudiləri dini icması, Azərbaycan Yəhudiləri dini icması, Sumqayıt Yəhudiləri dini icması, Quba rayonu Qırmızı qəsəbə Dağ Yəhudiləri dini icması, Avropa Yəhudilərinin Bakı dini icması, Gürcü Yəhudilərinin Bakı dini icması, Gəncə şəhər Yəhudi dini icması, Oğuz şəhər Yəhudi dini icması (36). İlk dəfə qeydiyyatdan keçən yəhudi icması 2009-cu ildə, sonuncu qeydiyyatdan keçən yəhudi icması isə 2016-cı ildə olmuşdur.

Yəhudilər Azərbaycanda sərbəst şəkildə öz dini etiqadlarına aid ibadətləri yerinə yetirə bilirlər. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin demoqrafik statistikasına görə, ölkə ərazisində yaşayan yəhudilərin sayı 9100 nəfərdir (12). Burada sinaqoqların sayının çox olması da həm yerli, həm də ölkə xaricində yəhudilərin diqqətini çəkir. Rəsmi olaraq 8 sinaqoq fəaliyyət göstərir ki, bu da müxtəlif yəhudi dini icmalarının və ümumilikdə yəhudilərin Azərbaycanda dini etiqadlarını asanlıqla yerinə yetirə bilmələrinin göstəricisidir.

Cənubi Qafqaz ölkələri içərisində tolerantlığın yüksək ənənəvi forması məhz Azərbaycana aiddir. Burada müxtəlif etnik nümayəndələrin yaşamasını, fərqli dini konfesiyaların mövcud olmasını açıq şəkildə müşahidə etmək mümkündür. Ölkədə mövcud olan bu etnik və dini rəngarənglik isə heç bir zaman qarışıqlığa səbəb olmamış, hər bir nümayəndənin sərbəst şəkildə yaşaması, işləməsi, fəaliyyət göstərməsi dövlət siyasətinin düzgün aparılması ilə əsaslı şəkildə təmin edilmişdir.

Cənubi Qafqaz regionunda yaşayan yəhudilərin Azərbaycanla bağlı rəylərinə, eləcə də dünya mediasında nəşr edilən məqalələrə nəzər yetirdikdə onların ölkə və tolerantlıq nümunəsi haqqında olan fikirlərini görmək mümkündür. İslam dininə sitayiş

edənlərin üstün olduğu ərazidə digər dini konfesiyalara hörmət edilməsi təkcə dövlət qurumlarının və rəsmilərinin deyil, ölkə əhalisinin də bu ideya üzrə getdiyini göstərir.

Bakı, Sumqayıt, Gəncə, Quba, Oğuz və Göyçay yəhudilərin Azərbaycanda əsas məskunlaşdığı ərazilər hesab olunur. Kompakt halda yaşadıqları ərazi isə Qubada Qırmızı Qəsəbədir. Yəhudi jurnalist Yoav Karenin 2018-ci ildə Azərbaycana etdiyi səfəri zamanı Qırmızı Qəsəbə haqqında yazdığı məqalə yəhudi ictimaiyyəti tərəfindən maraqla qarşılanmışdır. O, ölkədə yəhudilərə olan münasibətin müsbət səviyyədə olmasını qiymətləndirir. Yoav Karen məqalədə qeyd edir: “Burada yəhudilərə olan xoş münasibəti heç Parisdə və digər Avropa şəhərlərində belə görə bilmərsiniz” (112).

İki ölkə arasında olan münasibətlər hər bir sahədə inkişaf etdirilir. Ölkələrarası münasibətlərin tənzimlənməsinə və inkişafına əsaslı təsir göstərən sahə mədəni əlaqələr sahəsidir. Azərbaycan Respublikasında çoxlu sayda yəhudi cəmiyyətləri fəaliyyət göstərir. Bu cəmiyyətlərin məqsədi həm iki ölkə arasında olan münasibəti inkişaf etdirmək, həm də ölkədə yaşayan yəhudiləri bir araya toplamaqdan ibarətdir. Hal-hazırda ölkədə bu cəmiyyətlər və klublar fəaliyyət göstərir: Azərbaycan-İsrail Dostluğu Cəmiyyəti, “Soxnut” yəhudi agentliyi, “Coynt”, “Vaad-L-Xatzola”, Azərbaycan Yəhudi Qadınlarının Humanitar Assosiasiyası, , “Azərbaycan-İsrail” Mədəni Əlaqələr Cəmiyyəti, “Xava” adlı qadın cəmiyyəti, “Hesed-Herşon” xeyriyyə cəmiyyəti, “Əlef”, “Kilel” gənclər klubları, “Mişpaha” videoklubu. 2020-ci Azərbaycan yəhudi media mərkəzi fəaliyyətə başlamışdır. Mərləzin rəhbəri Sumqayıt şəhər Yəhudi Dini İcmasının təsisçisi Nəsimi Əbilovdur (22). Bundan əlavə, yəhudilərin Azərbaycanda “Az-İz”, “Başnya”, “Amişav” adlı qəzetləri çap olunur.

Bakıda yaşayan yəhudilərin bir qismi 46 nömrəli məktəbdə şəkildə təhsil alır. Komplektləşdirilmiş formada onlara ivrit(ibri) dili tədris olunur. Azərbaycanda olan yəhudi icmasının nümayəndələri dəfələrlə buraya gəlmiş və yəhudi uşaqlara göstərilən qayğıdan razı qalmışlar.

2010-cu ildə Bakı şəhəri Xətai rayonunda yəhudi uşaqların təhsil alması üçün Heydər Əliyev mərkəzinin və Or-Avner fondunun birgə fəaliyyəti nəticəsindən “Xabad-Or-Avner” təhsil mərkəzinin açılışı olmuşdur. Təhsil mərkəzinin açılışında Azərbaycan Respublikasının Prezidenti, o cümlədən müxtəlif ölkələrdən gələn yəhudi

icmasının nümayəndələri, Azərbaycan yəhudi icmasının nümayəndələri iştirak etmişlər. Prezident İlham Əliyev mərkəzin açılışında söyləmişdir: “Təhsil mərkəzi Azərbaycan və yəhudi dostluq münasibətlərinin inkişafına istiqamət verəcək bir addımdır” (38).

2013-cü ildə İsrail dövlətinin baş naziri Benyamin Netanyahu Azərbaycan Respublikasına işgüzar səfəri zamanı “Xabad-Or-Avner” təhsil mərkəzində olan şəraitlə yaxından tanış olur. Belə bir mərkəzin fəaliyyət göstərməsi ilə bağlı demişdir; mərkəzin şəraiti və fəaliyyəti olduqca yaxşıdır. Təhsil sahəsində edilən əməkdaşlıq daha da inkişaf etdirilməlidir (50).

Bakı Dövlət Universitetində və Azərbaycan Dillər Universitetində müəyyən ixtisaslar üzrə kadr hazırlığı prosesində ivrit(ibri) dili tədris olunur. Bununla yanaşı, hər iki universitetdə İsrailşünaslıq ixtisası da mövcuddur.

Azərbaycan-İsrail münasibətləri qurulduğu zamandan bəri iki ölkə arasında iqtisadi münasibətlər də inkişaf etmişdir. Yeni müstəqil olan Cənubi Qafqaz regionu ölkəsində iqtisadi potensialın yüksək olacağı ehtimalı İsraildən olan investorları və şirkətləri buraya cəlb etmişdir. İsrail şirkətlərinin Azərbaycanla iqtisadi sahədə əməkdaşlığının ilk nümunəsi 1994-cü ildə Bakcell mobil operatorunun yaradılmasıdır (83).

2000-ci ildə İsrailin məhşur neft və qaz sənaye təhcizat avadanlıqları istehsal edən “Modcon Systems” şirkəti Azərbaycana mal idxalı ilə məşğul olmuşdur (66). Beləliklə, şirkət fəaliyyətini yeni bir regionda genişləndirməyə başlamış, neft və qaz sənayesində qabaqcıl olan bir ölkə ilə yaxından tərfədaşlığa istiqamətlənmişdir.

Azərbaycan İsrailin əsas enerji tərəfdaşlarından biridir. İsrail Azərbaycan neftinin əsas idxalçıları sırasında ön yerlərdən birini tutur. Bu ölkənin neftə olan daxili tələbatının 40%-i Azərbaycanın hesabına ödənilir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2021-ci ilin ilk yeddi ayı üçün olan hesabatından məlum olur ki, Azərbaycandan İsrailə 972 654.65 ton xam neft və neft məhsulları ixrac edilmişdir (5).

Azərbaycan Respublikasının Statistika Komitəsinin 2020-ci ilə olan statistikasına görə, Azərbaycandan İsrailə ixrac olunan məhsulların ümumi dəyəri 437, 500.1 dollar təşkil edir (24).

Azərbaycan İsrail münasibətləri kənd təsərrüfatı sahəsində də inkişaf etməkdədir. 1994-cü ildə kənd təsərrüfatı işlərinin gedişinə, xüsusən pambıq yığımı ilə əlaqədar məsələlərin müzakirəsinə həsr olunmuş müşavirədə İsrail şirkəti ilə əlaqələr yaradılmasını və əmədaşlıq aparılmasını Prezident Heydər Əliyev xüsusilə vurğulamışdır. Belə əməkdaşlığın qurulması və inkişaf etdirilməsi ilə yararlı sahələrdə pambıq əkinlərinin sayını da çoxalda bilərik deyə, Heydər Əliyev qeyd edmişdir.

2021-ci ildə Təl-Əvivdə İsrail-Azərbaycan adlı kənd təsərrüfatı biznes forumu keçirilmişdir. Forum Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, İsrail Kənd Təsərrüfatı və Kənd Yerlərinin İnkişafı Nazirliyi və İsrail İxrac İnstitunun birgə işi ilə keçirilmişdir. Forumda müxtəlif qurum nümayəndələri, xüsusilə də, kənd təsərrüfstı sahəsi ilə məşğul olan və ixtisaslaşan şirkətlər iştirak etmişdir (57).

Forumda Azərbaycan Respublikasının nümayəndələri işğaldan azad olunmuş ərazilərin gələcək potensialı haqqında çıxışlar etmişdir. Azad olunan ərazilərdə yenidənqurma və bərpa işlərinin tamamlanmasından sonra aqrar sahənin orada inkişaf etdirilməsindən danışılıb. Azərbaycan və İsrail ölkələrinin aqrar sahə üzrə ixtisaslaşmış kadrlarının olması bu sahənin sürətlə inkişafını təmin edə bilər. Azad olunmuş ərazilərin aqrar inkişaf potensialı olduğu üçün həmin ər Yaşıl Enerji Zonaları elan edilib. Bu ərazilərdə inkişaf layihələri "Ağıllı kənd" və "Ağıllı şəhər" əsasında olacaq. Bu məsələ ilə bağlı kənd təsərrüfatı nzairi İnam Kərimov qeyd edir ki, belə bir inkişaf istiqamətini nəzərə alaraq, İsrail şirkətləri bizimlə təcrübələrini və texnologiyalarını paylaşa bilərlər.

Qarabağ bölgəsində İsrail şirkətləri bərpa işlərində iştirak edirlər. İsrailin bəzi şirkətlərinin bölgəyə olan marağı və eyni zamanda bərpa işlərində iştirak etmək istəkləri Azərbaycan rəsmiləri tərəfindən də məqbul hesab olunur və müsbət qarşılanır.

2021-ci il iyulun 29-da İsrailin paytaxtı Təl-Əviv şəhərində Azərbaycan Respublikasının Ticarət və Turizm nümayəndəliklərinin açılışı oldu (47). Açılışda Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov və İsrailin Turizm naziri Yoel

Razvozov iştirak etmişdir. İkitərəfli münasibətlərin inkişafına münasibət bildirən rəsmilər perspektiv planları da müzakrə ediblər. Ticari-iqtisadi əsaslı bir qurumun olması ölkələrarası iqtisadi əməkdaşlığa birbaşa təsir göstərəcək. Əlavə olaraq qurum müxtəlif iqtisadi sahələrdə Azərbaycanda iş qurmaq istəyən və İsraildən olan investorların işini də asanlaşdıracaqdır.

2022-ci il mart ayının 30-da İsraildə Azərbaycanın turizm nümayəndəliyinin Təl-Əviv ofisinin açılışı oldu (48). Hökumət nümayəndələrinin və digər rəsmilərin iştirakı ilə keçirilən təqdimatda iki ölkə arasında turizm sahəsinə təkan verəcək bu addımın xüsusiliyi vurğulanıb. Sazişə uyğun olaraq tərəflər turizm sahəsində olan əməkdaşlığı inkişaf etdirmək, hər iki ölkədə fəaliyyət göstərən turizm oraqanları arasında əlaqələr qurnaq, tarixi, ekoloji, macəra turizmi kimi məşhur olan sahələr üzrə əməkdaşlığı genişləndirmək, irsi və dini turizm sahələrinin də inkişafı etdirmək öhdəliyi götürmüşlər.

Azərbaycan İsrail üçün önəmli bir tərəfdaşdır. Cənubi Qafqaz ölkələri içərisində sərbəst siyasi və iqtisadi gedişlər etmək imkanlarına malik olması Azərbaycanı digər qonşularından üstün vəziyyətə gətirir.

2003-cü ildə Gürcüstanda Mixail Sakaşvili prezident seçildi. Sakaşvili Rusiya əleyhinə olan və qərbyönümlü bir siyasət aparırdı. Belə bir vəziyyət İsrail Gürcüstan yaxınlaşmasına səbəb oldu. İsrail Cənubi Osetiya və Abxaziyada baş verənlərə etiraz edən ölkələrdən biri idi. 2008-ci il avqustun 10-da İsrail Xarici İşlər Nazirliyi Rusiyanın Gürcüstana təcavüzü ilə bağlı açıqlama yaydı. 2012-ci ildə İsrail ordusu tərəfindən keçirilən "Pillar of Defense" adlı əməliyyatlar bir sıra ölkələr tərəfindən qınanılsa da, Gürcüstan İsrailə dəstək vermişd, televiya kanallarında və digər informasiya məkanlarında yardım göstərmişdir (91).

İsrail və Gürcüstan arasında müəyyən ticarət əlaqələri olsa da, ölkələrarası ticari tərəfdaşlıq yüksək səviyyədə deyil. 2017-ci ildən başlayaraq Gürcüstan və İran iqtisadi əməkdaşlığı inkişaf etsə də, İsrail buna əks münasibət bildirməmişdir. İsraildən Gürcüstana gələn turistlərin say statistikası da diqqəti cəlb edir. Belə ki, 2017-ci ildə 100 min nəfərdən çox şəxs Gürcüstana səyahət edib. Turizm sahəsinin Gürcüstanda inkişaf etməsi onun cəlbediciliyini artırır.

İsrail-Ermənistan münasibətləri demək olar yox səviyyəsindədir. 2007-ci ilə qədər İsrail Ermənistanla olan diplomatik əlaqələri Tiflisdə yerləşən İsrail səfirliyindən idarə edirdi.

İsrailin Azərbaycan ilə olan əməkdaşlığı Ermənistan tərəfindən heç də yaxı qarşılanmır. 44 günlük müharibə dövründə isrialin Azərbaycanı dəstəkləməsi Ermənistan tərəfindən dəfələrlə qınanılsa da İsrail Azərbaycandan yana olmağı ilə ikitərəfli münasibətlərin müsbət səviyyəli formada olduğunu bir daha sübut etmiş oldu.

Azərbaycan inkişaf edən fərqli sənaye sahələri və müxtəlif sahələrdə olan ölkələrarasə əməkdaşlığı israil ilə əlaqələrdə də müstəsna rol oynayır. israil məhz bu səbəblərdən Azərbaycan ilə olan əlaqələrini inkişaf etdirəcək. Bu iki ölkənin maraqlarının üst üstə düşməsi hər ikisinin də xeyrinədir.

Azərbaycan-İsrail münasibətlərinin yaxşı səviyyədə olması Azərbaycanın İrana qarşı siyasət aparması demək deyil. Azərbaycan cənub qonşusu olan İran ilə müxtəlif sahələrdə əməkdaşlıq edir. Tarixən eyni coğrafiyada yerləşən bu iki ölkə müəyyən iş birlikləri vasitəsilə mövcud münasibətləri daha da gücləndirməyi düşünür. İran konkret olaraq Azərbaycan-İsrail münasibətlərinə qarşı əks fikirdədir. O, iki ölkə arasında olan münasibətləri özünə təhdid kimi görür. İran tərəfi belə bir münasibət nəticəsində çimaldan ona ola biləcək hər cür təhlükədən narahat olduğunu bildirir. Azərbaycan hökumət rəsmiləri belə bir narahatlığın əsassız olduğunu, İsrail ilə olan yaxın münasibətlərin qəti şəkildə İrana qarşı mövqe tutmadığını bildirirlər.

Azərbaycanın uzun illərdir müttəfiqlik etdiyi ölkələrdən biri də İrandır. İranla olan əlaqələr tarixi köklərə malikdir:

1) Hər iki ölkə ortaq tarixə malikdir, tarixin müəyyən dövründə ərazilər eyni dövlətlər tərkibində olmuşdur - Ağqoyunlular, Səfəvilər, Əfşarlar və s.;

2) Cənubi Azərbaycan ərazisində 35 milyon nəfərdən çox türk yaşayır;

3) hər iki ölkədə islam dininin şiə məzhəbinin geniş yayılması:

Sadalanan amillər bir növ iki ölkə arasında körpü rolu oynamış, əlaqələrin və digər proseslərin bu istiqamətdə inkişafına təsir göstərmişdir.

1993-cü ildə Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra İranla qonşuluq və əməkdaşlıq siyasəti aparıldı, kifayət qədər gərgin münasibətlər

normallaşmağa və inkişaf etməyə başladı. Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövründə (1990-1993) İran rəsmiləri ilə münasibətlər qurmuşdu. O, Ermənistan tərəfindən blokadaya alınmış Naxçıvanın ehtiyaclarını ödəmək üçün İrana səfər etmiş, İran lideri ilə müvafiq müzakirələr aparmışdır. Heydər Əliyev 1992-ci ilin avqustunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi, İrana səfəri zamanı İranın dini lideri Əli Hamenei, Prezident Rəfsəncani və xarici işlər naziri Əli Əkbər Vilayati ilə görüşmüşdür. Səfər zamanı İran İslam Respublikası və Naxçıvan Muxtar Respublikası arasında tərəflər arasında qarşılıqlı yardım və əməkdaşlıq haqqında razılıq əldə olunmuşdur (28).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin hakimiyyət illərindən günümüzə qədər Azərbaycan və İran arasında olan münasibətlər müxtəlif istiqamətlərdə inkişaf etmişdir. 1993-cü ildə İran Prezindentinin Azərbaycana rəsmi səfəri, 1994-cü ildə Azərbaycan Prezidentinin İrana rəsmi səfəri ölkələrarasında olan münasibətlərin uğurlu dinamika ilə inkişaf etməsinə təkan göstərmişdir. Hər iki səfərin təfsilatlarına nəzər yetirdikdə ikitərəfəli münasibətlərin inkişafında və əlaqələrin daha da genişləndirilməsində xüsusi yer tutan prioritet istiqamətləri müəyyən etmək olur.

Azərbaycan Respublikası və İran arasında mədəni əlaqələr mövcuddur. Coğrafi cəhətdən bir-birinə yaxın olan iki ölkə qarşılıqlı olaraq mədəni və humanitar sahələrdə əməkdaşlıq etməkdədirlər.

2002-ci ildə İranda səfərdə olan Prezindent Heydər Əliyev İrandan olan həmkarı Məhəmməd Hatəmi ilə görüşmüşdür. Görüşdə ölkələrarası mədəni əlaqələrin inkişafına təkan olan "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilə imzalanmışdır (8). Həmin görüşdə daha sonra Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Elm, Tədqiqatlar və Texnologiya Nazirliyi arasında təhsil və tədqiqat sahəsində əməkdaşlıq haqqında memorandum, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslam İrşad Naziriliyi arasında mədəni əməkdaşlıq haqqında memorandum imzalanmışdır (8).

Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanla İran arasında əməkdaşlıq təkcə ikitərəfli formada deyil, həm də İslam Əməkdaşlıq Təşkilatı (sonralar İslam

Əməkdaşlıq Təşkilatı) və İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) kimi regional təşkilatlar çərçivəsində də qurulmuşdur.

2007-ci ildə İran-Azərbaycan Dostluq qrupunun sədri Əhəd Qazainin başçılıq etdiyi nümayəndə heyyəti Azərbaycanda səfərdə olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə keçirilən görüşdə iki tərəfli münasibətlər müzakirə edilmişdir. Hər iki ölkənin parlamentində fəaliyyət göstərən dostluq qruplarının ölkələrarası münasibətlərin inkişafında mühüm dəyər kəsb etdiyi bildirilmişdir.

2008-ci il fevral ayının 18-də Bakıda Azərbaycan kinoteatrında İran Kino Həftəsinin açılış mərasimi keçirilmişdir. Bu tədbirdə İranın Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri Seyid Əliəkbər Ocaqnejad da iştirak etmişdir.. Açılış mərasimində rejissor Məcid Məcidinin çəkdiyi "Cənnət uşaqları və qırmızı qızılbalıq" filmi nümayiş etdirildi. fevral 19-u Kamal Təburizinin "Şeyda", fevral 20-i Azura Həmidnejadın "Soyuq göz yaşları", fevral 21-i Müjitaba Rainin "Pərvanənin ad günü", Məcəndə Məcidin "Yağışı" filmi nümayiş olundu (33).

Bakıda İran Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Mərkəzin fəaliyyət istiqaməti Azərbaycan və İran arasında olan mədəni əlaqələrin ictimaiyyətə çatdırılması, təbliğ və inkişaf etdirilməsinə əsaslanır. Ölkələrin ortaq tarixi onların mədəni həyatında müəyyən ortaq elementlərin yaranmasına səbəb olmuşdur. Bu səbəbdən onların mədəni sahədə münasibətlərinin inkişafı çox rahatdır. Mərkəzin fəaliyyətində islam amilinə də yer verilir ki, bu da hər iki ölkədə islam etiqadlı əhalinin çox olması ilə izah olunur (51).

2013-cü ildə İran Parlamentinin nümayəndələri Azərbaycanda səfərdə olarkən, Azərbaycandan olam həmkarları ilə ölkələarası münasibətlərin gələcək perspektivlərini müzakirə etmişlər. Görüş zamanı İran Parlamentinin deputatı Cavad Cahangirzadə qədim tarixi köklərlə qarşılıqlı bağlı olan İran və Azərbaycan münasibətlərindən söz açmış və bu münasibətlərin parlament diplomatiyası vasitəsi ilə də daha da inkişaf etdirilməsini vurğulamışdır. O, iki ölkə arasında olan münasibətlərin möhkəmlənməsinin hər iki ölkə üçün yararlı olacağını qeyd etmişdir (29).

Azərbaycan və İran arasında iqtisadi əlaqələrin mövcudluğunu da vurğulamaq lazımdır. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2020-ci ilə olan xarici ticarət dövriyyəsi statistikasında İranla olan xarici ticarət dövriyəsi 339,101.1 ABŞ dolları təşkil edir. Müqayisə üçün qeyd etmək lazımdır ki, 2019-cu ildə bu miqdar 493,810.4 ABŞ dolları təşkil etmişdir (23).

2018-ci ildə İran İslam Respublikasının prezidenti Həsən Ruhani Azərbaycan Respublikasına rəsmi səfərdə olmuşdur. Azərbaycan Respublikasını Prezidenti İlham Əliyevlə görüş zamanı müxtəlif sahələr üzrə iki tərəfli müqavilələr imzalanmışdır. Rəsmi səfər çərçivəsində Bakıda Azərbaycan-İran biznes forumu keçirilmişdir. Forumda iqtisadi məsələlərə diqqət yetirilmiş, gələcək imkanlar barəsində müzakirələr aparılmışdır. Forumda önəmli əməkdaşlıq addımlarından biri “Xəzər” avtomobil zavodunun açılışı ilə olmuşdur. Bu addım Azərbaycan-İran iqtisadi əməkdaşlığının inkişafının bir göstəricisi olmuşdur (54).

2022-ci mart ayının 11-də Bakıda Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının 15-ci iclası keçirilmişdir. Görüş Azərbaycan Respublikası baş nazirinin müavini Şahin Mustafayevin və İran İslam Respublikasının yollar və şəhərsalma naziri Rüstəm Qasiminin həmsədrliyi və hər iki ölkənin aidiyyəti qurumlarının səlahiyyətli nümayəndələrinin iştirakı ilə keçirilmişdir. İki ölkə arasında olan ticarət dövriyyəsi 2021-ci ildə ötən ilə nisbətən 30% artmış dır (32). Görüşdə neft-qaz və elektroenergetika sahələri üzrə əməkdaşlığın faydalı nəticələri təsdiq edilib. Bunun ardınca digər sahələrdə də əməkdaşlığın inkişaf etdirilməsi məsələlərininə toxunulub.

Azərbaycan və İran arasında olan iqtisadi əməkdaşlıq qarşılıqlı faydalılıq prinsiplərinə əsaslanır. Bu əməkdaşlıq hər iki ölkənin maraq dairəsindədir.

“Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyəti iki tərəf üçün də önəmlidir. Marşurutun hər iki ölkə ərazisini əhatə etməsi onlara bir çox xüsusi imkanlar vəd edir.

Azərbaycan İran üçün tranzit imkanlarına malik ölkədir. Qərbin sanksiyaları malik İranı bir çox məsələdən kənar saxlayır. Elə bu məqamda Azərbaycanın rolu yüksəlir. Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ilə birbaşa olaraq Avropa və Yaxın

Şərq ölkələri ilə tranzit imkanları qurulacaq. İran da Avropaya Azərbaycan vasitəsi ilə çıxış edəcək ki, bu da onun marağındadır.

İran Cənubi Qafqaz regionunda Ermənistan ilə sıx əlaqələr saxlamaqdadır. İranın Gürcüstanla da müəyyən münasibətləri vardır. Region olaraq nəzər yetirilsə İranın Azərbaycan ilə münasibətləri inkişaf etdirməyi onun xeyrinədir demək olar. Regionun inkişaf etmiş ölkəsi ilə əlaqələr İrana daha çox xeyir verə bilər. Maraqlara əsaslanan münasibətlərin istiqaməti isə konkret olaraq ölkə siyasətindən asılı bir hadlır.

İsrail və İranı Azərbaycanla münasibətlərini ayrı-ayrılıqda müqayisə etsək, burada İsrailin rolunun daha çox olduğunu görmək mümkündür. İllik statsitika və ticarət dövriyyəsinin həcmi məsələnin iqtisadi tərəfidir. Mədəni cəhətdən yəhudi lobbisinin Avropada, xüsusilə ABŞ-da Azərbaycan maraqlarını təbliğ və müdafiə etməsi Azərbaycan İsrail münasibətlərinin hansı səviyyədə olduğunun göstəricisidir. Azərbaycan və İran arasında münasibətlər hər nə qədər yaxşı olsa da, İran tərəfinin hər zaman bu münasibətlərə gərginlik qatdığının şahidi olmaq olar.

# FƏSİL 2. MÜASİR DÖVRDƏ AZƏRBAYCAN-İSRAİL VƏ AZƏRBAYCAN-İRAN SİYASİ ƏLAQƏLƏRİNDƏ OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏR

## 2.1 Azərbaycan-İsrail və Azərbaycan-İran ikitərəfli siyasi əlaqələrinin istiqamətləri və məzmunu

Azərbaycan və İsrail arasında diplomatik əlaqələr 1992-ci il aprelin 7-də qurulmuşdur. Həmin tarixi dövrə və indiyə nəzər yetirsək İsrailin ümumilikdə islam etiqadına malik olan Azərbaycanla münasibətlər qurması və inkişaf etdirməsi diqqət çəkən məqamlardan hesab olunur.

Ölkələr arasında siyasi dialoq yüksək səviyyədədir. İsrail prezidenti Şimon Peres 2009-cu ildə Azərbaycana rəsmi səfər etmişdir. Azərbaycanlı həmkarı ilə görüşən Şimon Peres qarşılıqlı münasibətlərin əhəmiyyətini vurğulamış və bundan sonra müxtəlif sahələrdə olacaq əməkdaşlığın daha yüksək səvviyəyə catacağını bildirmişdir. Bu görüşdə Şimon Peres vurğulamışdır ki, İsrail və Azərbaycan hərb sahəsini inkişaf etməli və bu gücü də qorumalıdır, çünki hər iki ölkə daim təhlükə altındadır. Daha sonra bildirmişdir ki, mən həm İsrailin, həm Azərbaycanın sülhə can atan ölkələr olması ilə fəxr edirəm və buna da ümid edirəm ki, ölkələrimiz qonşularımız ilə sülhə nail olmağa əllərindən gələni edəcəklər (76).

Məlum məsələdir ki, Azərbaycan-Ermənistan münaqişəsində əziyyət çəkən tərəf hər zaman Azərbaycan olmuşdur. Ermənistan beynəlxalq hüquq və konvesiyalara məhəl qoymur. Belə bir şəraitdə İsrail Azərbaycanın haqlı mövqeyini davamlı olaraq dəstəkləyən ölkələrdən olmuşdur.

Şimon Peres görüş zamanı ikitərəfli münasibətlərdən danışmış və Azərbaycanla olan əlaqələrin daha da inkişaf etdirilməsinin vacib olduğunu vurğulamışdır. Şimon Peres səfəri zamanı Aeronavtika və Mənzil və Tikinti sahələrində bağlanacaq müqavilələrin də münasibətlərə təsirindən danışmışdır (110).

2013-cü ildə Davosda İlham Əliyev və Şimon Peres arasında görüş baş tutmuşdur. Görüşdə Azərbaycan-İsrail münasibətlərinin vəziyyətindən və gələcək inkişaf perspektivlərindən danışılmışdır (38).

Azərbaycanın lobbi fəaliyyətlərində ona dəstək olan qrum və nümayəndəliklərindən biri də yəhudi lobbisidir. Yəhudi lobbisinin aktiv fəaliyyəti nəticəsində Azərbaycan tərəfinin xeyrinə olan addımlar dəfələrlə atılmışdır. 2016-cı ildə Dünya Yəhud Konresinin nümayəndə heyyəti Bakıya səfər etmişdiir. Bakıya gələn nümayədə heyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşmüşdür (66).

Görüşdə Azərbaycanda yaşayan etnik qrupların sərbəst şəkildə yaşamasından danışılmışdır. Bu etnik qruplar arasında yəhudilər də vardır ki, onlar da Azərbaycanda yaşayan digər xalqlarla harmoniyada yaşayırlar deyə, İlham Əliyev bildirmişdir.

2016-cı ildə İsrailin baş naziri Benyamin Netanyahu Azərbaycana rəsmi səfərə gəlmişdir. Səfər çərçivəsində o, Azərbaycan Respublikasının prezidenti ilə görüşmüşdür. Benyamin Netanyahu və İlham Əliyev iki ölkə arasıda olan münasibətlərdən bəhs etmişlər. Gələcək perspektivlərin də müzakirə olunduğu görüş çərçivəsində iki ölkə arasında olan münasibətlərə müsbət istiqamət verəcək bir sıra sənədlər imzalanmışdır (30).

Həmin vaxt iki ölkə rəsmilərinin iştirakı ilə bu sənədlər imzalanmışdır: "Azərbaycan Respublikasının Hökuməti ilə İsrail Dövlətinin Hökuməti arasında standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi və metrologiya sahələrində əməkdaşlıq haqqında" saziş, "Azərbaycan Respublikasının Hökuməti ilə İsrail Dövlətinin Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında" saziş, "Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" konvensiya, "Azərbaycan Respublikasının Hökuməti ilə İsrail Dövlətinin Hökuməti arasında Birgə Komissiyasının yaradılması haqqında" Anlaşma Memorandumu.

2012-ci ildə Azərbaycan və İsrail olan münasibətlər hərb sahəsində də əməkdaşlığın inkişaf etdrilməsinə müsbət təsir göstərmişdir. O zaman xarici xəbər

agentliklərinin yaydığı məlaumatlar, Azərbaycan və İsrail arasında imzalanan müqavilə ilə Azərbaycanın hərbi güc potensialı daha da artacaq və bu iki ölkə araında hərb sahəsindəki əməkdaşlığa bir istiqamət olacaqdır istiqamətində idi.

İsrailin Qəzzaya humanitar yardım aparan "Mavi Mərmərə" gəmisinə hücumu bir çox ölkə və beynəlxalq təşkilatlar tərəfindən pislənilmişdi. İsrail-Türkiyə münasibətlərinin gərginləşməyə başladığı, Ermənistanla başlayan dialoqa görə Türkiyə ilə Azərbaycan arasında müəyyən problemlərin yarandığı bir vaxtda Azərbaycan-İsrail münasibətləri öz inkişafını davam etdirirdi. Qarşılıqlı diplomatik təmaslar və sürətlə inkişaf edən iqtisadi əlaqələr az qala İsrailin xarici siyasətində Azərbaycanın Türkiyəni əvəzləyəcəyi ilə bağlı fikirlərə də səbəb olmuşdu. Belə bir dönəmdə Azərbaycan hakimiyyətinin İsrailin hərəkətlərini kəskin şəkildə pisləməsi vu fikirlərin yanlış olduğunu göstərdi. İsrailin hücumundan qısa müddət sonra Azərbaycan xarici xşlər nazirinin mətbuat katibi öz çıxışında günahkarların cəzalandırılmasının lazım və Azərbaycanın Qəzza xalqına hər zaman kömək etməyə hazır olduğunu bildirib. XİN nümayəndəsi ümumilikdə İsrail-ərəb münaqişəsinə Azərbaycanın rəsmi baxışını da təkrarlayıb və bildirib ki, hər iki dövlətin (Fələstin və İsrail) regionda mövcud olmaq hüququ var.

Azərbaycan hakimiyyətinin bəyanatları Azərbaycan xalqının fikirlərini və hisslərini əks etdirirdi. Gəmidə İsrail əsgərləri tərəfindən həbs edilənlər arasında iki Azərbaycan vətəndaşının da olması, Azərbaycan hakimiyyətinin açıqlamalarında da öz əksini tapmışdı. Digər tərəfdən, Türkiyənin baş nazir Rəcəb Tayyib Ərdoğan İsrailin hücumu ilə bağlı verdiyi açıqlamada sözügedən gəmidə 32 ölkənin vətəndaşının olduğunu və heç bir ölkənin İsraildən Türkiyə qədər İsraili cavab tələb etmədiyini bildirib.

Azərbaycan-İsrail münasibətləri təkcə ikitərəfli münasibətlər baxımından deyil, ümumilikdə Azərbaycanın regional siyasəti baxımından da önəmlidir. Regionda Rusiya-Ermənistan-İran əməkdaşlığına qarşı İsraillə iqtisadi əlaqələrlə yanaşı, siyasi münasibətləri də inkişaf etdirmək Azərbaycanın marağındadır. Ermənistan hakimiyyəti həmin hadisənin baş verdiyi vaxtlar İsraillə fəal diplomatik təmasda idi və Azərbaycan bu təmasları diqqətlə izləyirdi və mümkün İsrail-Ermənistan

yaxınlaşmasının qarşısını almağa çalışırdı. Bu səbəbdən də, Azərbaycan İsraillə əlaqələrinin inkişafına önəm verirdi.

İki ölkə arasında 2009-cu ildə 5 milyard dollara çatan ticarət dövriyyəsi Azərbaycanın xarici ticarətində əhəmiyyətli paya malik idi. İsrail şirkətləri Azərbaycanda bir sıra layihələr həyata keçirir, ilk növbədə yol tikintisi və yüksək texnologiyalı zavod tikintisi aparırdı. Azərbaycan hakimiyyəti İsraildən belə sərmayələri artırmasını istəyir və bunun müqabilində İsrailə neft və neft-kimya məhsulları ixrac etməyə (daha doğrusu, ixrac sürətini artırmağa) hazır olduğunu bəyan edirdilər. Nəticədə, Azərbaycan hakimiyyəti bir çox başqa ölkələr kimi İsraili humanitar yardım gəmilərinə hücuma və Qəzzaya yardımın qarşısını almağa görə qınasa da, İsraillə münasibətlərin korlanmasını və inkişaf etməyə başlayan ikitərəfli münasibətləri zədələmək istəmirdi. Əslində İsrail "Mavi Mərmərə" gəmisinə hücum etməzdən əvvəl Azərbaycanın Türkiyə ilə İsrail arasında münasibətləri yaxşılaşdırmaq üçün vasitəçilik etməyə hazırlaşdığı barədə məlumatlar var idi. Demək olar ki, bu məqam İsrail-Azərbaycan münasibətlərinin həmin dövrə olan səviyyəsinin mühüm göstəricisidir.

Müsəlman ölkəsi olan Azərbaycan İsrail ilə yaxınlığına görə İslam dünyası tərəfindən qınanmaq istəmir. Bundan başqa, bu məsələ qonşusu İranla münasibətlərin balansını saxlamaq baxımından çox həssasdır. İsrailin varlığından narahat olan İran onun Azərbaycanda güclənməsini, qollarının Cənubi Qafqaz regionuna kimi uzanmasını özünə təhlükə kimi görür. Azərbaycan və İsrail rəsmiləri isə bəyanatlarında vurğulayırlar ki, iki dövlət arasında əməkdaşlıq heç də həmişə üçüncü tərəfə yönəlməyib. Azərbaycan-İsrail münasibətlərinin hərtərəfli inkişafı İranı narahat edir. İran bu əlaqələrin gələcəkdə özünə yönələcəyini və ona qarşı bir cəbhə alacağını düşünməkdədir. Azərbaycan dövlət rəsmiləri dəfələrlə əlaqələrin İran əleyhində olmadığını vurğulasa da, İran hələ də bu əlaqələrə ehtiyyatlə yanaşmaqda davam edir.

Azərbaycan-İsrail münasibətlərində təhlükəsizlik və kəşfiyyat məsələləri mühüm yer tutur. MOSSAD ekspertləri Azərbaycandakı həmkarları ilə sıx əlaqə saxlayır və təlim fəaliyyətlərini davam etdirirlər.

2018-ci ildə Aviqdor Liberman Azərbaycanda rəsmi səfərdə olmuşdur. Onunla Azərbaycanlı həmkarı Zakir Həsənov görüşmüşdür. Görüşdə regional təhlükəsizlik, iki ölkə arasında hərbi, hərbi-texniki sahələr üzrə əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur.

Müasir dünyanın mühüm problemlərindən biri də təhlükəsizliyin təmin edilməsidir. Azərbaycan və İsrail arasında təhlükəsizlik və hərbi sahədə əməkdaşlıq yüksək səviyyədə təşkil olunmuşdur. Hərbi və müdafiə sahəsində əməkdaşlıq çərçivəsində, İsrail 2012-ci ildə Azərbaycana 1,4 milyard dollar dəyərində hərbi texnologiya və pilotsuz uçuş apartları satmışdı (112). Müdafiə sahəsində əməkdaşlıq növbəti illərdə də davam etmişdir. SİPRİ-nin 2016-2020-ci illərə aid statistikasına əsasən, Azərbaycanın silah idxalının 69%-i İsrailin payına düşürdü (61). Azərbaycan ordusunun sərəncamında İsrail istehsalı olan silahlar-pilotsuz uçuş aparatları, quru qoşunları üçün zirehli texnika, silahlar və s. vardır.

Azərbaycanın Ermənistan təcavüzünə məruz qaldğı bir dövrdə İsrail hər zaman Azərbaycanı dəstəkləmişdir. Bunun açıq formasını isə "44 günlük" müharibə vaxtı görmək mümkün oldu.

İsrailin Azərbaycanı siyasi arenada dəstəkləməsi iki ölkə arasındakı münasibətlərin daha dainkişaf etməsinə təkan verən amillərdən olmuşdur. Vətən müharibəsi zamanı İsrail istehsalı olan hərbi avadanlıqlar vasitəsi ilə Azərbaycan düşmənə xeyli zərər vermişdir. Təsədüfi deyildir ki, pilotsuz uçuş aparatlarının müharibə şəraitindəistifadəsi dünyada bu hərbi texnikaya marağı artırmışdır.

Ölkələrarası təhlükəsizlik sahəsində olan əməkdaşlıq xüsusi xidmət orqanlarının əməkdaşlığı səviyyəsində də inkişaf etmişdir. İki ölkənin xüsusi xidmət orqanları müəyyən olaraq qarşılıqlı məlumat mübadiləsi aparır və bu sahədə əməkdaşlığın daha da inkişaf etməsinə şərait yaradırlar.

Azərbaycan və İsrail arasında olan siyasi münasibətlərin istiqaməti hər iki ölkənin milli maraqlarının və qarşılıqlı əməkdaşlığın təmin olunması prinsiplərinə əsaslanır. İki ölkə arasında münasibətlərdə siyasi elementin əhəmiyyətli yer tutması bu münasibətlərin genişlənməsi üçün vacib əsaslardan biridir.

2022-ci il Azərbaycan-İsrail diplomatik əlaqələrinin 30 illiyinin hər iki ölkə nümayəndəri tərəfindəbn coşqu ilə qarşılanması təsadüfi bir hal deyil. İsrailin Azərbaycandakı səfiri olan Corc Dik sosial media hesabında olan paylaşımında iki ölkə arasında olan münasibətləri vurğulamış və onların gələcək inkişafından söz açmışdır.

2022-ci ili aprelin 7-dəAzərbaycanın ABŞ-da olan nümayəndələri İsraildən olan həmkarları ilə görüşmüş, iki ölkə arasında olan münasibətləri müzakirə etmişlər.

Azərbaycan özünün milli maraqlarını gözləməklə İsrail ilə münasibətləri davamlı olaraq genişləndirmək niyyətindədir.

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında olan münasibətlər 1991-ci ildən günümüzə qədər davam etməkdədir. İran ilə olan siyasi münasibətlər enişli-çıxışlı mərhələlərə malikdir. Bu da çox vaxt İranın Ermənistanı dəstəkləməsi və Azərbaycanın siyasi işlərinə müdaxilə etmək niyyəti ilə əlaqədadır.

Prezident İlham Əliyevin hakimiyyətə gəlişindən sonrakı ilk illər Azərbaycan–İran münasibətlərində müsbət dinamika və əlaqələrin intensivləşməsi ilə əlamətdar olmuşdur. Müxtəlif sahələr üzrə ikitərəfli münasibətlər Ümummilli liderin müəyyənləşdirdiyi prinsiplər əsasında davam və inkişaf etdirilmişdir. İran üçün o qədər də əlverişli olmayan geosiyasi və regional şəraitdə Azərbaycan Prezidenti ölkəmizin müstəqil xarici siyasət kursuna uyğun olaraq qonşu dövlətlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirməklə bağlı iradəsini aydın şəkildə ortaya qoymuşdu. 2004-cü ilin avqust ayında İran Prezidenti Məhəmməd Xatəminin Azərbaycana rəsmi səfəri zamanı keçirilən birgə mətbuat konfransında İlham Əliyev demişdir: “Xalqımızın Ümummilli lideri Heydər Əliyevin İran İslam Respublikasına rəsmi səfərindən sonra bizim ikitərəfli münasibətlərimizə yeni təkan verilmişdir.

2006-cı ildən etibarən İranın nüvə proqramı ilə bağlı məsələ beynəlxalq gündəmin əsas mövzularından birinə çevrilmiş, zaman keçdikcə ABŞ-ın İrana hərbi müdaxiləsi ehtimalı ciddi bir təhlükə kimi meydana çıxmışdır. İrana qarşı beynəlxalq təzyiqlərin gücləndiyi, çeşidli sanksiyaların tətbiq edildiyi şəraitdə Azərbaycan hakimiyyəti problemə dair aydın və prinsipial mövqeyi ilə seçilmiş və sonadək həmin mövqeyə sadiq qalmışdır. Prezident İlham Əliyev çoxsaylı çıxış və müsahibələrində İrana qarşı zor tətbiqinin əleyhinə olduğunu, Azərbaycan ərazisindən İrana qarşı

istifadəyə yol verilməyəcəyini, İran dövlətinin dinc nüvə enerjisindən yararlanmaq haqqına malik olduğunu və bununla əlaqədar yaranan gərginliyin danışıqlar yolu ilə, diplomatik metodlarla aradan qaldırılmasının vacibliyini bəyan etmişdir. Məsələn, 2006-cı ilin iyununda En-Bi-Si telekanalına müsahibəsində İlham Əliyev demişdir: "Biz qonşu İrana qarşı hər hansı hərbi əməliyyatın həyata keçirilməsini dəstəkləməyəcəyik. Azərbaycanın mövqeyi çox açıqdır. Hesab edirəm ki, bütün məsələlər dinc yolla, diplomatik səylərlə həll olunmalıdır" (57).

İran prezidenti Mahmud Əhməd Nejat dövrünə nəzər yetirdikdə, Azərbaycan ilə əlaqələrin sarsılmış halını müşahidə etmək olar. İran hakimiyyəti həmin vaxlar aşıq şəkildə Azərbaycan əleyhinə fəaliyyət göstərərək, Ermənistanı dəstəkləyirdi.

Cənubi Azərbaycana səs salan "Xordad hadisələri" milli oyanış hərəkatı da adlandırılır. Burada olan etirazlar fars şovinistlərinin türkləri təhqir etməsinin nəticəsi idi. Hadisə 2006-ci ilin may ayının 12-də İran İslam Respublikasının Xəbər Agentliyinə aid olan "Iran-e-jomee" qəzetində (hadisələr zamanı İranın ən reytinqli 3 qəzetindən biri idi) çıxan karikatura səbəb olmuşdu. Hadisələr zamanı karikaturanın müəllifi Mana Neyestani və qəzetin baş redaktoru Mehrdad Qasımfar həbs edilmişdi. Onlar ölkədəki etnik azlıqları alçaltmaq, karikaturanı yaymaqda günahkar bilinmiş və həbs edilərək, Tehranın məşhur Evin həbsxanasına göndərilmişdir (52).

2012-ci ildə İsrail səfirliynə qarşı terror hücumunun qarşısının alınması və təqsirləndirilən şəxslərin İran casuslarının olduğunun bildirilməsi, eyni zamanda, həmin ildə Azərbaycanda keçiriləcək Avroviziya yarışması haqqında İran prezidentinin sərt fikirləri İran ilə münasibətlərin gərginləşməsinə səbəb olan amillər sırasında idi (80).

İranda Həsən Ruhaninin hakimiyyətə gəlməsi Azərbaycan-İran münasibətlərinin normallaşması kimi xarakterizə olunur. Azərbaycanla əməkdaşlıqdan imtina etməyin öz ölkəsinin maraqlarına zidd olması həqiqətini anlayan İranın yeni Prezidenti Həsən Ruhani vəzifələrinin icrasına başladıqdan sonra qonşu ölkələrlə, o cümlədən Azərbaycanla münasibətləri normallaşdırmağı və yüksək səviyyəyə qaldırmağı xarici siyasətin prioriteti elan etdi və bu sahədə əməli addımlar atmağa başladı. İran mətbuatının yaydığı məlumata görə, ölkənin Milli Təhlükəsizlik Şurası səlahiyyəti

olmayan şəxslərin Azərbaycanla münasibətlərə dair açıqlama verməsini, mətbuatda çıxış etməsini qadağan edən qərar qəbul etdi (115).

Çoxsaylı diplomatik təmasların, o cümlədən 2014-cü ilin yanvarında Davos İqtisadi Forumunda Həsən Ruhani ilə görüşün nəticəsi olaraq 2014-cü il aprel ayının 9-da Azərbaycan Prezidenti İlham Əliyev İrana rəsmi səfərə yollandı. Bu səfər iki ölkə arasındakı münasibətlərdə yeni səhifə açdı. Aparılan danışıqlar iki ölkənin münasibətlərində keyfiyyətcə yeni mərhələnin başlandığına güclü ümid yaratdı. Həqiqətən də, Qərbin İrana qarşı sanksiyalar tətbiq etdiyi çətin vaxtlarda belə Azərbaycan ona obyektiv və mehriban qonşuluq münasibətini saxladı. Bakı geosiyasi vəziyyətin dəyişməsindən asılı olmayaraq, müstəqil mövqeyini qorudu. Azərbaycanın təmkinli, tarixi ənənələri nəzərə almaqla yeritdiyi İran siyasəti olmasaydı, indi bu cür ümidverici vəziyyət yaranmazdı.

Həsən Ruhaninin 2014-cu ildə Azərbaycana səfəri zamanı Azərbaycan-İran biznes forumunda aparılan müzakirələr diqqət çəkən məqamlardan idi. Təbii olaraq, müxtəlif sahələr üzrə əlaqələrin inkişaf etdirilməsi nəzərdə tutulmuş, gələcək vəd edən inkişaf perspektivləri haqqında danışılmışdır. Həmin görüşdə Həsən Ruhaninin söylədiyi fikirlərə xüsusi diqqət yetirilməlidir. O, demişdir ki, İran İslam Respublikasının da müxtəlif istiqamətli əlaqələrin inkişafında, iqtisadi, mədəni, siyasi, regional və beynəlxalq təhlükəsizlik məsələlərində əməkdaşlıq üçün ciddi iradəsi vardır. Biz Azərbaycan ilə olan əlaqələrin genişlənməsində maraqlıyıq. Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuşuq. Azərbaycanın müstəqiliyinin ilk onun yanında olmuşuq. Azərbaycan o xalqdır ki, Arazın o tayında onun istiqlalını sevinclə qarşıladılar. Arazın o tayında olanlar da bu istiqlalı xoş təbəssümlə qarşıladılar (40). Həsən Ruhani Azərbaycanla olan münasibətləri inkişaf etdirməyin əhəmiyyətini vurğulamış və bunun hər iki ölkənin də xeyrinə olacağını bildirmişdi.

2016-cı ildə Həsən Ruhani bakıda rəsmi səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə görüşdən sonra iki ölkə arasında müxtəlif sahələrdə sənədlər imzalanmışdır. Həmin sənədlər bunlardır: “Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə İranın Standartlar və Sənaye Tədqiqatları İnstitutu arasında

standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi və akkreditasiya sahələrində Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə İran İslam Respublikasının Mərkəzi Bankı arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Mədəni İrs, Əl İşləri və Turizm Təşkilatı arasında turizm əməkdaşlığı sahəsində İcra Proqramını (2016-2019)", "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşdırılması sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu", "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında elektron təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında bitki mühafizəsi və bitki karantini sahəsində əməkdaşlıq haqqında Saziş" (8).

İran mətbuatında İran Müdafiə Nazirliyinə əsaslanaraq verilən xəbərlərdə Azərbaycan tərəfindən İrana pilotsuz uçuş aparatlarının göndərildiyi və kəşfiyyat məlumatlarının toplandığı yazılır. Azərbaycan tərəfi bu iddiaları qəti şəkildə rədd etsə də, İranın Natanz şəhərindəki nüvə mərkəzinə qoşulan zavodun üzərindən uçan Hermes-450 (İsrailin Elbit Systems şirkəti) tipli pilotsuz uçuş aparatı İran əsgərləri tərəfindən vurulmuşdu. İran Müdafiə Nazirliyi mövzu ilə bağlı verdiyi açıqlamada Azərbaycanın adını ayrı-ayrılıqda qeyd etməsə də, "Uçuş qonşu ölkədən bizim şimala baş verib" ifadəsini işlətməklə, mövzuya münasibətini bildirmiş və təhlükəsizlik ekspertləri və media burada nəzərdə tutulanın Azərbaycandan başqa ölkə olmadığını şərh etmişdir.

Müasir texnologiyaların idarəetmə məsafəsi və imkanları günü gündən inkişaf edir. İran tərəfinin belə bir dövrdə konkret olaraq, həmin PUA-ların Azərbaycan tərəfindən göndərilməsini təsdiq edən bir faktı yoxdur.

İranla Azərbaycan arasında zaman-zaman yaranan bu cür gərginliklərdə MOSSAD və ya İsrail bu və ya digər şəkildə üçüncü iştirakçı kimi tez-tez xatırlanır. İranın ittihamlarına görə, İsrail Azərbaycanı İrana qarşı təhrik edir. Bu məqamda İsrailin Nativ kəşfiyyat bölməsinin keçmiş rəhbəri Yakov Kedminin aşağıdakı sözləri

diqqəti çəkir. Kedmi 2016-cı ildə Netanyahunun Bakıya səfərini dəyərləndirərək deyib Düzdür, Azərbaycan bizə neft satır və neft bazarında alıcı tapmaq çətin deyil. Lakin bizim silahlarımızı satmaq asan məsələ deyil və ona görə də Azərbaycan bizim üçün önəmlidir. Bundan əlavə, Azərbaycanın müsəlman ölkəsi olması və düşmənimiz İranla qonşu olması onun bizim üçün əhəmiyyətini artırır.

Azərbaycan israil ilə hər nə qədər müttəfiqlik etsə də, İranla da münasibətlərini genişləndirmək fikrindədir. O, hər iki ölkə ilə münasibətlərini balanslaşdırılmış çərçivədə müəyyən edərək inkişaf etdirir.

İran-Azərbaycan münasibətlərini daha aydın başa düşmək üçün hər iki ölkənin xarici siyasətini, Cənubi Qafqazda gedən prosesləri, xüsusilə İranın Cənubi Qafqaz siyasətinin əsaslarını və bu ölkənin Cənubi Qafqaz ölkələri ilə ikitərəfli münasibətlərini bilmək əhəmiyyətlidir. Xəzərin statusu və Transxəzər əməkdaşlığı baxımından ən əhəmiyyətli məsələlərdən biri də İran-Azərbaycan münasibətləridir. SSRİ-nin dağılma mərhələsində İran üçün Cənubi Qafqaz aşağıdakı səbəblərdən xüsusi əhəmiyyət daşıyır:

1. Xüsusilə, bölgə ölkələrinin müstəqilliyə qovuşmasının ilk illərində təsir dairəsini (Azərbaycanın və Azərbaycan türklərinin sıx yaşadığı Cənubi Gürcüstanın timsalında); 2. Böyük güclərin (xüsusilə ABŞ başda olmaqla Qərbin, eləcə də Rusiyanın) özünə istiqamətlənmiş planlarına mane olmaq; 3. Müstəqil Azərbaycanın güclənməsi zamanı bunun öz sərhədləri içərisindəki Azərbaycan türkləri üzərində yarada biləcəyi mümkün təsiri azaltmaq; 4. Bölgədəki təbii ehtiyatların xarici şirkətlər tərəfindən işlənməsinə və bu ehtiyatların beynəlxalq bazarlara çıxarılmasına mane olmaq.

Göründüyü kimi, SSRİ-nin dağılmasından sonrakı mərhələ üçün geosiyasi mübarizə baxımından yeni bir meydan xüsusiyyəti qazanan Cənubi Qafqaz, İran üçün "həm risklər, həm də fürsətlər sahəsi" kimi diqqəti cəlb etmişdir. SSRİ-nin parçalanması İranın son üç əsrdə ən mühüm təhdid hesab etdiyi Rusiya ilə birbaşa sərhəddinin aradan qalxmasına səbəb olmuşdu. Onun yerinə isə, qonşuluqda Azərbaycan, Gürcüstan və Ermənistan kimi nisbətən "kiçik dövlətlər" yaranmışdı ki, bu da İran tərəfindən Qafqaza dair tarixi iddilarının yenidən gündəmə gətirilməsi

fürsəti kimi qiymətləndirmişdir. Digər tərəfdən, İran üçün “müstəqil Azərbaycan problemi” yaranmışdır. Başqa bir baxışa görə isə, Azərbaycan-İran münasibətləri bu iki ölkənin sadəcə xarici siyasəti baxımından deyil, həyati mənafeləri, gələcəkləri və hətta mövcudiyyətləri baxımından böyük əhəmiyyət daşıyan bir mövzudur. Bu iki qonşu ölkənin yerləşdiyi coğrafiya, sahib olduqları xüsusiyyətlər, təbii ehtiyatları, digər qonşuları, qlobal rəqabətin bölgədə əks olunması, bu iki ölkənin daxili və xarici siyasətinin xüsusiyyətləri, bölgədəki digər güclərin bu iki ölkəylə bağlı hədəfləri və siyasətləri Azərbaycan-İran münasibətlərinin əhəmiyyətini artırır. İki ölkənin üçüncü ölkələrlə və beynəlxalq təşkilatlarla münasibətləri, hətta öz daxili siyasətləri ilə bağlı addımları, ideoloji xəttləri və rəsmilərinin (eləcə də qeyri-rəsmilərinin) açıqlamaları Azərbaycan-İran münasibətlərinə birbaşa və daimi olaraq təsir edir. Yuxarıdakı qeydlərdən də göründüyü kimi, İran üçün Cənubi Qafqazın əhəmiyyətini şərtləndirən əsas amillər məhz Azərbaycanla bağlıdır.

İran xarici siyasətində Azərbaycanın yerini şərtləndirən bir amil də SSRİ-nin dağılması ilə ortaya çıxan yeni türk dövlətləri olmuşdur. Belə ki, bölgədə türk respublikalarının ortaya çıxması İranı təhlükəsizlik siyasətini dəyişdirməyə məcbur etmişdir. Bu proses İran siyasi ədəbiyyatında “Türk Cəbhəsi” anlayışını ortaya çıxarmışdır. Sərhədləri daxilində əhəmiyyətli sayda türk yaşayan İran bu vəziyyəti potensial təhlükə olaraq qəbul etmişdir. Bu səbəbdən də, xüsusilə türk dövlətləri arasında “körpü” mövqeyinə malik olduğu ifadə edilən Azərbaycan, İran üçün “təhlükənin mərkəzi” kimi qəbul olunmağa başlamışdır. Yeni vəziyyətdə Qərb dövlətlərini və Türk Respublikalarını təhlükə kimi dəyərləndirən İranın beynəlxalq sistemdəki yeri, Rusiyanı bu ölkə üçün əhəmiyyətli bir müttəfiqə çevrilmişdir. Bu istiqamətdə İran Rusiyanın keçmiş SSRİ məkanında (xüsusilə də Müstəqil Dövlətlər Birliyi coğrafiyasında) daha güclü olması üçün səylər göstərmişdir. İran bu çərçivədə Xəzər dənizini öz maraqları baxımından ən strateji yerlərdən biri kimi qiymətləndirir. Belə ki, Xəzər İran ilə Rusiya arasında əlverişli tək yol olaraq vacib əhəmiyyətə malikdir və Xəzərdə İranın atılacağı destruktiv addımlar digər məqamlarla yanaşı, bu iki ölkənin Xəzər vasitəsi ilə əlaqəsinə də mane ola bilər. Digər tərəfdən Xəzəryanı ölkələrin öz təbii ehtiyatlarını beynəlxalq bazarlara İran vasitəsi ilə nəql edəcəkləri

təqdirdə İranın beynəlxalq sistemə inteqrasiya olunması həyata keçə bilər. Bu ölkələrin İrandan yan keçən yollar vasitəsi ilə beynəlxalq bazarlara çıxışı İranın bu məqsədinə çatmasına da mane olur. İran buna görə də, Xəzərə dair məsələlərə həddindən artıq həssas yanaşmaqdadır (2). Azərbaycan baxımından isə İran daha çox bu xüsusiyyətlərlə ön plana çıxmışdır:

1. Müxtəlif səbəblərə (ümumiyyətlə Qafqazı, bu çərçivədə Azərbaycanı "tarixi İran"ın bir parçası olaraq görənlərin, ya da şiə coğrafiyasında üstünlük axtarışı içərisində olmanın əhəmiyyətini ön plana çıxaran güclərin fəallığı səbəbi ilə) görə, genişlənmək üçün sahə axtaran bir dövlətdir; 2. Azərbaycanın müstəqilliyini, hətta varlığını belə özü üçün təhlükə mənbəyi olaraq görən, bu səbəblə də Azərbaycana qarşı müəyyən mənfi addımlar atanbir qonşudur; 3. Azərbaycan dəyərlərinə (Azərbaycan tarixinin ən şanlı dövrlərini, mədəniyyətini, ədəbiyyatını, sənətini və s.) sahib olmağa çalışan bir ölkədir; 4. Azərbaycan türklərinin əslində Fars mənşəli "azəri" adlı tayfa olduqları, lakin sonradan Türklər tərəfindən assimilyasiya edildikləri iddiası da bir təhdid kimi görünür; 5. İran Azərbaycan üçün həyati strateji əhəmiyyətə malik mövzuları da (Qarabağ problemi, enerji siyasəti, Xəzərin statusu və s.) arzu olunmayan, ya da tam əks mövqe nümayiş etdirən bir ölkədir. 7. Xarici siyasətində terrordan vasitə kimi istifadə etməsi, rejim ixrac etməyə çalışması, regional və qlobal siyasət baxımından daim gərginlik mənbəyi olması da bu ölkəni Azərbaycan üçün böyük təhlükə mənbəyi, amma eyni zamanda xarici siyasətində müəyyən fürsətlər də yaradan bir dövlət kimi xarakterizə edir.

Azərbaycan və İran dövlətləri arasında ən ciddi gərginlik 2001-ci ildə baş verib. Həmin il iyul ayının sonlarında İranın hərbi gəmi və təyyarələri Xəzərdə BP tərəfindən idarə olunan və Azərbaycana məxsus tədqiqat gəmisini Araz-Alov-Şərq perspektiv strukturlarının daxil olduğu kəşfiyyat blokunun ərazisini tərk etməyə məcbur etmişdi. ARDNŞ (SOCAR) 1998-ci ildə BP və Statoil şirkətləri ilə həmin yataqların işlənməsinə dair müqavilə bağlamış və ilk kəşfiyyat işlərinə başlanmışdı. Bu strukturların bir hissəsinin Xəzərin İran sektoruna düşdüyünü iddia edən İran Neft Nazirliyi bəyan etmişdi ki, orada kəşfiyyat və tədqiqat işlərinin aparılması üçün bağlanan müqavilələri etibarsız sayır. Nəticədə BP Araz-Alov-Şərq yataqlarında bütün

fəaliyyətləri dayandırmaq məcburiyyətində qalmışdı. İranın davam edən təzyiqləri o zaman da Türkiyənin reaksiyasına səbəb olmuşdu. Azərbaycanın kömək üçün müraciətindən sonra əvvəlcə diplomatik səviyyədə İrana xəbərdarlıq edən Ankara lazımi nəticə əldə edilmədikdən sonra güc nümayişinə qərar vermiş, bu məqsədlə avqustun sonlarında Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hüseyn Kıvrıkoğlu Azərbaycana səfər edərək prezident Heydər Əliyevlə görüşmüş və onun tərəfindən "Azərbaycan bayrağı" ordeni ilə təltif edilmiş, Türkiyə Hərbi Hava Qüvvələrinin F-5 təyyarələrindən ibarət Türk ulduzları eskadrilyası isə Bakının Azadlıq meydanı və Xəzər üzərində nümunəvi uçuşlar keçirmişdi (103).

İran Azərbaycanın müstəqillik tarixinin ilk illərindən yumşaq güc üsulları ilə öz təsirini və nüfuzunu burada yaymağa çalışıb. 1993-cü ildə Bakıda fəaliyyətə başlayan İran Mədəniyyət Mərkəzi və İmam Xomeyni İmdad Komitəsinin Azərbaycan nümayəndəliyi müstəqilliyin ilk dövrlərində çox aktiv fəaliyyət göstəriblər. İmdad Komitəsinin Azərbaycan nümayəndəliyinin qeydiyyatı 2011-ci ildə Azərbaycan Ədliyyə Nazirliyi tərəfindən ləğv edilib, diplomatik statusa malik olan Mədəniyyət Mərkəzi isə fəaliyyətdədir. Ötən dövr ərzində İranda dini tədrisin mərkəzi olan Qum şəhərində minlərlə azərbaycanlı təhsil alıb.

İran da Xəzər dənizinin sektorlara bölünməsinə güclü şəkildə qarşı çıxır. İran bunu dolayısı yolla Orta Asiya və Qafqaz regionlarında Qərbin, xüsusilə də ABŞ-nın təsir imkanlarının, eləcə də siyasi və hətta hərbi varlığının artmasının səbəbi hesab edir. Bu baxımdan, 1990-cı illərin əvvəllərində problemin həll olunmaması elə İran üçün həll olunma qədər dəyərli idi.

2000-ci ilin iyununda Tehranda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Zirvə Görüşündə isə İran Xəzərin statusu ilə əlaqədar olaraq, Xəzərin beş sahil dövləti arasında bərabər şəkildə bölünməsini təklif etmişdir. "İİR yeni regional şəraitin yaranması və yaxşı qonşuluq münasibətləri üsuluna əsasən yeni müqaviləni qəbul edir və yeganə şərti, Xəzərin yeni hüquqi statusunda İranın mənafeyinə riayət edilməsidir. İranın qənaətinə görə, yeni bölgüdə Xəzər dənizinin sahil sularının ən azı 20 faizi ixtiyarında olmalıdır." iddiası ilə çıxış etməsi maraq doğurmuşdur.

Müxtəlif illərdə Xəzər dənizinin hüquqi statusu ilə bağlı Xəzəryanı dövlət başçılarının iştirakı ilə görüşlər keçirilmiş (2002-ci il Aşqabad, 2007-ci il Tehran, 2010-cu il Bakı və 2014-cü il Həştərxan) amma konkret olaraq bir ortaq mövqeyə gəlinməmişdir.

2018-ci ildə Aktauda Xəzəryanı dövlətlərin başçıları Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı imzaladılar. Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Həsən Ruhani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov imzaladılar. Bundan əlavə, Xəzəryanı dövlətlərin müvafiq qurumlarının rəhbərləri tərəfindən bu Konvensiyadan irəli gələn digər mühüm sənədlər - Xəzər dənizində mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol, Xəzəryanı dövlətlərin hökumətləri arasında ticari-iqtisadi əməkdaşlıq haqqında Saziş, Xəzəryanı dövlətlərin hökumətləri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Saziş, Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında Saziş və sərhəd xidməti idarələrinin əməkdaşlığı və qarşılıqlı əlaqələri haqqında Protokol imzalandı (1).

İran Prezidenti Həsən Ruhaninin sammitdə Konvensiyanın 3-cü maddəsində istənilən xarici hərbi bazanın qurulmasının, xarici ölkələrin hərbi gəmilərinin Xəzərdə olmasının qadağan edilməsini vurğulaması təsadüfi deyildir. Bundan başqa, Xəzəryanı ölkə öz ərazisindən digər region ölkələrinə qarşı hərbi məqsədlə istifadə edilməyəcəyini də öhdəsinə götürür. Burada da İranın marağı ön plana çıxır, çünki ABŞ və İsrail İrana qarşı hərbi addımların atıla bilməsindən bəhs edir, bəzi dairələr isə bu məqamdan istifadə edərək Azərbaycanı bu məsələyə qarışdırmağa çalışırlar. Rəsmi Bakı isə öz ərazisindən heç bir qonşu dövlətə qarşı hərbi addımların atılmasına razı olmayacağını dəfələrlə bəyan edib. İndi həmin məqam sənəddə rəsmən təsbit edilib. Bununla da Azərbaycana qarşı mümkün təxribatlardan birinin də yolu kəsilmiş olur.

Göründüyü kimi, ötən 30 ildə Azərbaycan-İran münasibətləri yüksələn xətlə inkişaf etməyib, mütəmadi gərginliklərlə müşayiət olunub, amma ortaya çıxan anlaşmazlıqlar və ziddiyyətlərin dövlətlərarası münasibətlərə neqativ təsirləri minimal, qısamüddətli olub və tərəflər praqmatik yanaşma nümayiş etdirərək, problemlərin

qalıcı-uzunmüddətli xarakter daşımamasına çalışıblar. Hal-hazırda müşahidə olunan gərginlik Azərbaycanın qələbəsi ilə nəticələnən "44 günlük" müharibənin yaratdığı geosiyasi dəyişikliklərdən qaynaqlandığı üçün əvvəlkilərdən fərqlənir.

İranla münasibətlərdə gərginliyin növbəti mərhələsi Vətən Müharibəsi dövrünə təsadüf edir. Müharibə dövründə İrana məxsus nəqliyyat vasitələrinin Ermənistana hərbi yüklər daşıması əlaqələrə mənfi təsir göstərmişdir (90). Sosial şəbəkələrdə yayılan foto və video materialların gerçəkliyini təkzib edən İran rəsmiləri belə addımların münasibətləri korlamağa meyl göstərən şəxslər tərəfindən atıldığını qeyd etmişdilər (112).

Azərbaycan İsrail münasibətlərini inkişaf etməsi İranı narahat edən səbəblərdəndir. İran hökümətini narahat edən digər bir səbəb Türkiyə-Azərbaycan münasibətlərinin yüksək səviyyədə olmasıdır. Buna baxmayaraq, rəsmi Bakı Azərbaycanın digər ölkələrlə əməkdaşlığının İrana qarşı yönəlmədiyini dəfələrlə bildirmişdir.

Vətən müharibəsindən sonrakı dövrdə İranın Azərbaycanla sərhəd boyu hərbi təlimlər keçirməsi bir daha gərginliyə səbəb olmuşdur. "Xeybər fatehləri" adlı hərbi təlimlərin keçirilmə səbəblərini İran İslam Respublikası Ordusunun Komandanı belə izah etmişdi: "Bu bölgədə bizim başqa yerlərdən gələn çağırılmamış və pozucu bir təhlükəsizlik ünsürü var, o da qeyri-qanuni sionist rejimdir və bu rejim gəldikdən sonra bu sərhədə qarşı həssaslığımız artıb, onların buradakı fəaliyyətləri tamamilə bizim müşahidəmiz altındadır" (113). Bundan başqa, o, Azərbaycan sərhədlərinin İran tərəfindən rəsmi olaraq tanındığını da əlavə etmişdir.

2021-ci il noyabrın 28-də Türkmənistanın Aşqabad şəhərində Azərbaycan və İran prezidentləri arasında görüş keçirildi. Görüş ikitərəfli əlaqələrin stabilləşməsinə şərait yaratmışdır. Görüşdə Zəngəzur nəqliyyat dəhlizinin əhəmiyyətindən də söz açılmış, hərtərəfli əməkdaşlığı təmin edəcək bu dəhlizin perspektivləri haqqında danışılmışdır. Görüşün sonunda Azərbaycan və İran prezidentlərinin iştirakı ilə "İran İslam Respublikasının ərazisindən təbii qazın tranzit şərtlərini müəyyənləşdirən Saziş" imzalanmışdır (42). Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev imzalanan

sənədin tarixi əhəmiyyətli olduğunu qeyd etmiş, Azərbaycanın İran üzərindən Türkmənistan qazını alacağını vurğulamışdır. Onun sözlərinə görə, bu sənəd iqtisadi və enerji təhlükəsizliyi baxımından da böyük önəm daşıyır.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun İrana səfərini də qeyd etmək lazımdır. O, bu səfər zaman İran İslam Respublikasının Baş Qərargah rəisi Məhəmməd Hüseyn Baqeri ilə görüşmüş və tərəflər hərbi və hərbi istiqamətli sahələr üzrə əməkdaşlıq imkanlarını müzakirə etmişlər (22).

Azərbaycan İran münasibətləri fərqli məcralarda istiqamət almağına baxmayaraq siyasi əlaqələrin mövcud olması hər iki ölkənin maraq dairəsindədir. Qonşu ölkələrin bir biri iləqarşılıqlı əməkdaşlıq etməsi münasibətlərin faydalı olmasının vacib şərtlərindəndir. qarşı olması münasibətləri heç bir zaman faydalılıq prinsiplərini özündə kəsb etmir.

Konkret olaraq, Azərbaycan həm İsrail, həm də İran ilə siyasi əlaqələri davam və inkişaf etdirməkdədir. Azərbaycanın siyasi mövqeyi özünə dost qazanmağı hədəfləyir. Hər hansısa bir ölkə ilə mənfi münasibətlər isə günün reallığında irasional bir addımdır.

## 2.2 Beynəlxalq və regional təşkilatlar çərçivəsində Azərbaycanın İsrail və İran ilə əlaqələrinin xarakteri və nəticələri

Azərbaycan Qərbə özünün Avrasiya məkanındakı əhəmiyyətli geosiyasi vəziyyətini və zəngin enerji resurslarını lazımi səviyyədə təqdim etməklə, Cənubi Qafqazın lider dövləti statusunu öz əlində saxlayır və saxlamalıdır. Qərbin köməyi və davamlı dəstəyi ilə iqtisadiyyatda struktur islahatlarını müvəffəqiyyətlə başa çatdırmaq, dünyanın liberal ticarət-biznes məkanına daxil olmaq üçün əlverişli beynəlxalq dəstək almaq və dinamik inkişaf yoluna çıxmaq xarici siyasətin mühüm prioriteti olaraq qalır. Azərbaycanın xarici siyasət prioritetləri sırasına eyni zamanda dünyada beynəlxalq hüquq normalarına əsaslanan sivil birgəyaşayış qaydalarının bərqərar olması, dövlətlərin beynəlxalq səviyyədə hüquqlarının qorunması üçün təsirli

tədbirlərin görülməsi, beynəlxalq təşkilatların, xüsusən BMT, ATƏT, NATO kimi qurumların dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında daha yaxından iştirakının artırılması və s. məsələlər də daxildir.

Avrasiya məkanında həyata keçirilən beynəlxalq və regional inteqrasiyada öz layiqli yerini tutmaq, ölkənin milli maraqlarını maksimum qorumaq və təmin etmək vəzifəsi Azərbaycandan xüsusi düşünülmüş və balanslı siyasət tələb edir. Bu regionda MDB, İƏT, Türkdilli Dövlətlər Birliyi, ayrıca Avropa İttifaqı, Çin, ABŞ və başqa ölkələrlə əlaqələr sistemi çox mürəkkəb və ziddiyyətlidir. Bütün bunlar Azərbaycanın xarici əlaqələrində balanslı regional siyasət yürütməyi xüsusi bir prioritet kimi irəli çıxarır. Balanslı regional siyasət ölkənin bugünkü təhlükəsizliyi və müstəqil gələcəyi üçün ən mühüm təminat rolunu oynaya biləcək faktordur.

Azərbaycan Respublikası və BMT arasında əməkdaşlıq Sovet İttifaqının dağılması və Azərbaycanın öz müstəqilliyini bərpa etməsindən dərhal sonra bərqərar olmuşdur. Azərbaycan Respublikası 1992-ci il martın 2-də tarixində BMT-nin üzvlüyünə qəbul edilmiş və 1992-ci il may ayının 6-da Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılmışdır. BMT ilə əməkdaşlığın birinci günündən başlayaraq, Azərbaycan BMT platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan - Azərbaycan münaqişəsinə cəlb etməyə və BMT-nin potensial imkanlarından istifadə etməklə sülh sazişinin əldə olunmasına çalışmışdır. 1993-cü il ərzində BMT-nin TŞ Ermənistan-Azərbaycan münaqişəsinə dair 822, 853, 874, 884 saylı qətnamələr qəbul etmişdir. Hər bir qətnamə Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğalı nəticəsində qəbul edilmişdir. Bu qətnamələr Azərbaycanın ərazi toxunulmazlığını yenidən təsdiq edərək, dərhal atəşkəs elan olunması, hərbi əməliyyatlara son qoyulması və işğalçı qüvvələrin Azərbaycan Respublikası ərazisindən çıxarılması tələblərini irəli sürmüşdür.

2008-ci ildə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və onun ətrafında silahlı münaqişənin beynəlxalq sülh və təhlükəsizliyə təhlükə törətməkdə davam etməsindən ciddi şəkildə narahat olan Baş Assambleya Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiqləyərək, bu ölkənin beynəlxalq səviyyədə tanınmış sərhədlərini dəstəklədiyini ifadə və bütün erməni qüvvələrinin dərhal ərazidən

çıxarılmasını tələb etdi. 39 səs lehinə, 7 əleyhinə (Anqola, Ermənistan, Fransa, Hindistan, Rusiya Federasiyası, ABŞ, Vanuatu) 100 bitərəf olmaqla, Assambleya həmçinin Azərbaycan əhalisinin öz evlərinə qayıtmaq üçün ayrılmaz hüququnu təsdiqlədi və bir daha təsdiq etdi ki, heç bir dövlət Azərbaycan ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyəti qanuni hesab etməməli və ya bu vəziyyətin saxlanmasına kömək göstərməməlidir (89)

Səsvermə nəticələrinə diqqət yetirdikdə İsrailin bu məsələyə neytral qaldığını görmək olar. İran isə səsvermədə iştirak etməyib. Bu da ozaman Azərbaycanın iki ölkə ilə də o qədər ciddi və əməkdaşlığa söykənmiş münasibətlərinin olmadığının göstəricisidir.

Təhsil, elm və mədəniyyət məsələlərinin vacibliyini nəzərə alaraq, Azərbaycan BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) ilə geniş əməkdaşlıq edir və bu məqsədlə 1994-cü ildə Azərbaycan Prezidentinin Sərəncamına əsasən Azərbaycanın UNESCO nəzdində Milli Komissiyası təsis edilmişdir. Azərbaycanın müxtəlif nazirlik və qurumları BMT sistemində olan müvafiq qurumlarla sıx əməkdaşlıq edirlər (məs: Azərbaycan Səhiyyə Nazirliyi və Ümumdünya Səhiyyə Təşkilatı). İsrail və İran ayrı ayrılıqda işğal olunmuş bölgələrdə dağıntıları qınamış və bunun hüquqi çərçivədə adımlarla həll olunmasını dəstəkləmişdirlər.

Azərbaycanın 2012-2013-cü illər dövrü üzrə BMT TŞ-nin qeyri-daimi üzvlüyü beynəlxalq sülh və təhlükəsizliyin bərqərar edilməsi üzrə siyasi proseslərdə ölkəmizin çəkisini artırmışdır. Beynəlxalq sülh və təhlükəsizliyin bərqərar edilməsinə məsul əsas qurum olan BMT TŞ üzvlüyü zamanı Azərbaycan tərəfi həmişə beynəlxalq hüquq və ədaləti müdafiə etmişdir. Şuraya üzvlük zamanı rotasiya qaydasına əsasən Azərbaycan TŞ-yə iki dəfə sədrlik etmişdir. Birinci sədrlik dövründə, 2012-ci il mayın 4-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə TŞ-də Beynəlxalq sülh və təhlükəsizliyə terrorizmin açdığı hədələr mövzusu çərçivəsində "Terrorizmlə mübarizə sahəsində öhdəliklərin yerinə yetirilməsi ilə bağlı beynəlxalq əməkdaşlığın gücləndirilməsi" adlı yüksək səviyyəli görüş keçirilmişdir. İkinci sədrlik dövründə Azərbaycan tərəfi, ənənəvi olaraq, sədr ölkə tərəfindən təşkil edilən yüksək səviyyəli iclası "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı (İƏT)

arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusuna həsr etmişdir. 2013-cü il oktyabrn 28-də təşkil edilən bu iclas ilk dəfə belə bir mövzuya aid edilmişdi. Əlavə olaraq, Azərbaycanın təklifi əsasında 2012-ci il mayın 30-da "Mübahisələrin dinc yolla həlli, münaqişələrin qarşısının alınması və həlli: vasitəçilik, hüquqi həll və ədalət" mövzusunda BMT TŞ-nin "Arria formulası" çərçivəsində qeyri-rəsmi müzakirələri təşkil olunmuşdur (10).

Fələstin-İsrail münaqişəsi dünya ölkələrini müxtəlif cəbhələrə ayrımışdır. Azərbaycan bu münqaişədə çalışdığı qədər neytral mövqe göstərərək, iki tərəf ilə olan münasibətlərini də normada saxlamağa çalışır. 2012-ci ildə Fələstin dövləti BMT-də qeyri-üzv müşahidəçi statusu almış (Azərbaycan da buna "hə" demişdir) və indiyədək bu dövlət BMT-nin 138 üzvü, həmçinin Azərbaycan tərəfindən tanınmışdır. Fələstin dövlətinə dəstək çıxmaq Azərbaycan tərəfinin İslam Əməkdaşlıq Təşkilatının ölkələri tərəfindən dəstək almasına istiqamətlənənən bir addımdır.

2015-ci ildə İsrail prezidenti Rivlinin BMT-nin Beynəlxalq Holokostu Anma Günü ilə bağlı çıxışında Ermənistanın mülki azərbaycanlılara qarşı törətdiyi 1992-ci ildə Xocalı qətliamına xüsusi istinad etdi (58) .

2022-ci ildə İsrailin Azərbaycandakı səfiri Corc Dik BMT-nin Baş Assambleyasında qəbul olunmuş Holokostla bağlı qətnaməni dəstəklədiyinə görə Azərbaycana minnətdarlığını bildirimişdir (45). Belə məqamlarda ölkələrin birbirlərinə dəstək olması ikitərəfli əlaqələrə də müəyyən mənada təsir edir deyə o vurğulamışdır.

Azərbaycan hazırda Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlanan quruma 1992-ci ilin yanvarın 30-da qəbul olunmuşdur. Bu regional təşkilat 1995-ci il yanvarın 1-dək Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) adlanırdı. ATƏM Azərbaycanın daxil olduğu ilk Avropa təşkilatı olmuşdur. 1992-ci ilin fevral ayından başlayaraq, Ermənistan-Azərbaycan münaqişəsi ATƏM-in prinsiplərinə uyğun olaraq üzv olan dövlətlərin daha çox diqqət obyektinə çevrildi. Bu məqsədlə fevral ayının ortalarında ATƏM-in ilk xüsusi missiyası Azərbaycanda oldu.

1992-ci ilin mart ayının 24-də ATƏM-in Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) birinci əlavə görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə olundu. Görüşdə

ATƏM-in Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair Minsk konfransının çağırılması haqqında qərar qəbul edildi.

ATƏT-in Minsk qrupu münaqişənin həll edilməsi prosesi ilə əlaqədar yaradılsa da, onun bu prosesin həllində heç bir rolu olmadı. Bunu münaqişəni izləyən hər bir şəxs də təsdiq edə bilər. “Azİz” Beynəlxalq Assosiasiyasının baş direktoru Lev Spivak bir çıxışında bildirmişdir ki, münaqişənin həll olunmaması, Ermənistanın təxribatlarının cavabsız qalması birbaşa faktiki fəaliyyətsiz, laqeydlik nümayiş etdirən ATƏT-in Minsk qrupuna ünvanlanmalıdır ki, nəticədə ermənilər yaranmış vəziyyətdən təxribat törətmək üçün istifadə edirlər. ATƏT-in Minsk qrupu öz funksiyasını unudub, amorf struktura çevrilib. ATƏT-in Minsk Qrupunun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində fəaliyyət göstərməməsi Ermənistanın növbəti təxribatlarına gətirib çıxarır deyə o əlavə etmişdir.

2020-ci ilin iyul ayında Ermənistan silahlı qüvvələri artilleriya qurğularından istifadə etməklə, Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində hücum cəhdi həyata keçirmişdir.

2020-ci ilin sentyabrın 24-də BMT Baş Məclisinin 75-ci sessiyasının ümumi müzakirələrində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bu təhlükəli vəziyyət haqqında beynəlxalq ictimaiyyəti məlumatlandırmışdır.

Prezidenti İlham Əliyevin bu xəbərdarlığından bir neçə gün sonra, yəni 2020-ci ilin sentyabrın 27-də başlanan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi işğalçı Ermənistan üzərində qələbə ilə nəticələndi. Müharibənin bitməsindən bir qədər sonra, 2020-ci il dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontin, ABŞ-dan olan həmsədri Endrü Şofer, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik müzakirələri davam etdirmək məqsədilə Bakıya gəldilər. Prezident İlham Əliyev onları qəbul edərkən bildirdi ki, Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşub. ATƏT-lə Azərbaycan arasında digər sahələrdə əməkdaşlıq davam etdirilir.

2011-ci ildən İslam Əməkdaşlıq Təşkilatı adlanan İslam Konfransı Təşkilatı Cənubi Amerika, Afrika, Avropa və Asiyanın 57 müsəlman ölkəsini birləşdirən

beynəlxalq təşkilatdır. İslam Konfransı Təşkilatı Səudiyyə Ərəbistanı Kralının 1966-cı ildə ortaya qoyduğu "İslam birliyi" və 1969-cu ildə Mərakeş Kralının "İslam həmrəyliyi" fikrindən qaynaqlanaraq, 1969-cu ildə Rabatda (Mərakeş) müsəlman ölkələrinin dövlət və hökumət başçılarının konfransında yaradılmışdır (3, 70).

Tarixi keçmişi, dini, mədəni və mənəvi dəyərləri ilə islam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanın 1991-ci ilin dekabr ayında İslam Konfransı Təşkilatına (İKT) üzv olması beynəlxalq aləmdə respublikamızın qarşısında yeni üfüqlər açdı. Belə ki, Azərbaycan İKT və ona üzv dövlətlərin ardıcıl dəstəyinə nail oldu. İlkin vaxtlarında İKT Baş katibliyi Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı respublikamızın mövqeyini dəstəkləyən bəyanatlar verdiyi halda, daha sonrakı mərhələdə İKT konfransları Ermənistan-Azərbaycan münaqişəsi haqqında kəsərli qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan münaqişəsi birmənalı şəkildə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü kimi qiymətləndirilir (3, 72).

İKT xarici işlər nazirlərinin 1993-cü ildə Karaçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etmişdir. İKT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" adlandırılmışdır (3, 76). O vaxtdan etibarən xarici işlər nazirlərinin bütün konfranslarında bu qəbildən olan qətnamələrin adı dəyişilməz qalmışdır. Qeyd etmək lazımdır ki, İKT dövlət və hökumət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII, 2000-ci ildə Dohada keçirilmiş IX və 2003-cü ildə Malayziyanın Putracaya şəhərində keçirilmiş X konfransları eyni adlı qətnamələr qəbul etmişdir (3, 80).

İranın Qarabağ münaqişəsi ilə əlaqədar aydın siyasəti olmuşdur. İranın rəsmi mövqeyi Azərbaycanın ərazi bütövlüyünün tanınmasıdır. Həmçinin İran rəsmiləri dəfələrlə vurğulayıblar ki, Dağlıq Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll edilməlidir (74). Məhəmməd Xatəminin rəhbərliyi ilə

1997-ci ildə Tehranda keçirilmiş İƏT konfransı Ermənistanın Azərbaycana qarşı təcavüzünü açıq şəkildə pisləyən qətnamə qəbul etmişdir (44).

İran Ermənistan və Azərbaycana münasibətdə balanslaşdırılmış siyasət yürüdür. Başqa sözlə ifadə etsək, İran regionda güc mərkəzi olan Azərbaycanla əlaqələr quranda Ermənistanda da nüfuzunu qorumağa çalışır. Misal üçün, İran Ermənistanla iqtisadi əməkdaşlığı inkişaf etdirir: 2006-cı ildən başlayaraq Ermənistan İrandan çəkilmiş boru xətləri ilə İran qazını alır (97). Ermənistan isə İrana elektrik enerjisi ixrac edir. İran şəhərlərini Ermənistan şəhərləri ilə birləşdirən avtomobil yollarının tikintisində iştirak edirdi (73).

İranla əməkdaşlıq etmək Türkiyə və Azərbaycan tərəfindən blokadaya alınmış Ermənistana həyatda qalmaq imkanı verir. Bu əməkdaşlığa baxmayaraq, Azərbaycan hökuməti İranın daxili işlərinə müdaxilə etməməyi üstün tutur. Aydındır ki, İranla İƏT çərçivəsində əməkdaşlıq edən Azərbaycan ondan Ermənistana münasibətdə daha sərt siyasət gözləyir. İran bir çox müsəlmanların gözündə nəinki adi ölkə deyil, həm də "Qərb inkişaf modelinə" siyasi, inzibati və ideoloji alternativ təqdim edən, islam dünyasında liderliyə can atan, islamın və onun müqəddəs dəyərlərinin müdafiəçisi rolunu öhdəsinə götürən islam respublikasıdır. O, ölkənin xarici siyasətini islam prinsipləri və bütün müsəlmanlara münasibətdə qardaşlıq öhdəlikləri əsasında təşkil etdiyini bildirir (115).

2017-ci il dekabrın 13-də Türkiyə Respublikasının təşəbbüsü ilə İstanbulda İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsinə dair fövqəladə Zirvə toplantısı keçirilib. "Qüdslə həmrəylik üçün birlikdə hərəkət" devizi altında keçirilən Zirvə toplantısına 50-dək ölkədən dövlət və hökumət başçıları qatılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zirvə toplantısında çıxış edərək, Azərbaycanın Fələstin-İsrail münaqişəsinin sülh yolu ilə, Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla iki dövlət prinsipi əsasında həllini dəstəklədiyini bəyan etmişdir (41).

İslam Əməkdaşlıq Təşkilatı Azərbaycana qarşı erməni təcavüzünü daim pisləmiş, öz qərarlarında Ermənistanı təcavüzkar dövlət kimi qiymətləndirmiş, BMT-ni bu dövlətə qarşı sanksiyalar tətbiq etməyə çağırmış və Ermənistandan Azərbaycanın

bütün işğal olunmuş ərazilərindən öz silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb etmişdir.

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) əsası Türkiyə, İran və Pakistanın təşəbbüsü ilə 1985-ci ildə qoyulmuşdur. İƏT 1964-1979-cu illərdə fəaliyyət göstərmiş Regional Əməkdaşlıq və İnkişaf Təşkilatının davamı kimi yaradılmışdır. Təşkilatın əsas məqsədi region dövlətlərinin sahib olduğu resurslardan tam istifadəni təmin etməklə, İƏT-in dünya iqtisadiyyatında payını artırmaqdır. Bu da, öz növbəsində, üzv dövlətlərin iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunmasına gətirib çıxaracaqdır. İƏT eyni zamanda, iqtisadiyyatın liberallaşdırılması, üzv dövlətlər və digər dövlətlər arasında ticarət baryerlərinin aradan qaldırılmasına çalışır. 1992- ci ildə Türkiyə, İran və Pakistandan başqa, daha 7 dövlət, o cümlədən Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Qırğızıstan və Əfqanıstan bu təşkilata qoşulmuşdur. Yeni üzvlərin təşkilata qoşulması İƏT Nazirlər Şurasının 1992-ci il noyabrın 28-də İslamabadda keçirilmiş növbədənkənar iclası zamanı İzmir müqaviləsinə qoşulmaqla baş vermişdir. Bundan sonra yeni üzv dövlətlərin xarici işlər nazirləri tərəfindən İƏT-ə qəbul olunmaları barədə akt imzalanmışdır. İƏT-ə yeni üzvlərin daxil olması tarixi hazırda "İƏT Günü" kimi qeyd olunur. İƏT-ə üzv dövlətlərin sayının artması və bununla da daha böyük regionu əhatə etməsi onun vəzifələrini artırmış və daha böyük resursları idarə etmək imkanı yaratmışdır. İƏT regionunda iqtisadi əlaqələrin inkişaf etdirilməsi qarşısında dayanan əsas maneələr lazımi infrastrukturun və institutların olmamasıdır. Məhz buna görə də İƏT bu maneələrin aradan qaldırılması istiqamətində müxtəlif layihələr həyata keçirir (9).

2006-cı ildə İƏT-in IX Zirvə görüşü Bakıda keçirilmişdir. Bu toplantı İƏT tarixində vacib görüşlərdən biri hesab olunur. IX Zirvə görüşündən sonra İƏT-də sədrlik Azərbaycana keçmişdir. Azərbaycan Prezidenti zirvə görüşündə çıxış edərək demişdir: "Biz bir neçə beynəlxalq, regional layihələrin iştirakçısı, təşkilatçısıyıq və çox istəyirik ki, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də konkret layihələr daha çox olsun. Biz konkret məsələlər ətrafında diskussiya apararaq və praktik addımların atılması üçün lazım olan bütün tədbirləri görməliyik". 2007-ci il fevralın 8-də

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İƏT-in baş katibi Xurşid Ənvəri qəbul etmişdir. Görüş zamanı baş katib Pakistan xalqının Ermənistanın Azərbaycana təcavüzünü qəti şəkildə pislədiyini bir daha bəyan etmişdir. X Zirvə görüşü isə Tehranda 2009-cu il martın 11-də keçirilmişdir (9).

Təsadüfi deyil ki, İƏT-in IX və XII Zirvə görüşləri, İƏT-ə üzv dövlətlərin ticarətin təşviqi üzrə təşkilatlarının rəhbərlərinin 2-ci iclası, İqtisadi Tədqiqatlar üzrə Daimi Komitənin 2-ci iclası və "İqtisadiyyat" jurnalının redaksiya heyətinin 1-ci iclası, Görkəmli xadimlər qrupunun 7-ci iclası, İƏT-ə üzv ölkələrin 4-cü Biznes Forumu və digər bu kimi əhəmiyyətli tədbirlər Azərbaycanda keçirilmişdir. İƏT-ə üzv dövlətlər Dağlıq Qarabağ münaqişəsinə konkret münasibət bildirmiş, Azərbaycanın ərazi bütövlüyünü pozan Ermənistana tənqidi yanaşmış və Azərbaycanın maraqlarını haqlı olaraq müdafiə etmişlər.

Azərbaycan İƏT ilə nəqliyyat sahəsində də əməkdaşlıq edir. Bu əməkdaşlıq Tranzit Nəqliyyatı Çərçivə Sazişi əsasında həyata keçirilir. Tranzit Nəqliyyatı Çərçivə Sazişi 1998-ci il mayın 9-da keçirilmiş İƏT-in V Zirvə görüşündə imzalanmış və 2006-cı il mayın 19-dan etibarən qüvvəyə minmişdir. Azərbaycan Respublikası Tranzit Nəqliyyatı Çərçivə Sazişi üzrə əlaqələndirici təyin edilmişdir. Bu sazişin həyata keçirilməsi İƏT-in prioritet istiqamətlərindən biridir. Azərbaycanda bu sazış Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 4 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir (9). Tranzit nəqliyyatı məsələlərinin monitorinqinin və koordinasiyasının həyata keçirilməsi üçün Tranzit Nəqliyyatı Əlaqələndirmə Şurası və onun hüquq, sığorta, dəmir yolu, avtoyol və tranzit ticarəti istiqamətləri üzrə alt komitələri yaradılmışdır. Tranzit Nəqliyyatı üzrə Koordinatorlar Şurasının ilk iclası 2006-cı il sentyabrın 25-də Bakı şəhərində keçirilmiş və iclasda saziş üzrə əlaqələndirmə həmin şuraya keçmişdir.

İƏT regionun əsas nəqliyyat xətləri olan Şimal–Cənub və Şərq–Qərb dəhlizlərinin inkişaf etdirilməsi üçün layihələr həyata keçirir. Bu layihələr çərçivəsində Azərbaycan Qəzvin–Rəşt–Astara dəmir yolu layihəsinin iştirakçısıdır. Layihə üzrə yüksəksəviyyəli işçi qrupunun ilk iclası 2013-cü il mayın 22-də Bakı şəhərində keçirilmişdir. Layihənin reallaşdırılması regionda ümumi dəmir yolu şəbəkəsinin

yaradılmasına, dəmir yolu xətlərinin modernləşdirilməsinə, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə və yaradılan dəmir yolu şəbəkəsinin Avropa və Yaxın Şərq dəmir yolu şəbəkələrinə birləşdirilməsinə imkan yaradacaqdır (19)

Hal-hazırda Azərbaycan bir sıra regional layihələrin fəal iştirakçısı kimi İƏT ilə əməkdaşlığın daha da inkişaf etdirilməsinə öz töhfəsini verməkdədir.

Bir sıra dövlətlərin vaxtilə "soyuq müharibə" dövründə iki siyasi-hərbi qütb arasında qarşıdurmaya cəlb edilməmələri üçün təsis etdiyi Qoşulmama Hərəkatı (QH) hazırda beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm çoxtərəfli mexanizmlərdən birinə çevrilmişdir. Əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etmək olan QH konkret tarixi kontekstdə yaranmasına baxmayaraq, müasir dünyada da öz aktuallığını itirmir və Hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından əhəmiyyətli rol oynayır. QH-nin yaradılmasının və fəaliyyətinin əsas prinsiplərindən biri onun üzvləri arasında əməkdaşlıq üçün bir forum rolunu oynamasıdır. Qoşulmama Hərəkatının hazırda 120 üzvü, 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı var.

Təşkilata üzv olan hər bir dövlət təşkilatın prinsiplərinə bağlılığını bildirməlidir. Təşkilata üzvlük prinsipləri hələ Təşkilatın təsis olunmasından əvvəl — 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən Konfrans zamanı qəbul edilmişdir. "Bandunq prinsipləri" aşağıdakılardır:

1. BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, eləcə də əsas insan hüquq və azadlıqlarına hörmət etmək;

2. Dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət etmək;

3. Sayından asılı olmayaraq bütün irqlərin və xalqların bərabərliyini tanımaq;

4. Digər dövlətlərin daxili işlərinə qarışmaqdan çəkinmək;

5. BMT Nizamnaməsi çərçivəsində hər bir dövlətin özünü fərdi və ya kollektiv şəkildə müdafiə etməsi hüququna hörmət etmək;

6. Böyük dövlətlərin hər hansı xüsusi maraqlarına xidmət etmək üçün kollektiv müdafiə tədbirlərinin istifadəsindən çəkinmək;

7. Digər dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı yönəlmiş hər hansı bir fəaliyyətdən, eləcə də güc tətbiq etməkdən və güc tətbiq etməklə hədələməkdən imtina etmək;

8. BMT Nizamnaməsinə uyğun olaraq bütün beynəlxalq mübahisələri dinc, sülh yolu ilə həll etmək;

9. Qarşılıqlı maraq və əməkdaşlığı təşviq etmək;

10. Ədalət və beynəlxalq öhdəliklərə hörmət etmək (63).

Öz xarici siyasətində heç bir hərbi alyansa qoşulmamaq istiqamətini seçmiş Azərbaycan Respublikası 2011-ci ildən Qoşulmama Hərəkatının üzvüdür.

Azərbaycan bütün dövlətlərlə əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə yönəlmiş xarici siyasət kursu və heç bir hərbi bloka qoşulmadan balanslı siyasət həyata keçirir. Bu səbəbdən Azərbaycan müşahidəçi statusuna malik olduğu Qoşulmama Hərəkatına 2011-ci ildə tamhüquqlu üzv olmaq qərarını verib. Həmin il Balidə keçirilmiş XVI Nazirlər Konfransında hərəkata qoşulub. Azərbaycanın ərazi bütövlüyü təşkilat çərçivəsində üzv dövlətlər tərəfindən birmənalı şəkildə tanınıb və haqlı mövqeyi beynəlxalq səviyyəli məsələlərdə daim dəstəklənib.

Göründüyü kimi, Azərbaycan bir sıra təşkilatlara üzv olmaqla yanaşı, onlarla yüksək səviyyədə əməkdaşlıq etməkdədir. Azərbaycan İsrail və İran ilə olan əməkdaşlığı ölkələr səviyyəsində daha yaxşı təşkil olunmuşdur. Səbəbi isə təşkilatlar səviyyəsində bəzi maraqların üst üstə düşməməsi qeyd edilə bilər.

## 2.3 Azərbaycanın İsrail və İran ilə əlaqələrinin perspektivləri

Məlumdur ki, Azərbaycan İsrail ilə sıx əməkdaşlıq etməkdədir. Hər bir sahədə davam edən əməkdaşlıq hər iki ölkəni bir birinə daha yaxınlaşdırır və gələcəyə olan inkişaf addımlarından xəbər verir. Cənubi Qafqaz regionunda qüdrət sahibi olan Azərbaycan Yaxın Şərq regionunda müttəfiqlərindən biri olan İsrail ilə münasibətlərin inkişafında maraqlıdır. Bu maraq isə iki məqamən nəzərə alınmasını zəruri edir.

1. İranla olan münasibətləri korlamamaq

2. İsrail ilə olan münasibətləri həm məzmun, həm də miqyas baxımından daha da genişləndirmək.

Azərbaycanın İsrail ilə olan münasibətləri İran tərəfindən hər zaman mənfi reaksiya ilə qarşılanmışdır. İran hökumət nümayəndələrinin bu münasibətlərə qarşı dəfələrlə sərt çıxışları demək olar hər gün mediada özünü göstərməkdədir. Buna qarşılıq olaraq, Azərbaycan hökumət nümayəndələri İrana bizim siyasi işlərimizə heç bir ölkənin qarışmamalı olduğunu və Azərbaycanın İsrail ilə əməkdaşlığının İrana qarşı yönəlmədiyi cavabını vermişdir. İran özünün İsrail ilə olan münasibətlərindən çıxış edərək, Azərbaycanın İsrail ilə münasibətlərinə mənfi yanaşır. O, əhalisinin çoxunun islam etiqadlı olan bir ölkə ilə İsrail arasında olan münasibətlərin səhv və dinə qarşı olduğunu vurğulayır. İran bir şeyi unudur ki, 44 günlük müharibəyə qədər davam etməkdə olan Ermənistanın Azərbaycan torpaqlarını işğalına qəti şəkildə heç bir zaman ciddi reaksiya bildirməmişdir. Bunun əksinə olaraq İran hər zaman Ermənistanı dəstəkləmişdir.

Təsadüfi deyildir ki, 44 günlük müharibə zamanı belə, İran Ermənistanı dəstəkləmişdir. Həmin zaman İran tərəfi Ermənistan həm hərbi həm də humanitar yardım etməkdə idi (112). İslam amilini piroritet kimi təqdim edən İranın Ermənistanın təcavüzünə dəstəyi heç də birmənalı deyil.

Azərbaycan və İsrail arasında olan münasibətlər hər bir sahədə ayrı ayrılıqda yüksək səviyyədə inkişaf edir. Bu sahələrə və inkişafın təfsilatlarına nəzər salınsa bu istiqamətləri görmək mümkündür:

Azərbaycan və İsrail arasında ümumi əməkdaşlıq fonunda inkişaf hərb sahəsi edir. 2012-ci ildən güclənən hərbi əməkdaşlıq özünü müxtəlif hərbi texnika və avadanlıqları sahələrində də cəmləşdirmişdir.

Azərbaycan arsenalında İsrail istehsalı olan silahlardan 12.7 mm NSV pulemyotlu SandCat-Stormer zirehli maşınları, SPIKE-ER, NLOS, LAHAT tank əleyhinə idarə olunan raketləri, 120 mm SPEAR minaatanları, çoxsaylı Pilotsuz uçuş aparatları:Orbiter-1KM, Orbiter-2B, Orbiter-3B, Orbiter-4, Aerostar-BP, Heron, Hermes-450, Hermes-900 və Harop vardır (34).

Azərbaycana Dəmir Qübbə hava hücumundan müdafiə sistemlərinin satışı da iki ölkənin maraq dairəsindədir. Azərbaycanın belə bir sistemə sahib olması onun hərbi qüdrətini artıracaqdır. Bununla yanaşı, havadan hər hansı bir hücum olacaqğı təqdirdə belə bir sistem vasitəsilə qətiyyətli şəkildə qorunmaq mümkündür.

Azərbaycan və İsrail arasında iqtisadi münasibətlər bir müsbət istiqamətdə inkişaf etməkdədir. Azərbaycan neftinin əsas idxalçılarından olan İsrail Azərbaycanın əsas enerji tərəfdaşlarından biridir. İsrailli şirkətlərin SOCAR-la birgə iş görmək istəyi hər zaman hər iki ölkənin gündəmində olmuşdur. İsrail istifadə etdiyi xam neftin neftin 40%-ini Azərbaycandan əldə edir. Azərbaycan və İsrail arasında enerji sahəsi üzrə əlaqələrin yüksək səviyyədə olması bu sahə üzrə gələcək tərəfdaşlığı da özündə ehtiva edir.

İsrail Yaxın Şərqin bəzi ərəb ölkələri ilə "İbrahim sazişləri"ni imzaladıqdan sonra İsrail və BƏƏ arasında neft sahəsi üzrə əməkdaşlığın yaranması gözlənilir. İki ölkə arasında enerji sahəsində əməkdaşlığın mümkünlüyü dünya mediası tərəfindən güclü şəkildə təbliğ edilir (104). Belə bir halın olması Azərbaycanla İsrail arasında olan neft tərəfdaşlığının faiz göstəricisini azalda və ya tamamilə ləğv edə bilərdi.

İsrailin Ekologiya nazirliyinin açıqlamasından sonra: "İsrail bu nefti alacağı və digər ölkələrə ixrac edəcəyi təqdirdə dənizdə çirklənmə baş verəcəkdir. Belə bir halın olması eklolоji sabitliyi pozacaq və ekoloji riskin süni şəkildə yaradılmasına səbəb olacaqdır". Məsələnin ləğv olmasının əsas ekoloji çirklənmə səviyyəsinin yüksək olması idi. Nazirliyi qeydinə görə, bu proses Qırmızı Dənizi çirkləndirəcək və bu ekoloji gərginliyi də özü ilə gətirəcək. BƏƏ ilə olan neft kontraktı məsələsi diqqətdən kənarda qaldı (104). BƏƏ nefti təkcə İsrail üçün nəzərdə tutulmamışdı. İsraildən keçən boru kəmərləri vasitəsi ilə Avropaya nəql olunacaq kəmər iqtisadi imkanlara da şərait yarada bilərdi.

Proseslərin belə gedişi diqqəti yenə də Azərbaycan neftinə yönəltdi ki, bu da Azərbaycan tərəfinə sərf edən bir məsələ idi. Azərbaycan əsas neft idxalçısı olan İsraillə bu istiqamətdə olan əməkdaşlığını azaltmaq istəmir.

Azərbaycan qeyri-neft məhsulları ilə ticarət sahsində də İsrail ilə olan əlaqələrinə diqqət yetirməkdədir. Xarici ticarət döriyyəsində enerji sahəsindən əlavə məhuslların olması ikitərəfli ticarət münasibətlərində müstəsna rol oynayır.

İki ölkə arasında turizm sahəsi də perspektivi olan sahlərdəndir. Azərbaycanın İsraildə 2022-ci ildə fəaliyyətə başlayan Turizm nümayəndəliyi bu sahənin də perspektivliyin xəbər verir. Turizm sahəsinin inkişafı vasitəsi ilə ölkəyə gələcək yəhudilərin sayı daha da artacaq. Yəhudilər hər zaman Qafqazın Yerusəlimi adlandırdıqları Qubada olan Qırmızı Qəsəbəni ziyarət edirlər. Yəhudilərin bir qismini qəsəbə sakinləri ilə qohumluq əlaqələri bağlasa da, digərlərini bura yəhudilərin dinc şəraitdə yaşayıb yaratdıqları bir məskən olaraq cəlb edir.

Turizm nümayəndəliyi bir növ Azərbaycandan İsrailə gedən vətəndaşların da asanlıqla səyahət etməsi və onlara bəzi məsələlərdə dəstək olnuması üçün də faydalı olacaqdır.

İsrail kənd təsərrüfatı və aqrar sahə üzrə ixtisaslaşmış qabaqcıl dünya ölkələrindəndir. Ölkədə tətbiq edilən damcılı suvarma sistemləri onun necə inkişaf etmiş bir texnologiyaya malik olduğunu göstərir.

Azərbaycan İsrail ilə həm kənd təsərrüfatı, həm də aqrotexnika sahələrində əməkdaşlıq etməkdədir. Müqvafiq olaraq nazirliklərin birgə əməkdaşlığı ilə Azərbaycan kənd təsərrüfatı sahəsinə İsraildən olan mütəxəssislər cəlb edilir. Qarabağ bölgəsinin kənd təsərrüfatı cəhətdən gələcək inkişaf potensialı nəzərə alınaraq İsrailli mütəxəsislərlə burada iş görmək planlaşdırılır.

Qarabağ bölgəsində tikinti fəaliyyəti ilə məşğul olmaq istəyən İsrailli şirkətlər vardır ki, ölkə rəhbərliyi tərəfindən onların həmin ərazilərdə fəaliyyət göstərmələrinə, tikinti və bərpa işlərində kömək etmələrinə şərait yaradılacaqdır.

2022-ci ildə Azərbaycan və İsrail arasında diplomatik münasibətlərinin qurulmasının 30 illiyi tamam olur. Bu illər ərzində hər iki ölkə arasında əməkdaşlıq davamlı inkişaf etmiş və mövcud əlaqələrin gücləndirilməsi istiqamətində əhəmiyyətliaddımlar atılır.

İki ölkə arasında ticarətin həcmi 2021-ci ildə əvvəllki ilə nisbətən 2 dəfəyə yaxın, 2022-ci ilin yanvar-fevral aylarında isə əvvəlki ilin müvafiq dövrü ilə

müqayisədə 6 dəfə artıb. Hazırda Azərbaycanda xidmət, sənaye, ticarət, kənd təsərrüfatı və tikinti sahələri üzrə 90-dan çox İsrail şirkəti fəaliyyət göstərir (15). İsraildə fəaliyyət göstərən Azərbaycanın Ticarət və Turizm nümayəndəlikləri iqtisadi-ticarət münasibətlərinin inkişafına töhfə verir. Perspektivdə, yeni fəaliyyətə başlayan ticarət və turizm palatası iqtisadi sahədə əməkdaşlıq üçün imkanlar yaradır.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və İsrailin "Rayzone" şirkəti arasında "big data" platformasının hazırlanması və idarə olunmasına dair layihə ilə bağlı memorandum, həmçinin "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC ilə İsrailin "Mekorot" şirkəti arasında konsultasiya xidmətlərinin göstərilməsi barədə müqavilə imzalayıblar (56).

Kənd təsərrüfatı sahəsinə aid olan bu müqavilə Azərbaycanın kənd təsərrüfatı sahəsində inkişafı ilə yanaşı, İsrail ilə bu sahədə aparılacaq olan əməkdaşlığın perspektivlərini özündəehtiva edir.

2022-cil mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Forer ilə görüş zamanı Azərbaycanla İsrail arasında iqtisadi əlaqələrin vəziyyəti kənd təsərrüfatı sahəsində həyata keçirilən əməkdaşlığın perspektivləri, İsrailin müasir texnologiyalarının Azərbaycanın kənd təsərrüfatında tətbiqi ilə bağlı məsələlər müzakirə olunub (10).

Azərbaycanın Aran zonasındakənd təsərrüfatını inkişaf etdirmək, həmçinin Qarabağ bölgəsində kənd təsərrüfatını dirçəltmək, hal-hazırda qlobal məsələ olan qida təhlükəsizliyi sahəsini ciddi nəzarətdə saxlamaq üçün İsrail ilə aqrar sahədə əməkdaşlıq planlaşdırılır.

Azərbaycanın İsrail ilə münasibətlərinin mövcud vəziyyəti onların müsbət gələcək perspektivlərindən xəbər verir. Hər iki ölkənin maraqları onlar arasında olan münasibətlərin inkişaf etməsinə yönəlmişdir.

Azərbaycan və İran arasında münasibətlər müsbət dinamikada müşahidə olunur.

2016-cı ildə Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının

və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında saziş imzalanmışdır (6).

Sazişə əsasən, Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi və istismarı ilə əlaqədar birgə fəaliyyət göstərilməsi məqsədi ilə Birgə Texniki Komissiya yaradılıb. Bu komissiyanın fəaliyyəti üzrə Azərbaycan tərəfindən səlahiyyətli orqan Azərbaycan Respublikasının Energetika Nazirliyi müəyyən edilib. Birgə Texniki Komissiyaya həvalə edilmiş tapşırıqların icrası məqsədilə işçi qrupları yaradılıb və müvafiq istiqamətlər üzrə işlər davam etdirilməkdədir.

Araz çayı üzərindəki “Xudafərin” SES-in ümumi gücü 200 meqavat (100 meqavat Azərbaycan tərəfinin payına düşür), “Qız Qalası” SES-in ümumi gücü isə 80 meqavatdır (40 meqavat Azərbaycan tərəfinin payına düşür); Hər iki SES-də ildə ümumilikdə 716 milyon kilovat/saat (358 milyon kilovat-saat Azərbaycan tərəfinin payına düşür) elektrik enerjisi istehsalı planlaşdırılır. Eyni zamanda, hidroqovşaqların istismara verilməsi nəticəsində Azərbaycan tərəfində 252 min hektar mövcud, 12 min hektar isə yeni kənd təsərrüfatı təyinatlı torpaqların suvarma suyu ilə təminatı nəzərdə tutulur (59).

İki ölkə arasında enerji sahəsində olan əlaqənin də perspektivlərimövcuddur. Gələcəkdə Qarabağda elektrik stansiyalarının tikintisi də İran şirkətlərinin iştirakı nəzərdə tutulur. Qarabağda istehsal ediləcək elektrik enerjisi İran vasitəsilə Naxçıvana, Türkiyəyə, Avropa ölkələrinə ixrac ediləcək (59).

Azərbaycanın İran ilə əlaqələrinin inkişaf perspektivləri iqtisadi cəhətdən önəm daşıyır. Ticarət dövriyyəsinin artması ilə iqtisadi əlaqələrin normal səviyyədə saxalanılması və inkişaf etdirilməsi üçün əhəmiyyətlidir.

Şimal və Cənub nəqliyyat dəhlizi layihəsində Azərbaycan və İran iştirakçı ölkələrdir. Azərbaycanın İranla əməkdaşlığı çərçivəsində hər iki ölkənin əraizisindən keçən olan dəmir yolları vasitəsilə uzaq məsafələrə yüklərin daşınması həyata keçirilir və bu sahədə əməkdaşlığı genişləndirmək üçün əlavə imkanlar mövcuddur.

2022-ci il mayın 18-19 tarixlərində Tehranda Azərbaycan Respublikasının baş nazirin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətinin İran İslam

Respublikasına səfəri çərçivəsində “Azərbaycan Dəmir Yolları” QSC (ADY) və İran İslam Respublikasının Dəmir Yolları (RAI) rəhbərliyi arasında görüş keçirilib. Görüşdə Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizinin inkişaf perspektivləri, dəhlizin tərkib hissəsi olan Rəşt-Astara xəttinin tikintisi müzakirə edilib. Bununla yanaşı, İran İslam Respublikasının Astara şəhərində yük terminalının tikintisi ilə bağlı mövcud vəziyyət və bu sahədə işlərin sürətləndirilməsi barədə fikir mübadiləsi aparılıb (19).

Nəqliyyat sahəsində iki ölkə arasında olan əməkdaşlıq gələcəkdə digər dəmir yolları xətlərində də birgə fəaliyyətitəmin edə bilər.

2021-ci il noyabrın 28-də İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Aşqabadda keçirilən 15-ci Sammitində İran, Azərbaycan və Türkmənistan arasında qaz mübadiləsinə dair üçtərəfli saziş imzalanıb. Sazişə əsasən, Türkmənistandan İran vasitəsilə Azərbaycana ildə 1,5-2 milyard kubmetrədək qaz göndəriləcək (9).

Enerji sahəsində Azərbaycan və İran arasında Türkmənistan vasitəsi ilə yaranan əməkdaşlıq ölkələrarası münasibətlərin bu istiqamətdə də geniş perspektivlərə malik olduğunu göstərir. Gələcəkdə bu xətt Türkmənistanın Avropa ölkələrinə qaz ixracını da reallaşdıra bilər.

İqtisadi Əməkdaşlıq Təşkilatının həmin görüşü çərçivəsində Azərbaycan və İran dövlət başçıları Şimal-Cənub nəqliyyat dəhlizi, həmçinin Zəngəzur nəqliyyat dəhlizi ilə bağlı əməkdaşlıq məsələlərini də müzakirə ediblər. Zəngəzur dəhlizinin reallaşması nəticəsində İranın da bundan faydalanacağı və bu nəqliyyat qovşağından istifadə edə biləcəyi vurğulanıb (59).

2022-ci ilin martında Azərbaycan və İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Milli Komitənin 15-ci iclası çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında əlaqələrin genişləndirilməsinə dair anlaşma memorandumu imzalanıb (32).

Bu memorandumun imzalanmasında məqsəd İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur İqtisadi Rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir yolu, avtomobil yolları, rabitə və enerji xətlərinin yaradılmasıdır. Bu məqsədə çatmaq üçün Araz çayı üzərində

ümumilikdə dörd körpü tikmək planlaşdırırılır. Buraya iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu, həmçinin rabitə və enerji təchizatı infrastrukturu daxildir.

Azərbaycanın İsrail və İran ilə olan xarici ticarət əlaqələrinin statistikası bu ölkələrlə iqtisadi-ticarət əlaqələrini aydınlaşdırmağa imkan verir: Statistika 2021-ci ili və 2022-ci ilin birinci rübünü əhatə edir (13) (14)

2021-ci ildə Azərbaycanın İsrail və İran ilə qarşılıqlı ticarəti(ABŞ dolları)(cədvəl 1)

| Ölkələr | İxrac | İdxal | Dövriyyə |
|---|---|---|---|
| İsrail | 898.096,98 | 30.305,78 | 928.402,76 |
| İran | 43.287,15 | 397.523,54 | 440.810,69 |

Cədvəldən göründüyü kimi, İsrailin Azərbaycanla ticarət dövriyyəsi Azərbaycan-İran qarşılıqlı ticarət dövriyyəsindən təxminən 2 dəfə çoxdur.

2022-ci ilin birinci rübündə Azərbaycanın İsrail və İranla qarşılıqlı ticarəti(ABŞ dolları)(cədvəl 2)

| Ölkələr | İxrac | İdxal | Dövriyyə |
|---|---|---|---|
| İsrail | 330.456,22 | 7.602,32 | 338.058,54 |
| İran | 8.442,54 | 113.880,85 | 122.323,39 |

Yuxarıdakı cədvəllərin materillarını təhlil edərək, qeyd etmək olar ki, Azərbaycanın İsrail və İran ilə xarici ticarət əlaqələrində israilin üstünlüyü saxlanılmışdır.

Bütün qeyd olunanlara əsasən belə nəticəyə gəlmək olar ki, Azərbaycanın həm İsrail, həm də İran ilə əlaqələrinin potensialı genişdir. Hər iki ölkə ilə əməkdaşlığın genişləndirilməsi Azərbaycanın maraqlarına uyğundur. İsrail və İran arasında problem

olmasına baxmayaraq, Azərbaycanın yürütdüyü siyasət hər iki ölkə ilə rasional münasibətlərin saxlanılmasına və inkişaf etdirilməsinə istiqamətlənmişdir.

# NƏTİCƏ

Azərbaycanın xarici siyasətinin əsasını dostluq və tərəfdaşlıq təşkil edir. Məhz bu səbəbdən Azərbaycan hər bir ölkə ilə milli maraqlarının qorunduğu çərçivədə əlaqələr saxlamaqdadır.

Azərbaycan Yaxın Şərq regionunda bir-birinə rəqib olan İsrail və İran ilə qarşılıqlı münasibətlərə malikdir. Həm Azərbaycan-İsrail, həm də Azərbaycan-İran münasibətlərinin təşəkkül tapıb inkişaf etməsi Azərbaycanın xarici siyasətinin əsas göstəricilərindən və uğurlarından hesab olunur.

Qeyd etmək olar ki, Azərbaycanın balanslı xarici siyasət kursu hər iki ölkə ilə olan münasibətlərini tənzimləməyə imkan verir. O, bu ölkələrlə münasibətlərini yüksək səviyyədə, həmçinin qarşılıqlı maraq və aşkarlıq əsas götürərək inkişaf etdirir.

İsrail və İran arasında olan gərgin münasibətlərdə Azərbaycan bitərəf mövqe səegiləməyə çalışır. Eyni zamanda, bu ölkələrlərlə əməkdaşlıq edərkən qarşılıqlı maraqları nəzərə alır.

Azərbaycanın həm İsrail, həm də İran ilə münasibətlərinin tarixi kökləri mövcuddur. Yəhudilərin Azərbaycanda yaşaması, həmçininn İran ilə ortaq tarixə malik olması tarixilikdən xəbər verir. Azərbaycanın İsrail və İran ilə tarixi əlaqələri onun hazırda da həmin ölkələr ilə münasibətlərinə yol açan amillərdəndir. Tarixi məsələl ər bir daha Azərbaycanın tolerant mühit formalaşdıraraq rasional addımlar atdığını göstərir.

Müasir beynəlxalq münasibətlər sistemində İsrail və İran müəyyən gücə malikdirlər. Siyasi təsiretmə gücünə malik olmaqları onları bu mövqeyə gətirmişdir. Hər iki ölkə ayrı-ayrılıqda siyasi, iqtisadi, mədəni sahələrdə dünya siyasətində özünəməxsus yer tutur. Olduqları regionda bir-biri ilə üstünlük uğrunda mübarizə aparırlar.

İsrail və İranın Cənubi Qafqaz maraqları mövcuddur. İsrail özünün yerləşdiyi regiondan kənarda olan bir müsəlman ölkəsi ilə tərəfdaşlıq edərək, qarşılıqlı maraqları inkişaf etdirmək istəyir. İran ərazi cəhətdən yaxın olduğu Cənubi Qafqaz regionunda

Azərbaycanla əlaqələri genişləndirməldə maraqlıdır. Ümumilikdə Azərbaycan iki ölkə ilə əməkdaşlığa xüsusi əhəmiyyət verir.

Azərbaycanın İsrail və İran ilə siyasi əlaqələri mövcuddur, bu əlaqələri davam və inkişaf etdirməkdə maraqlıdır. Azərbaycanın öz növbəsində, qeyd olunan ölkələrlə münasibətləri daha da genişləndirmək məqsədilə rasional addımla atır.

Azərbaycan bir sıra beynəlxalq və regional təşkilatların üzvüdür və həmin təşkilatlarla yüksək səviyyədə əməkdaşlıq edir. Azərbaycanın İsrail və İran ilə olan ikitərəfli səviyyədə daha çox inkişaf etsə də, bu sahədə mövcud olan imkanlardan da istifadə olunur.

Azərbaycanın həm İsrail, həm də İran ilə əlaqələrinin potensialı genişdir. Hər iki ölkə ilə müxtəlif sahələrdə mövcud olan əməkdaşlığın genişləndirmək Azərbaycanın maraqlarına uyğundur. İsrail və İran arasında problemlərin olmasına baxmayaraq, Azərbaycanın yürütdüyü siyasət bu ölkələrlə rasional münasibətlərin saxlanılmasına və inkişaf etdirilməsinə istiqamətlənmişdir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində**

1. Aktauda Xəzəryanı dövlətlərin başçıları Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı imzalayıblar https://president.az/az/articles/view/29674

2. Aslanlı A. Geosiyasi rəqabət və geoiqtisadi maraqlar zəminində Xəzər Hövzəsinin Qordi Düyünü Xəzərin statusu və Transxəzər əməkdaşlığı kontekstində İran-Azərbaycan münasibətləri, Konrad-Adenauer-Stiftung, 2014

3. Azərbaycan – İslam Əməkdaşlıq Təşkilatı https://azerbaijan.az

4. Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Məhəmməd Xatəminin birgə mətbuat konfransı. /05.08.2004/ - http://archive.president.az/articles.php?item_id=20070814040046829&sec_id=13

5. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi // Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası // Hesabat dövrü: 01.01.2021–31.07.2021 //https://customs.gov.az/uploads/foreign/2021/2021_7.pdf?v=1640607719

6. Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində “Xudafərin” və “Qız qalası” SES-lərinin tikintisi 2024-cü ilədək yekunlaşacaq https://report.az/energetika/xudaferin-ve-qiz-qalasi-ses-lerinin-tikintisi-2024-cu-iledek-yekunlasacaq/

7. Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq

haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu https://president.az/az/articles/view/20566

8. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında imzalanmış sənədlərin siyahısı- https://www.history.az/pdf.php?item_id=20100106030411237&ext=pdf

9. Azərbaycan Respublikası xarici İşlər Nazirliyi, Azərbaycan – İqtisadi Əməkdaşlıq Təşkilatı münasibətləri https://mfa.gov.az/az/category/beynelxalq-teskilatlar

10. Azərbaycan Respublikası xarici İşlər Nazirliyi,Azərbaycan - Birləşmiş Millətlər Təşkilatı münasibətləri https://mfa.gov.az/az/category/beynelxalq-teskilatlar

11. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi-Azərbaycanın demoqrafik göstəriciləri-Bakı 2021

12. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi-Beynəlxalq Əlaqələr-Xarici Ticarət https://www.economy.gov.az/az/page/beynelxalq-elaqeler/xarici-ticaret

13. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycan-İran münasibətləri"// https://www.mfa.gov.az/az/category/asiya-ve-okeaniya/iran

14. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycan-İran münasibətləri"// https://www.mfa.gov.az/az/category/asiya-ve-okeaniya/iran

15. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycan-İsrail münasibətləri" // https://www.mfa.gov.az/az/category/asiya-ve-okeaniya/israil

16. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) /məqalələr toplusu/. Bakı: "Poliart" MMC, 2017, 904 s.

17. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri http://www.supremecourt.gov.az/static/view/5

18. Azərbaycan və İqtisadi Əməkdaşlıq Təşkilatı /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /16.09.2013/ - http://www.mfa.gov.az/content/752

19. Azərbaycan və İran Rəşt-Astara dəmir yolu xəttinin tikintisini müzakirə edib https://report.az/infrastruktur/azerbaycan-ve-iran-rest-astara-demir-yolu-xettinin-tikintisini-muzakire-edib/

20. Azərbaycan və İsrail arasında sənədlər imzalanıb https://azertag.az/xeber/Azerbaycan_ve_Israil_arasinda_senedler_imzalanib-2080580

21. Azərbaycan Yəhudi Media Mərkəzi yaradılıb-https://report.az/media-xeber/azerbaycan-yehudi-media-merkezi-yaradilib/

22. Azərbaycanın müdafiə naziri İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşüb // https://mod.gov.az/az/news/azerbaycanin-mudafie-naziri-iran-silahli-quvvelerinin-bas-qerargah-reisi-ile-gorusub-39100.html

23. Azərbaycanın xarici ticarəti-Ölkələr üzrə ixrac-İran https://www.stat.gov.az/source/trade/

24. Azərbaycanın xarici ticarəti-Ölkələr üzrə ixrac-İsrail https://www.stat.gov.az/source/trade/

25. Azərbaycan–İqtisadi Əməkdaşlıq Təşkilatı https://azerbaijan.az/related-information/203

26. Azərbaycan–İran əlaqələri: regional və qlobal kontekst /27.11.2014/. - http://newtimes.az/az/ relations/conflicts/3188/

27. Azərbaycan-İran əlaqələrinin inkişafı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatacağından xəbər verir https://azertag.az/xeber/Azerbaycan_Iran_elaqelerinin_inkisafi_munasibetlerin_strateji_terefdasliq_seviyyesine_chatacagindan_xeber_verir-2132615

28. Azərbaycan-İran münasibətləri dərin tarixi köklərə malikdir, Paralel, №105.-S.13, 13 iyun, 2018

29. Azərbaycan-İran münasibətləri İnkişaf edir-https://meclis.gov.az/news.php?id=649&lang=az

30. Azərbaycan-İsrail sənədləri imzalanıb- https://president.az/az/articles/view/22034

31. Bakıda Azərbaycan-İran Dövlət Komissiyasının iclası keçirilib https://apa.az/az/infrastruktur/bakida-azerbaycan-iran-dovlet-komissiyasinin-iclasi-kecirilib-yenilenib-foto-691899

32. Bakıda Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının 15-ci iclası keçirilib- https://mincom.gov.az/az/view/news/1452

33. Bakıda İran kino həftəsi, Dünən “Azərbaycan” kinoteatrında açılış mərasimi keçirilib, Yeni Azərbaycan, S. 8,19 fevral 2008

34. Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib, Əsgər qəzeti, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti, № 23, 589 15 dekabr 2020

35. Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi- Qeyri-İslam dini icmaları https://scwra.gov.az/upload/editor/files

36. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, “Azərbaycan” nəşriyyatı, 2005. 631 s.

37. İlham Əiyev “Xabad-Or-Avner” təhsil mərkəzinin açılışında iştirak etmişdir-https://president.az/az/articles/view/828

38. İlham Əliyev Davosda İsrail Prezidenti Şimon Peres ilə görüşmüşdür-https://president.az/az/articles/view/7140

39. İlham Əliyev öz çıxışında bildirib https://www.ias.co.il?p=118143

40. İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycan-İran biznes forumunda iştirak ediblər// https://president.az/az/articles/view/13398

41. İlham Əliyev Zirvə toplantısında iştirak edib https://president.az/az/articles/view/26317

42. İlham Əliyevin İran Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olub // https://president.az/az/articles/view/54436

43. İran, Azərbaycan və Türkmənistan arasında qaz mübadiləsi sazişi imzalanıb https://report.az/energetika/iran-azerbaycan-ve-turkmenistan-arasinda-qaz-mubadilesi-sazisi-imzalanib/

44. İslam zirvə görüşünün siyasi məsələlər, müsəlman camaatlar və azlıqlar, hüquqi məsələlər, media ilə bağlı qətnamələri. Tehran, İran. - http://www.oic-oci.org/arabic/conf/is/8/8th-is-political.html

45. İsrail səfiri: BMT-də Holokostla bağlı qətnamənin qəbulunda verdiyi dəstəyə görə Azərbaycana minnətdarıq https://report.az/xarici-siyaset/israil-sefiri-bmt-de-holokostla-bagli-qetnamenin-qebulunda-verdiyi-desteye-gore-azerbaycana-minnetdariq/

46. İsrail və Azərbaycan strateji plan hazırlayacaqlarhttps://news.milli.az/politics/1043514.html

47. İsraildə Azərbaycanın Ticarət və Turizm nümayəndəlikləri açılıb- https://www.taxes.gov.az/az/post/1490

48. İsraildə Azərbaycanın turizm nümayəndəliyinin Təl-Əviv ofisinin açılışı baş tutub-https://tourism.gov.az/news/israilde-azerbaycanin-turizm-numayendeliyinin-tel-eviv-ofisinin-achilishi-bash-tutub

49. İsrailin Baş naziri Benyamin Netanyahu "Xabad-Or-Avner" Təhsil Mərkəzində olub-https://edu.gov.az/az/news-and-updates/13355

50. İsraillə iqtisadi-ticarət əlaqələri müzakirə olunub https://www.taxes.gov.az/az/post/1852

51. Manafova M. Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri Azərbaycan Respublikası Təhsil Tazirliyi-Azərbaycan Dövlət mədəniyyət və İncəsənət Universiteti -Bakı 2008 s36, 10

52. Məmmədov Q. Xordad hadisələri və ya Milli Qiyam günü nəyə görə olmuşdu? Bakı, 2018 // https://milliyyet.info/tarix/xordad/

53. Neft Azərbaycana sülh, sabitlik gətirəcəkdir – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ-ın En-Bi-Si telekanalına müsahibəsi /07.06.2006/ - http://azertag.az/print/347435

54. Qanunçuluq Hüquq Jurnalı-Azərbaycan Respublikası Ədliyyə Nazirliyyinin orqanı-Azərbaycan-İran əlaqələri bütün sahələrdə uğurla inkişaf edir- No.3-Mart 2018 s5

55. Qarabağda istehsal edilən elektrik enerjisi İran vasitəsilə ixrac olunacaq https://azertag.az/xeber/Qarabagda_istehsal_edilen_elektrik_enerjisi_Iran_vasitesile_ixrac_olunacaq-2141579

56. Təl-Əvivdə İsrail-Azərbaycan Kənd Təsərrüfatı Biznes Forumu keçirilib-https://www.agro.gov.az/az/news/tel-evivde-israil-azerbaycan-kend-teserruefati-biznes-forumu-kecirilib

57. Xəzərin hüquqi statusu: Aktau sammitinin tarixi və geosiyasi özəllikləri https://azertag.az/xeber/Xezerin_huquqi_statusu_Aktau_sammitinin_tarixi_ve_geosiyasi_ozellikleri-1187527

58. Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi daha geniş tanınması, İki sahil, № 37-28, fevral, 2017, S.6, 8-9

59. Xudafərin və Qız Qalası SES-lərinin tikintisi davam etdirilir https://apa.az/az/senaye-ve-energetika/xudaferin-ve-qiz-qalasi-ses-lerinin-tikintisi-davam-etdirilir-foto-698286

**İngilis dilində**

60. After Cambridge Ancient History , Vol. 4, Second Edition, 1988.

61. Arms transfers to conflict zones: The case of Nagorno-Karabakh // https://www.sipri.org/commentary/topical-backgrounder/2021/arms-transfers-conflict-zones-case-nagorno-karabakh

62. Azerbaijan arrests 22 over terror plot against US, Israel embassy // https://www.ynetnews.com/articles/0,7340,L-4202927,00.html

63. Bandung Prıncıples https://bandungspirit.org/spip.php?article99

64. Book of Ester https://ebible.org/pdf/eng-kjv/eng-kjv_EST.pdf

65. Bourtman. İ Israel and Azerbaijan's Furtive Embrace, Middle East Quarterly, Vol. 13, No. 3, Summer 2006, pp. 47-57

66. Excellent relations with Jewish community and Israel, Azerbaijan's president tells WJC delegation-https://www.worldjewishcongress.org/en/news/excellent-relations-with-jewish-community-and-israel-azerbaijans-president-tells-wjc-delegation-9-2-2016

67. Europen Comission-Trade-Policy-Coutries and regions-Israel-https://ec.europa.eu/trade/policy/countries-and-regions/countries/israel/

68. EU trade relations with Iran. Facts, figures and latest developments-https://policy.trade.ec.europa.eu/eu-trade-relationships-country-and-region/countries-and-regions/iran_en#:~:text=In%202020%2C%20Iran%20was%20the,with%20the%20world%20in%202020

69. Feder R. China and Israel in the Belt and Road Initiative, 2018

70. Goldman Y. Israel to sell weapons to Azerbaijan// https://www.timesofisrael.com/israel-to-sell-weapons-to-azerbaijan/

71. United States Trade Representative-Countries & Regions-Europe & Middle East-Middle East/North Africa-Israel-https://ustr.gov/countries-regions/europe-middle-east/middle-eastnorth-africa/israel

72. Gretz. G. History of the Jewish.Odessa, bg red., c.4, s.259-260, 273

73. Hunter S. Iran's Foreign Policy in the Post-Soviet Era: Resisting the New International Order. 2010, p.316

74. Iran expresses support for Azerbaijan's territorial integrity. / November 10, 2014/ - http://www.azernews.az/azerbaijan/73026.html; Iran supports Azerbaijan`s territorial integrity. /April 21, 2015/ - http://www.azernews.az/azerbaijan/80744.html

75. Israel and EU ink agreement on fighting organized crime, cybercrime, terrorism-https://www.timesofisrael.com/israel-and-eu-ink-agreement-on-fighting-organized-crime/

76. İsrael Foreign Ministry of Affairs // President Shimon Peres in Azerbaijan and Kazakhstan for historic first visit // https://mfa.gov.il/mfa/pressroom/2009/pages/president_peres_visits_azerbaijan_and_kazakhstan_28_jun_2009.aspx

77. Israel: External Affairs, in Jane's Sentinel: Eastern Mediterranean 2007. Jane's Information Group, 2007

78. Israel among the nations:United1Nations https://embassies.gov.il/london/AboutIsrael/Amongthenations/Pages/ISRAEL%20AMONG%20THE%20NATIONS-%20United%20Nations.aspx

79. Israel and China ink1$4001million1trade1agreement https://www.timesofisrael.com/israel-andchina-ink-400-million-trade-agreement

80. Lomsadze G. Azerbaijan: Pop Music vs. Islam // https://eurasianet.org/azerbaijan-pop-music-vs-islam

81. Moisey B. Interethnic dialogue in the context of the political experience of the Azerbaijan Democratic Republic of 1918-1920, İRS Heritage, № 33,2018

82. Monitoring of Russia and Ukraine (priority 1) and Moldova, Belarus, Armenia, Georgia, Kazaksthan and Azerbaijan (priority 2) - telecommunications and the Information Society. 4th report-December 2006

83. Murinson A. The Ties Between Israel and Azerbaijan, Begin-Sadat Center for Strategic Studies Bar-Ilan University. 2014, Mideast Security and Policy Studies No. 110

84. Organisation of Islamic Cooperation History https://www.oic-oci.org/page/?p_id=52&p_ref=26&lan=en

85. PM Netanyahu meets with Chinese President Xi Jinping 09.05.2013, https://mfa.gov.il/MFA/PressRoom/2013/Pages/PM-Netanyahu-meetsChinese

86. Rubruck W. The journey of William of Rubruck to the eastern parts of the world, Cambridge press, No. IV. p. 254

87. Taagepera R. Size and Duration of Empires: Growth-Decline Curves, 600 B.C. to 600 A.D. Social Science History, 1979. 3 (3/4) pp. 115-138

88. U.S.-Israel Joint Training on the Increase, Missile Defense Cooperation Accelerates-https://jinsa.org/archive_post/u-s-israel-joint-training-on-the-increase-missile-defense-cooperation-accelerates/

89. UN General Assembly adopts resolution reaffirming territorial integrity of Azerbaijan, demanding withdrawal of all Armenian forces, General Assembly official records GA/10693,14 March 2008

90. Video footages spread regarding weapons and military equipment transport from Iran to Armenia // https://apa.az/en/nagorno_garabagh/Video-footages-spread-regarding-weapons-and-military-equipment-transport-from-Iran-to-Armenia-colorredNEW-FACTScolor-colorredVIDEOcolor-331624

91. Yellinek R. Georgia’s Relations with Israel and the US, BESA Center Perspectives Paper No. 1,588, May 29, 2020 https://besacenter.org/georgia-relations-israel-us/

**Rus dilində**

92. Беккер М. Евреи Азербайджана: история и современность, Ozan, Баку- 2000 с-5

93. Гумилев Л.Н. Сказание о хазарской дани // Русская литература, 1974, № 3. с. 160—174

94. Калинина Т.М. Аль-Масуди о булгарах. В кн.: Международные связи, торговые пути и города Среднего Поволжья IX—X вв. Материалы международного симпозиума. Казань, 8—10 сентября 1998 г. Казань, 1999. С. 13—20

95. Коковцев П.К. Еврейско-хазарская переписка в X веке. Л., 1932 с, 99

96. Солодухо Ю.А. Движение Маздака и восстание еврейского населения, Вестник древней истории, 1940, № 3—4. С. 131—145.

97. Чернявский С. Десять лет истории Азербайджана: 2003-2013 годы, с.290

98. ЭЕЭ: Электронная еврейская энциклопедия ОРТ-Азербайджан https://eleven.co.il/diaspora/regions-and-countries/10098/

99. ЭЕЭ: Электронная еврейская энциклопедия ОРТ-Горские евреи-https://eleven.co.il/diaspora/ethno-linguistic-groups/11277/

100. ЭЕЭ:Электронная еврейская энциклопедия ОРТ-Баку https://eleven.co.il/diaspora/communities/10381/

**Türk dilində**

101. ABD Ordusu, İsrail'den Aldığı Iron Dome Sistemini İlk Kez Test Etti-https://www.savunmasanayist.com/abd-ordusu-israilden-aldigi-iron-dome-sistemini-ilk-kez-test-etti/

102. ABD'den İsrail'i kınayan karara veto//https://www.dw.com/tr/abdden-i%CC%87sraili-k%C4%B1nayan-karara-veto/a-2526837

103. İsrail Enerji Bakanı BAE petrol boru hattı anlaşması iptal edilmeli//https://www.salom.com.tr/haber-120336-Israil_enerji_bakani_acuteacutebae_petrol_boru_hatti_anlasmasi_iptal_edilmeliacuteacute.html

104. İran'a gözdağı https://www.hurriyet.com.tr/gundem/irana-gozdagi-38260837

105. Köse T. İran Nükleer Programı ve Orta Doğu Siyaseti Güç Dengeleri ve Diplomasinin İmkanları, SETA Yayınları III, I. Baskı, Ağustos, 2008

106. Tuna O. Polemiklerin gölgesinde Azerbaycan-İsrail ilişkileri// https://www.indyturk.com/node/364466/t%C3%BCrki%CC%87yeden-sesler/polemiklerin-g%C3%B6lgesinde-azerbaycan-i%CC%87srail-ili%C5%9Fkileri

107. Tuna O. Azerbaycan İsrail'de ilk temsilciliklerini1açtı// https://www.indyturk.com/node/396886/t%C3%BCrki%CC%87yedensesler/azerbaycan-i%CC%87srailde-ilk-temsilciliklerini-a%C3%A7t%C4%B1

**İbri dilində**

108. אזרבייג’ן חונכת נציגות מסחר ותיירות בתל-אביב// (Azərbaycan Təl-əviv ticarət və turizm nümayəndəliyi açır) https://www.ias.co.il?p=118143

109. גליה לינדנשטראוס.ישראל-אזרבייג'ן: יחסים מיוחדים אל מול מגבלות //עדכן אסטרטגי. כרך 17 | גיליון 4 | ינואר 2015 70-63 (İsrail-Azərbaycan: Məhdudiyyətlər qarşısında xüsusi münasibətlər)

110. ליאור "א חתמה על הסכם לשינוע נפט מאיחוד האמירויות לישראל"קצא" גוטמן(EPA Birləşmiş Ərəb Əmirliklərindən İsrailə neft nəqli üçün müqavilə imzaladı)
https://www.calcalist.co.il/local/articles/0,7340,L-3863091,00.html

111. אזרבייג'אן: אירונאוטיקס ושיכון ובינוי בדרך לחוזים (Azərbaycan: Aeronavtika Ev və Tikinti böyük müqavilələr yolunda)
https://www.globes.co.il/news/article.aspx?did=1000475590

112. - העיירה היהודית העתיקה האחרונה: ביקור בקירימיזי קסבה-יואב קרן, אזרבייג'ן (Son Qədim Yəhudi Şəhəri: Kirimizi Kasba-Yoav Keren, Azərbaycan ziyarəti) https://www.ynet.co.il/articles/0,7340,L-5411821,00.html

113. ישראל חתמה עם אזרבייג'אן עסקת נשק בהיקף נרחב (İsrail Azərbaycanla irimiqyaslı silah müqaviləsi imzalayıb)https://www.haaretz.co.il/news/politics/2012-02-26/ty-article/0000017f-e294-d7b2-a77f-e3974da50000

**Fars dilində**

114. واعظی ارسال کمک از سوی ایران به ارمنستان را تکذیب کرد (Natiq İranın Ermənistana yardım göndərdiyini təkzib edib)
https://tn.ai/2359854

115.كدام تجهيزات در رزمايش فاتحان خيبر در منطقه شمال غرب حضور داشتند؟ https://www.yjc.news/00XCmD(Xeybər fatehlərinin şimal-qərb bölgəsində keçirilən təlimində hansı avadanlıqlar var idi?)

116. سفير جديد جمهوری اسالمی ايران در باكو گفت: شورای عالی امنيت ملی دخالت نكردن افراد غيرمسئول در روابط ايران با جمهوری آذربايجان http://www.military.ir/forums/topic/22790- - را مصوب كرد (İran İslam Respublikasının Bakıdakı yeni səfiri deyib: Ali Milli Təhlükəsizlik Şurası İranın Azərbaycan Respublikası ilə münasibətlərində məsuliyyətsiz insanlara müdaxilə etməməlidir)

117.قانون اساسی جمهوری اسلامی ايران , 3:16 https://rc.majlis.ir/fa/content/iran_constitution (İran İslam Respublikasının Konstitusiyası)